RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 90 (8406) CÜMƏ, 8 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Prezident İlham Əliyevdən ciddi tapşırıq: “Cəza tədbirlərini sərtləşdirin”

Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva modul tipli xəstəxana kompleksinin açılışında iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma tibb müəssisəsində yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, paytaxtda istifadəyə verilən modul tipli ilk xəstəxana kompleksinin tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlanıb. Sahəsi 3000 kvadratmetr olan bu kompleks 1 saylı Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərəcək. Üç korpusdan ibarət, ümumilikdə, 100 palatada 200 çarpayı yeri olan modul tipli xəstəxana kompleksində orta-ağır simptomlu infeksion xəstələrin qəbulu və müalicəsi üçün hərtərəfli şərait yaradılıb. Ehtiyac yaranacağı təqdirdə, əlavə avadanlıqlar təchiz olunmaqla palataların reanimasiyaya çevrilməsi mümkündür.

Kompleks bütün zəruri avadanlıq və sistemlə təchiz olunub. Burada quraşdırılan xüsusi havalandırma sistemi havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürür. May ayı ərzində modul tipli daha 5 xəstəxana kompleksinin, iyun ayının ortalarınadək isə digər 4 kompleksin istifadəyə verilməsi nəzərdə tutulub. Bu komplekslərin müəyyən edilən şəhər və rayonlardakı mövcud xəstəxanaların yaxınlığında quraşdırılaraq onlara təhkim edilməsi nəzərdə tutulur ki, bu da koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edəcək. Modul tipli yardımçı xəstəxana korpuslarının mühüm üstünlükləri var. Belə ki, qısa müddət ərzində sadə beton bünövrə üzərində quraşdırılan bu tikililər pandemiya ilə mübarizə başa çatdıqdan sonra, yəni, zərurət olmadıqda tezliklə və asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün də istifadə edilə bilər.

Modul tipli xəstəxana kompleksi ilə tanışlıqdan sonra dövlət başçısı və birinci xanım tibb işçiləri ilə görüşdülər.

Dövlət başçısı görüşdə nitq söylədi.

## Prezident İlham Əliyevin nitqi

- Bu gün biz modul tipli yeni xəstəxananın açılışını qeyd edirik. Bu, çox əlamətdar hadisədir. Hər bir xəstəxananın açılışı əlamətdar hadisədir. Son 16 il ərzində ölkəmizdə 700-dən çox səhiyyə ocağının tikilib və ya əsaslı təmir edildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, nə qədər böyük işlər görülübdür. Biz hesab edirdik ki, artıq mövcud xəstəxana fondu, xüsusilə müasir xəstəxanaların fəaliyyəti uzun illər ərzində tələbatımızı ödəyəcək. Ancaq koronavirus pandemiyası, əlbəttə ki, öz qaydalarını diktə edir, ona görə yeni xəstəxanaların tikintisi labüddür. Əlbəttə, xəstəxana tikintisi çox vaxt aparır, həm layihələndirmə işləri, onun texniki tərəfi, yerin seçilməsi. Əlbəttə, hesab edirəm, biz yeni texnologiyalara üstünlük verərək düzgün seçim etdik ki, modul tipli, tez bir müddətdə yığılan və sonra sökülə və başqa yerə daşına biləcək xəstəxanaların tikintisini təmin edək. Mən bir müddət bundan öncə ictimaiyyətə bu haqda məlumat vermişdim və bu gün bu xəstəxananın açılışını qeyd edirik. Cəmi bir ay ərzində 200 çarpayılıq xəstəxana istifadəyə verilir.

Əlbəttə ki, koronavirusa qarşı mübarizədə bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar böyük rol oynayacaq. Ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Əlbəttə ki, çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır.

Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Görürük ki, orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan, ümumiyyətlə, xəstəxanalara götürülmür, onlar evlərdə qalırlar. Əlbəttə, evlərdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür.

Azərbaycanda koronavirusa qarşı mübarizədə bizim təcrübəmiz hesab edirəm ki, ən mütərəqqi və ən insansevər təcrübədir. Çünki bizim bütün xəstələrimiz xəstəxanalarda yerləşdirilib və həkimlər onlara gecə-gündüz xidmət edirlər. Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb.

*Ardı 3-cü səh.*

# Azərbaycan dünya birliyinin məsuliyyətli və səmərəli üzvü kimi pandemiya ilə beynəlxalq səviyyədə mübarizəyə böyük töhfə verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Mir” televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.



**Aparıcı:** İndi Azərbaycan Prezidenti İlham Əliyevin televiziya kanalımıza eksklüziv müsahibəsini təqdim edirik.

**- Hörmətli cənab Prezident, bu müsahibəni almağa imkan yaratdığınıza görə Sizə minnətdarlıq etmək istərdim. Şübhə yoxdur ki, tarixçilər 2020-ci ili koronavirus ili adlandıracaqlar. Sizcə bu, necə baş verə bilərdi?**

**Prezident İlham ƏLİYEV:**

- İnsanlarımızın sağlamlığını və həyatını qorumaq məqsədilə biz lap əvvəldən məhdudlaşdırıcı tədbirlər gördük. Hesab edirəm ki, tədbirlər özünü doğrultdu. Bu tədbirlər tədricən sərtləşdirildi və son nəticədə biz xüsusi karantin rejiminin tətbiqinə gəlib çatdıq. Bizim bütün resurslarımızın səfərbərliyə alınması, pasiyentlərin layiqincə müalicəsini təmin etmək məqsədilə tibbi preparatların, zəruri avadanlıqların əldə edilməsi üzrə böyük təşkilati iş aparıldı. Qısa müddətdə tibbi maskaların və dezinfeksiyaedici vasitələrin istehsalı üzrə müəssisə işə salındı. Həmçinin yaxın vaxtlarda həkimlər üçün xüsusi geyimlər istehsal edən müəssisə işə salınacaq. Yaxın vaxtda hər birində 200 çarpayı olmaqla 10 yeni xəstəxananın istifadəyə verilməsi planlaşdırılır. Bu, yeni tikinti texnologiyaları - modul tipli texnologiyalardır. Bu günədək 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb, o cümlədən bu yaxınlarda 575 pasiyent üçün nəzərdə tutulan ən müasir xəstəxana açılıb. Həmçinin koronavirusla mübarizəyə cəlb edilən tibbi heyətin sosial təminatı üçün tədbirlər görülüb. Bu kateqoriyadan olan tibb işçilərinin əməkhaqqı müvafiq olaraq 3, 4 və 5 dəfə artırılıb. Yeni laboratoriyalar alınıb. Bu gün laboratoriyaların sayı artıq 23-dür.

*Ardı 3-cü səh.*

# Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**- Salam, İlham Heydər oğlu. Sizi salamlamağa şadam. Mən Sizinlə müxtəlif şəraitdə və müxtəlif yerlərdə söhbət etmək, Sizdən müsahibə götürmək şərəfinə nail olmuşam. Amma onlayn formatda söhbətimiz ilk dəfədir.**

- Bəli, siz haqlısınız. Bu format bir qədər qeyri-adidir, lakin artıq hamı ünsiyyətin bu formasına vərdiş edir. Ona görə düşünürəm ki, söhbətimizin məzmunu bu formatdan zərər çəkməyəcək. Hərçənd, əlbəttə, ən yaxın vaxtda sizi şəxsən görəcəyimə ümid edirəm.

**- Sağ olun, İlham Heydər oğlu. Çox vacib hesab etdiyim bir məsələdən başlamaq istəyirəm. Sizinlə böyük bayram - Qələbə Günü ərəfəsində görüşürük. Mən bilirəm ki, həmin gün Siz Moskvaya getməyə hazırlaşırdınız, çoxlu tədbirlər planlaşdırılırdı. Lakin pandemiya ilə bağlı sərt gerçəklik buna öz təsirini göstərdi. Bilirəm ki, Azərbaycanda bu böyük bayram həmişə çox təntənəli şəkildə qeyd edilirdi. Bu, təbii və ədalətlidir, çünki 600 mindən çox Azərbaycan vətəndaşı cəbhədə olub, onların yarısından çoxu döyüş meydanında həlak olub, müharibədən qayıtmayıb. 123 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Bu, bütün xalqın çox böyük igidliyidir.**

*Ardı 4-cü səh.*



## Tacikistan Azərbaycanın göstərdiyi yardımı yüksək qiymətləndirir

Mayın 7-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Emoməli Rəhmon koronavirus pandemiyası ilə mübarizədə Azərbaycanın ölkəsinə göstərdiyi yardımı yüksək qiymətləndirərək indiki çətin dövrdə bunu qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı dost və qardaş xalqlarımızın hər zaman, xüsusilə də ağır pandemiya dövründə bir-birinin yanında olmasının önəmini vurğuladı və bunu dostluq münasibətlərimizin təbii göstəricisi kimi qiymətləndirdi.

Dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə istiqamətində ölkələrimizdə həyata keçirilən işlər barədə fikir mübadiləsi apardılar və ikitərəfli münasibətlər, o cümlədən iqtisadi əməkdaşlığın perspektivləri, nəqliyyat-tranzit problematikası ilə bağlı məsələləri müzakirə etdilər.

***Prezidentin Mətbuat Xidməti***

## Mehriban ƏLİYEVA: “Biz ilk döyüşdə qalib gəldik, amma pandemiya ilə müharibə hələ davam edir - bizim ölkəmizdə və bütün dünyada”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı xalqımıza növbəti dəfə müraciət edib.

AZƏRTAC müraciəti təqdim edir:

“Hörmətli həmvətənlər!

Sizinlə ölkəmizdə COVID-19 epidemiyasının hazırkı vəziyyəti ilə bağlı fikirlərimlə bölüşmək istəyirəm.

Keçdiyimiz yolu dəyərləndirərək bu gün artıq deyə bilərik ki, bu şiddətli virus hücumu başlayanda onun real miqyasını, təhlükə dərəcəsini və törədə biləcəyi fəsadları qiymətləndirmək və dərk etmək üçün çox az məlumat var idi. Bir şey aydın idi - bütün imkanları səfərbər etmək və qəti tədbirlər görmək lazım idi. Əminliklə təsdiqləyə bilərik ki, ölkəmiz bu vəzifənin öhdəsindən şərəflə gəldi. Həm azərbaycanlı, həm də beynəlxalq ekspertlərin fikrincə, Azərbaycan epidemiyanın ilk və olduqca təhlükəli mərhələsindən ən az sayda itkilərlə çıxan dövlətlər sırasında yer alıb. Biz ən əsas məsələlərə - virusun sürətli yayılmasının qarşısını almağa, epidemiya ilə mübarizənin bütün aspektlərini əlaqələndirən peşəkar komanda yaratmağa, lazımi texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Sərt karantin tədbirləri sayəsində koronavirusun yayılma sürətini azaltmağı bacardıq. Səhiyyə sistemi qısa müddət ərzində təhlükəli epidemiyaya qarşı effektiv müqavimət strategiyası işləyib hazırladı. Şəhərlərin və kəndlərin həyat təminatı obyektlərinin işçiləri təxirəsalınmaz məsələləri həll edirdilər. Kiçik və orta biznesə dəstək, habelə əhaliyə sosial yardım məqsədilə dövlət tərəfindən dəyəri 3 milyard manatdan çox olan proqram paketləri hazırlanıb həyata keçirilir.

Bir sözlə, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü həqiqətən də faciəli ssenaridən qurtara bildi.

Əməyi uğurlarımızın qarantı olan hamıya və hər kəsə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Çətin sınaq günlərində xalqımız bir daha ən yaxşı xüsusiyyətlərini nümayiş etdirdi və bu, sonsuz təşəkkürə layiqdir. Biz öz Vətənimizin təhlükəsizliyinin qayğısına qalırdıq və qalırıq, təhlükəyə qarşı yenilməz birlik nümayiş etdiririk. Əziz həmvətənlərim, biz birlikdə xəstəliyin məhvedici dərəcədə tez yayılmasından öz evimizi qoruya bildik. Buna görə çox sağ olun!

Bizim cəsarətli tibb işçilərimizə - həkimlərə, tibb bacıları və qardaşlarına, laborantlara, xəstəxana və klinikaların texniki heyətinə, gecə-gündüz insanların həyatı və sağlamlığı naminə mübarizə aparmağa davam edən hər kəsə bir daha səmimi və sonsuz təşəkkürümü ünvanlayıram. Polislərə və daxili qoşunların hərbi qulluqçularına dərin təşəkkürümü bildirirəm. Axı bu çətin günlərdə asayişi, təhlükəsizliyi və karantin tədbirlərinə əməl olunmasını məhz onlar təmin edirlər.

Heydər Əliyev Fondunun, “Regional İnkişaf” İctimai Birliyinin bütün əməkdaşlarına, sosial işçilərə və könüllülərə təşəkkür edirəm. Bu məsələyə laqeyd yanaşmayan bütün insanlara, yaxınlarına kömək göstərən, xeyirxahlıq edən hamıya



minnətdaram. Uca Tanrı yaxşı əməl sahiblərinin savabını artıracaqdır!

Əziz dostlar!

Müsbət nəticələr sayəsində biz təcrid rejiminin müəyyən dərəcədə yumşaldılmasına imkan verə bilərik. Bir sıra dövlət qurumlarının və özəl biznes sektorunun fəaliyyəti bərpa olunur. Daha əvvəl tətbiq olunan bəzi karantin tədbirləri ləğv edilir. Bu, o deməkdirmi ki, hər şey arxada qaldı və biz gündəlik həyatımıza geri dönə bilərik? Əfsuslar olsun ki, həmin vaxt hələ gəlib çatmayıb. Bəli, biz ilk döyüşdə qalib gəldik, amma pandemiya ilə müharibə hələ davam edir - bizim ölkəmizdə və bütün dünyada. Bütün ölkələrə və xalqlara bu qədər bəla və əzablar yaşadan virus hələ məğlub olmayıb. O, əvvəlkitək hamı üçün ciddi təhlükə olaraq qalır və əvvəlkitək bizim aramızdadır. COVID-19-a qarşı vaksinin nə zaman hazırlanacağını və xəstəliyin tez və effektiv müalicə üsulunun nə vaxt yaranacağını bu gün dəqiqliklə heç kim deyə bilmir. Hələ ki, bu, baş verməyib, hamımız dərk etməli və qəbul etməliyik ki, biz bu yeni reallıqla yaşamalıyıq. Biz heç bir halda sayıqlığımızı itirməməli, ümidverici rəqəmlər fonunda səhlənkarlığa imkan verməməliyik. Belə əziyyətlə nail olduğumuz nəticələri sıfıra endirərək itirmək yolverilməzdir. Laqeydlik hər birimizə, bizim yaxınlarımıza, bizim ölkəmizə real təhlükə törədəcəkdir. Biz hamımız yeni qaydalarla yaşamağı öyrənməliyik. Əslində, bu qaydalar elə də çətin deyil - məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Tərəzinin digər gözündəki həyat və sağlamlığımızdır. Yeni acı həqiqət budur və bununla Prezidentdən başlayaraq sıravi vətəndaşlaradək hamı hesablaşmaq məcburiyyətindədir.

Əziz həmvətənlər!

Şübhəsiz ki, COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Çox ümidvaram ki, həmin gün uzaqda deyil. Amma hələ ki, o gün gəlməyib, hörmətli qardaşlar və bacılar, xahiş edirəm, sayıq və intizamlı olun, yeni qayda və tələblərə tam ciddiyyətlə yanaşın. Özünüzdən və yaxınlarınızdan muğayat olun! Bizim sevimli Vətənimizi, bizim Azərbaycanımızı qoruyun!

Dərin hörmət və sevgilərlə,

**Sizin MEHRİBAN”.**

*▪ Özünü, doğmalarını və dostlarını qorumaq:*
*▪ Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Azərbaycanın dövlət siyasətinin əsas məqsədi vətəndaşların həyatını, sağlamlığını qorumaqdır

## Prezident İlham Əliyevdən ciddi tapşırıq: "Cəza tədbirlərini sərtləşdirin"

Əvvəli 1-ci səh.





Çünki hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı ödəyir və 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin sərəncamına verilibdir, o cümlədən ən yeni və ən müasir 575 çarpayılıq "Yeni klinika". Orada hazırda xəstələr müalicə olunurlar. Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaq. Ona görə biz tam hazır olmalıyıq.

Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olunmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir.

Bu gün testlərin aparılması istiqamətində də böyük uğurlar var. Adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Testlərin keçirilməsi üçün yeni laboratoriyalar alınıbdır. Onların sayı 23-ə çatıb və yeni laboratoriyaların yaradılması gündəlikdə duran məsələdir.

Bütün lazımi tibbi avadanlıq alınır. Bildiyiniz kimi, Prezidentin Ehtiyat Fondundan tibbi avadanlıqların, ləvazimatların alınması və işi düzgün təşkil etmək üçün 100 milyon manat vəsait ayrılıbdır. Bu, birinci transdır, əlavə 150 milyon manat artıq hazır vəziyyətdədir, lazım olan vaxtda biz ondan da istifadə edəcəyik. Əlbəttə, bütün bu kompleks tədbirlər - testlərin keçirilməsi, xəstəxanaların, laboratoriyaların fəaliyyəti və həkimlərin peşəkarlığı, işin düzgün təşkili bizə imkan verdi ki, hazırda bu vəziyyətdən istədiyimiz kimi, az itkilərlə çıxaq. Hər bir insanın ölümü onun yaxınları, qohumları üçün böyük faciədir və hər bir insanın həyatı bizim üçün qiymətlidir, dəyərlidir. Ancaq dünyada hər şey müqayisədə ölçülür və biz görəndə ki, inkişaf etmiş ölkələrdə gündə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir, əlbəttə ki, Azərbaycanda bu sahədə görülmüş işlər xüsusi əhəmiyyət daşıyır və bunu hər kəs görür. Hətta bizimlə eyni sayda əhalisi olan ölkələrdə artıq uzun müddətdir ki, hər gün yüzlərlə insan vəfat edir. Bu ölkələrin səhiyyə sistemi həmişə bütün dünyaya, o cümlədən bizə nümunə kimi göstərilirdi. Ancaq bu dövrdə hər kəs gördü ki, orada vəziyyət artıq böhranın pik həddinə çatıb. Ona görə əlbəttə ki, müqayisə aparılanda Azərbaycan dövlətinin gördüyü işlər böyük üstünlük təşkil edir. Biz əsas diqqətimizi vəziyyəti nəzarətdə saxlamaqda görürük və birinci mərhələdə buna nail ola bilmişik. Ona görə kompleks tədbirlərin görülməsi, o cümlədən karantin rejiminin tədricən vəziyyətə uyğun olaraq qüvvəyə minməsi, onun sərtləşdirilməsi və son günlər ərzində yumşaldılması - bütün bunlar ölçülüb-biçilmiş addımlardır.

Karantin rejimi nə üçün sərtləşdirilirdi? Yoluxma hallarının geniş yayılmasının qarşısının alınması üçün və biz buna nail olduq. Birinci mərhələdə bu virus bizə, belə demək mümkündürsə, idxal edilmişdir, amma ondan sonra daxili yoluxma halları baş vermişdir. Dərhal operativ tədbirlər görüldü və məhz sərt karantin qaydalarına görə biz bu mərhələni az itkilərlə başa vurduq. Görəndə ki, artıq 3 həftə ərzində hər gün sağalanların sayı yoluxanların sayından xeyli çoxdur, onda biz artıq yumşalma tədbirləri görməyə başladıq. Ancaq əfsuslar olsun ki, bəzi adamlar bunu karantin rejiminin ləğvi kimi qəbul etdilər. Əfsuslar olsun ki, bəzi adamlar karantin rejiminə əməl etmirlər. Yumşalma tədbirləri yalnız bir məqsədi güdürdü ki, insanların öyrəşdiyi həyat tərzi müəyyən dərəcədə bərpa olunsun. Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb, xeyr. Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım olarsa, uzadılacaq. Ona görə son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa, - mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin, - biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq.

Azərbaycan dövlətinin siyasəti və Operativ Qərargahın bu işlərə gündəlik rəhbərlik etməsi əsas bir məqsədi güdür ki, biz vətəndaşların həyatını, sağlamlığını qoruyaq. Eyni zamanda bu məhdudlaşdırıcı rejim çərçivəsində insanlara maksimum imkan yaradaq ki, onlar öyrəşdiyi gündəlik həyat tərzindən çox da uzaqlaşmasınlar. Ona görə biz bu yumşaldıcı tədbirləri görmüşük. Aprelin 27-dən, sonra mayın 4-dən daha da yumşaq rejim qüvvədədir. Ancaq biz nəyi görürük? Onu görürük ki, bəzi məsuliyyətsiz vətəndaşlar heç bir qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, özlərini elə aparırlar ki, sanki virus artıq məhv olub. Buna qətiyyən yol vermək olmaz. Ona görə bu adamlara qarşı ciddi tədbirlər görüləcək. Hamı bunu bilsin və nəticə çıxarsın. Biz imkan verə bilmərik ki, hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatı risk altına düşsün. Qətiyyən mümkün deyil.

Ona görə indi ölkəmizin bəzi bölgələrində sanki pandemiyanın yeni mərhələsi başlayır, xüsusilə Gəncə şəhərində. Buna çox ciddi yanaşmaq lazımdır. Ona görə indiki karantin rejimində Bakı, Sumqayıt, Abşeron, Gəncə, Lənkəran üçün xüsusi rejim var. Nəyə görə? Çünki bu yerlərdə, bu şəhərlərdə xəstələrin sayı, yoluxma halları daha çoxdur. Son günlərdə yoluxanların demək olar ki, 30, 40, 50 faizi Gəncə şəhərinin payına düşür. Deməli, orada vəziyyət narahatlıq doğurmalıdır. İndi bu, araşdırılır, səbəbi nədir? Əsas səbəb insanlar və rəhbər orqanlar tərəfindən vaxtında tədbirlərin görülməməsidir. Harada ki, vaxtında tədbirlər görülür, harada ki, qəbul edilmiş qaydalar icra edilir, orada vəziyyət nəzarət altındadır. Biz nəzarəti gücləndirəcəyik. Ona görə karantin rejimi ilə bağlı sərtləşdirici tədbirlər istisna deyil. Bir daha demək istəyirəm ki, biz virusla mübarizədə birinci mərhələdə qalib gəlmişik. Virus qeyb olmayıb, burada dolaşır və dolaşacaq. Bunu həkimlər, mütəxəssislər çox yaxşı bilirlər, istərdim ki, vətəndaşlar da bunu bilsinlər. Maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Bəziləri hesab edir ki, bəli, virus daha yoxdur, bütün dünya böhran içindədir, Azərbaycan isə sanki dənizdə bir adadır, burada hər şey yaxşıdır və yaxşı olacaq. Əlbəttə, bir çox ölkələrə nisbətən yaxşıdır, ancaq buna mütləq formada yaxşı demək olmaz.



Əlbəttə, vətəndaşlar şəxsi gigiyenaya riayət etməlidirlər. Hesab edirəm ki, uzun müddət bundan sonra bu, bir növ yeni reallıqdır və biz bu reallıqla barışmalıyıq, istəsək də, istəməsək də. Maska taxmaq, məsafə saxlamaq, gündə bir neçə dəfə sabunla əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. İndi bilirsiniz, biz bəzən özümüzü bir neçə ölkə ilə müqayisə edirik, deyirik, - bəli, mən də bu gün bunu deyirəm, - həqiqətdir ki, bir çox inkişaf etmiş ölkələrdə vəziyyət acınacaqlıdır, böhranlıdır. Azərbaycandan fərqli olaraq o ölkələr bilmirlər ki, bu böhranla necə bacarsınlar. Amma digər tərəfdən biz görürük ki, o ölkələrdə, inkişaf etmiş ölkələrdə, məsuliyyət, nizam-intizam yüksək səviyyədə olan ölkələrdə insanlar məsafə saxlayırlar. Biz televiziyada görürük, növbə var, adamlar öz aralarında bir metr yarım, iki metr məsafə saxlayırlar, maska taxırlar. Amma bizdə məsafə saxlayan var? Açın istənilən kanala baxın. Dünən mən baxmışam, bankın qabağında bir-birinin yanında durublar, maska yox, müxbirlər soruşurlar ki, nə üçün? Elə bil ki, məktəb uşaqlarıdır, min cür bəhanə gətirirlər - yadımdan çıxdı, havada maska lazım deyil, cibimdədir. Biz belə münasibətə dözə bilmərik. Bu, zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində.

Həkimlər, mütəxəssislər yaxşı bilirlər və geniş ictimaiyyət də bilməlidir ki, koronavirusa qarşı mübarizə o vaxt başa çatacaq ki, peyvənd hazırlanacaq. İndi bütün dünya bu peyvəndi gözləyir. Peyvəndin icad edilməsi üzərində bir çox ölkələrdə alimlər işləyir. Peyvənd hazırlanandan sonra artıq deyə bilərik ki, bəli, biz özümüzü bu virusdan qoruya bilərik. O vaxta qədər virus var və bunu hər kəs bilsin.

Ona görə mən hesab edirəm ki, bütün kompleks tədbirlər, vətəndaşların məsuliyyəti və nizam-intizamı nəticəsində biz bundan sonra da bu vəziyyəti nəzarət altında saxlaya biləcəyik. Çünki burada məsələ ancaq dövlət qurumlarının fəaliyyətindən asılı deyil. Dövlət qurumları, vətəndaş cəmiyyəti, vətəndaşlar, biz bir nöqtəyə vurmalıyıq. Biz həmrəylik, birlik göstərmişik. Həmrəyliyin təzahürlərindən biri də odur ki, həm dövlət, həm özəl sektor, sahibkarlar, ayrı-ayrı adamlar imkansız insanlara əl tuturlar, kömək göstərirlər, onları ərzaq malları ilə təchiz edirlər. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr verirlər. Artıq fondda 100 milyon manatdan çox vəsait toplanıb. Bütün bunlar bizim xalqımızın ən yüksək xüsusiyyətlərini göstərir: mərhəmət, imkansızlara diqqət, yardım, birlik, həmrəylik. Amma məsuliyyət də, nizam-intizam da göstərməliyik. Hələ ki, biz bunu müraciət formasında dilə gətiririk. Amma lazım olsa, bu, məcburi qaydada tətbiq ediləcək.

Həkimlər öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına qoyurlar, xəstələrə gecə-gündüz xidmət edirlər. Biz həkimlərin fədakarlığını yüksək qiymətləndiririk. Bir daha Azərbaycan xalqı gördü ki, ən çətin dövrdə, bu pandemiya dövründə aparıcı şəxs, aparıcı adam insanların həyatını qoruyan həkimdir. Əlbəttə, bütün başqa amillərlə bərabər, dövlət lazımi tədbirləri görür. Amma son nəticədə xəstələri müalicə edən, onları həyata qaytaran həkimlərdir. Həkimlər gecə-gündüz işləyirlər, insanları xilas edirlər. Bu xəstəlikdən canını qurtaran bütün pasiyentlər, ilk növbədə, həkimlərə minnətdar olmalıdırlar. Bizim polis əməkdaşları, Daxili Qoşunların əməkdaşları gecə-gündüz küçələrdədir, həyatlarını risk altına atırlar, camaatı başa salmağa çalışırlar. İndi onların əməyini yerə vurmamalıyıq. Nəyə görə kimsə özü üçün hansısa xüsusi imtiyaz yaratmaq istəyir. Buna gəldikdə də bildirməliyəm, pandemiya bütün dünyaya göstərdi ki, bu xəstəlik qarşısında hamı bərabərdir. Heç kimə heç bir imtiyaz verilmir və verilməyəcək. Bu, bizim siyasətimizin əsas hissəsindən biridir ki, qanunun aliliyi, bərabərlik daim bərqərar olmalıdır. Ona görə heç kimə heç bir imtiyaz verilməyəcək. Odur ki, karantin rejimini pozan, vaxtını hansısa iaşə obyektində keçirmək istəyən adamlara qarşı da, - onlar müəyyən olunduqda, - ciddi cəza tədbirləri görülür, tətbiq olunur, o cümlədən vəzifəli şəxslərə qarşı. Karantin rejimini pozduqlarına görə artıq bir neçəsi cəzalandırıldı.

Eyni zamanda, əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük. Kasıbın malına, ərzaq payına göz dikən xaindir, bunun başqa adı yoxdur. Bu, oğurluq deyil, bu, kiçik bir cinayət deyil. Heydər Əliyev Fondu tərəfindən göndərilən ərzaq paylarına sahib çıxmaq istəyən vəzifəli şəxslərin hərəkətinə nə demək olar? Ancaq xəyanət. Mən demişəm, bir daha demək istəyirəm ki, bir çoxları pandemiyanı müharibə adlandırırlar. Müharibə, əslində, göz qabağındadır. Bu şəraitdə belə adamlara nə ad vermək olar? Ona görə bu adamların cəzalandırılması qaçılmazdır. Eyni zamanda indiki şəraitdə xüsusilə kasıb adamların maaşını mənimsəmək, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb ondan pul çəkmək, bu da xəyanətdir. Son müddətdə həbs olunan icra başçılarının beşi də bu bəd əməllərdə təqsirləndirilir. Son həbslər də onu göstərir. O icra başçılarının, onların yaxınlarının, köməkçilərinin iş otaqlarından yüzlərlə ödəmə kartı çıxıb, yüzlərlə. Mənə verilən məlumata görə, son tutulan icra başçısının iş otağından 140 ödəmə kartı çıxıb. Bu nədir? Biz bu kartı özünə iş tapa bilməyənlərə veririk. Əvvəl də verirdik. Biz ildə otuz min, qırx min belə adamı ictimai işlərə cəlb edirdik - hansısa binanın rənglənməsi, yaxud da ki, onların bağçaya xidmət etməsi və digər işlərə. Onlar minimum əməkhaqqı səviyyəsində maaş alırdılar, bu gün 250 manat. Amma onlara çatacaq kartlar icra başçıları tərəfindən götürülür, sonra o pullar mənimsənilir. Kasıb adamlar da işsiz və pulsuz qalır. Bu, adi cinayətdirmi? Yox. Bu, xəyanətdir. Bunun başqa adı yoxdur. İndiki şəraitdə də bunu davam etdirirlər. Bu adamlarda vicdan deyilən şey yoxdur, vicdanı tam itiriblər. Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq. Bu gün cəmiyyətimizin bütün sağlam qüvvələri bir amal ətrafında birləşib ki, bu vəziyyətdən az itkilərlə çıxaq, insanları qoruyaq, xəstələri sağaldaq. Həkimləri qoruyaq ki, onlar insanları qorusunlar, özlərini qorusunlar. Ona görə belə bir vəziyyətdə belə çirkin addımların atılması tamamilə qəbuledilməzdir. Bir daha demək istəyirəm ki, bu addımları atanlar, bu cinayətləri törədənlər layiqli cəzalarını alacaqlar.

Mən deyə bilərəm ki, pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. İstisna deyil ki, ikinci rübün yekunları o qədər də ürəkaçan olmayacaq. Ancaq bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır. Biz bilirik ki, əgər karantin rejimini bax, dediyim bu səbəblərə görə sərtləşdirsək, iqtisadi vəziyyətimizə bunun çox mənfi təsiri olacaq. Amma biz buna gedəcəyik. Çünki insanların sağlamlığı və sosial rifahı birinci yerdədir. Məhz bu məqsədlə 3,5 milyard manat vəsait ayrıldı. Pandemiyadan ən çox ziyan çəkən sahələrdə işini itirən 700 minə yaxın vətəndaşın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən verilir. Bu məqsədlə 600 min işsiz, aztəminatlı və qeyri-formal məşğulluqla pul qazanan insanlar dövlət tərəfindən maddi yardımla təmin edilir. Bütün bu işləri biz görürük ki, vətəndaşların sosial və maddi vəziyyətini sabit saxlayaq. Bütün bu addımlar, əlbəttə ki, beynəlxalq birlik tərəfindən də qiymətləndirilir. Mən bunu demişəm, bir daha demək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda pandemiyaya qarşı mübarizə istiqamətində görülmüş tədbirləri yüksək qiymətləndirib, bizi nümunəvi ölkə adlandırıb. Bu, həqiqətən də belədir. Azərbaycanda həm ölkə daxilində, ilk növbədə, bütün lazımi tədbirləri görürük və beynəlxalq müstəvidə də öz sözümüzü deyirik. Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk. Pandemiyaya qarşı qlobal mübarizədə biz birinci ölkələrdən olduq ki, Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verdik. Bu yaxınlarda artıq Qoşulmama Hərəkatının sədri kimi əlavə 5 milyon dollar ianə verdik Ümumdünya Səhiyyə Təşkilatına ki, bizimlə razılaşdırmaqla Hərəkata üzv ölkələrə yardım göstərilsin. Bilirsiniz ki, mənim təşəbbüsümlə iki Zirvə görüşü keçirildi - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Hər iki təsisatda Azərbaycan hazırda sədrdir. Bu təşəbbüs vaxtında və yerində olan təşəbbüsdür. Demək olar ki, bütün dünya birliyi bunu alqışlayır və Azərbaycanın rolunu qeyd edir.

Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Kim bizə irad tuta bilərdi ki, bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik. Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü dünya miqyasında onlayn formatda birinci Zirvə görüşü idi. Qoşulmama Hərəkatının Zirvə görüşü isə 120 ölkəni birləşdirir. Onu da bildirməliyəm ki, bu Zirvə görüşünə təbrik müraciətlərini BMT-nin Baş katibi Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Avropa Komissiyasının vitse-prezidenti göndərmişdilər. Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatı ilə Avropa İttifaqı arasında, mən bilən, bu günə qədər hər hansı bir ciddi təmas olmayıb. Çünki bu iki təsisat fərqli qütblərdə yerləşir və bir çox hallarda onların baxışları üst-üstdə düşmür. Ona görə bu da bir ilkdir. Əgər biz ölkələrin sayını götürsək, görərik ki, Qoşulmama Hərəkatında 120 üzv, Avropa İttifaqında 27 üzv, artıq 147 və Afrika İttifaqında 55 üzv fəaliyyət göstərir. Düzdür, onların bəziləri Qoşulmama Hərəkatının üzvüdür. Buna baxmayaraq, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanın təşəbbüsü ilə COVID-19-a qarşı vahid platforma formalaşdırdı. Mən tam səmimiyyətlə deyə bilərəm, özümüzü tərifləmək üçün yox, sadəcə olaraq, həqiqəti dilə gətirmək üçün, Azərbaycan dünyanı birləşdirir. Birincisi, milli zəmində, yəni, ölkə ərazisində görülən bütün işlər, tədbirlər nümunəvi xarakter daşıyır. Sosial-iqtisadi paket adambaşına düşən xərclərə görə dünyada bəlkə də birincilər sırasındadır. Beynəlxalq müstəvidə özünü məsuliyyətli üzv kimi aparıb və yenə də ümumi daxili məhsula görə bizim qədər donor ianəsi verən olmayıb. Düzdür, bəzi ölkələr böyük rəqəmlər bəyan ediblər, amma hanı o vəsait, yoxdur. Bizimki isə nağd verilib. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər də dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir. Bax, bu çətin dövrdə hər kəsin əsl siması üzə çıxdı. Kim nəyə qadirdir, kim ölkəni necə idarə edir, kim böhrana qarşı necə hərəkət edir, kim xalqı, cəmiyyəti səfərbər edə bilib, kim isə, sadəcə olaraq, xarici yardıma möhtac qala-qala başqasından yardım diləyir. Ona görə həm özümüzə, xalqımıza, həm də bütün dünyaya bir daha göstərdik ki, biz ləyaqətli ölkəyik. Bizim üçün milli maraqlar prioritet məsələdir. İnsanların sağlamlığı isə milli maraqlar arasında prioritet yerdədir.

Bugünkü açılış böyük rəmzi məna daşıyır. Birincisi, ona görə ki, 10 xəstəxana işə düşəndən sonra bizim əlavə 2 min çarpayımız olacaqdır. Amma əsas odur bu, onu göstərir ki, biz qısa müddət ərzində bütün resursları səfərbər edib yüksək nailiyyətlərə nail ola bilmişik.

Əlbəttə ki, həkimlərin fəaliyyətini bir daha qeyd etmək istərdim. Həkimlər, doğrudan da, böyük fədakarlıq, qəhrəmanlıq göstərirlər. Sizə bundan sonra da uğurlar arzulayıram. Amma xahiş edirəm ki, özünüzə də yaxşı baxın, xəstələnməyin, həmişə belə vətənpərvər, həmişə peşəkar və xalqı sevən insanlar kimi yaşayın, yaradın, insanlara tibbi xidmət göstərin. Sağ olun.

Ardı 3-cü səh.

# Azərbaycanın dövlət siyasətinin əsas məqsədi vətəndaşların həyatını, sağlamlığını qorumaqdır

## Prezident İlham Əliyevdən ciddi tapşırıq: "Cəza tədbirlərini sərtləşdirin"

*Əvvəli 2-ci səh.*

Sonra həkimlər Vasif Əliyev və Günay Muradova çıxış etdilər.

**Vasif ƏLİYEV** dedi:

- Möhtərəm Prezident İlham Əliyev və hörmətli Mehriban xanım.

Əvvəlcə Sizə minnətdarlığımı bildirmək istəyirəm ki, çox qısa zaman ərzində koronavirusla mübarizə çərçivəsində lazımi imkanlara malik yeni modul tipli xəstəxana biz həkimlərin ixtiyarına verilir.

Modern tibbi xidmətin təşkilində xüsusi yeri olan modul tipli xəstəxanalar bu gün də, gələcəkdə də xəstəliklərin müalicəsində və idarə edilməsində daha çevik davranmağımıza imkan verəcəkdir.

Pandemiya dövründə "Yeni klinika" tibb müəssisəsinin açılması və orada ən müasir tibbi avadanlıqların quraşdırılması da xüsusilə ağır koronavirus xəstələrinə xidmət göstərməyimiz baxımından müstəsna rol oynadı.

Onu da qeyd etmək istəyirəm ki, dövlətimiz tərəfindən xəstəxanalarımızın dərmanlarla, zəruri tibbi ləvazimatlarla vaxtında təchizatı, Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılması biz tibb işçilərinin etibarlı və adekvat xidmət göstərməsinə imkan yaradıb.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun Sizə ünvanladığı təşəkkürü də Sizin rəhbərliyinizlə verilmiş qərarların nə qədər doğru və zamanında olduğunu bir daha sübut edir.

Bunun nəticəsidir ki, Azərbaycanın pandemiya ilə savaşdakı uğuru dünya ölkələrinin də diqqətindən yayınmayıb.



Xalqımız bir daha əmin oldu ki, Prezidenti və dövləti hər zaman onun yanındadır. Biz birlikdə virusla savaşda qalib gələcəyik. Biz birlikdə güclüyük. Təşəkkür edirəm.

**Günay MURADOVA** dedi:

- Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım.

Dövlət Proqramı çərçivəsində Türkiyədə tibbi təhsil almış gənc həkimlər olaraq əvvəlcə bizə yaradılmış şəraitə və verilən dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Zamanında səhiyyəmiz üçün verdiyiniz qərarlar sayəsində bu sahənin inkişafı artıq öz töhfəsini verir. Hazırda Dövlət Proqramı məzunları pandemiya ilə mübarizə komandasında fəal iştirak edirlər.

Görülən bütün bu işlər, verdiyiniz dəstək sayəsində səhiyyəmizin inkişafı isə xarici ölkələrdə təhsil almaqda olan və çalışan bizim kimi gənc həkimlərimizin də Vətənimizə geri dönüb, xalqımıza xidmət göstərməsi üçün stimuldur.

Koronavirus pandemiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə verdiyiniz qərarlardan biri də inkişaf etmiş xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da modul tipli xəstəxanaların yaradılmasıdır.

Məhz müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxanalar sayəsində biz yoluxmuş xəstələrin səmərəli müalicəsini təşkil edə biləcəyik.

Sizi əmin etmək istəyirik ki, bu çətin və şərəfli yolda əlimizdən gələni əsirgəməyəcək, ölkəmizə layiqincə xidmət göstərəcəyik.

* * *

Qeyd edək ki, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, bu virusa yoluxanların müalicəsinin yüksək səviyyədə təşkili, onların tezliklə sağalması istiqamətində görülən işlər birbaşa Prezident İlham Əliyevin nəzarətindədir. Virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər görüldü. Təsadüfi deyil ki, COVID-19 ilə bağlı Azərbaycanda görülən işləri Ümumdünya Səhiyyə Təşkilatı bu gün nümunə kimi göstərir. Bu istiqamətdə görülən kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli 10 yeni xəstəxananın tikintisinin xüsusi əhəmiyyəti var. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır. Hazırda ölkə ərazisində, ümumilikdə, modul tipli daha 9 xəstəxana kompleksinin quraşdırılması aparılır. Onlardan daha biri Bakıda, digərləri isə Gəncə, Sumqayıt, Abşeron, Şəki, İsmayıllı, Qəbələ, Qobustan və Şamaxıda quraşdırılacaq. Modul tipli xəstəxanaların istifadəyə verilməsi nəticəsində ölkəmizin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranacaq.

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əmirov Cəmil Fikrət oğlu
Göyçayev Teymur Ənvər oğlu
Xanı-zadə Bəxtiyar Oqtay oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Quliyev Qabil Əzizulla oğlu
Şərifov Vaqif Abdulla oğlu
Tağızadə İranə Tofiq qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2020-ci il*

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasov Tariyel Abbasqulu oğlu
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Kyazım Ənvər oğlu
Abdullayev Mətləb Fətəli oğlu
Abdullayev Sərxan Qəhrəman oğlu
Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Axundov Bəxtiyar Ağayar oğlu
Allahverdiyev Vasif Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayeva İnarə Əhməd qızı
Bağırov İzaməddin Zeynal oğlu
Bayramov Salman Bayram oğlu
Bəxtiyarov Rəşad Bəhram oğlu
Butenko İqor Leonidoviç
Cəfərov Mircavad Mirqəfər oğlu
Cəfərov Novruz Adil oğlu
Cəfərov Samir Qadir oğlu
Dadaşov Əmrah Balaxan oğlu
Eyvazov Anar Əli oğlu
Eyvazov Yasəf Alxas oğlu
Eyyubov Musa Eyyub oğlu
Əbdülsəmədova Zemfira Feyzulla qızı
Əflaki Ədilə Osman qızı
Əhmədov Əhməd Ural oğlu
Əhmədov İlkin Qənbər oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Sərvər Bəhlul oğlu
Əliyev Vaqif Səfər oğlu
Əliyeva Afət Məmməd qızı
Əliyeva Böyük Xanım Həsənbala qızı
Əliyeva Dilarə Asif qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Şəfəq Rəsul qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əsədova Səbinə Çingizovna
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əskərov Qoçaq Məhərrəm oğlu
Ferştandt Makar Sergeyeviç
Gözəlova İradə Vaqif qızı
Hacıyev Əli Əliyusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyev Ümüd Səyyad oğlu
Hacıyeva Naylor Fidan Hacıağa qızı
Hacıyeva Sevil İnşalla qızı
Hacıyeva Səbinə Sabir qızı
Heydərova Çinarə Yaşar qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həsənova İradə Aslan qızı
Həşimov Orxan İlqar oğlu
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynov Tofiq Əbdülrəhim oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Hüseynova Laləzər Ramil qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Nadir Şənbə oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Səbinə Vaqif qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanov Vaxtanq Yaşar oğlu
İmanova Gülbacı Əliəkbər qızı
İskəndərova Sənubər Sabir qızı
İsmayılov Qurban İbrahim oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Cəmilə Rüstəm qızı
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qarayev Elnar Cəfər oğlu
Qasımov Məmmədsafa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Qəmbərov Salman Hüseyn oğlu
Qəribova Nargilə Dursun qızı
Qrafkin Boris Fyodoroviç
Quliyev Cəmil Elşad oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Rövşən Vaqif oğlu
Quliyeva İntizar Təhməzqulu qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanov Cahangir Vahid oğlu
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehmandarov Mustafa Adil oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədxan Ucal İsa oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Maqsud Fazil oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədov Sabir Novruz oğlu
Məsimov Qurban Abdulla oğlu
Mikayılov Anar Şamil oğlu
Mikayılova Sonaxanım Məmmədağa qızı
Mirişli Nazim Ramiz oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəyev Sucəddin Qiyas oğlu
Musayeva Səmayə Məmməd qızı
Musayeva Şükufə İmran qızı
Mustafayeva Laləzar Bəşir qızı
Nəbiyev İbad Fərrux oğlu
Nəsirova Hicran Fətəli qızı
Nəzərov İlham İslam oğlu
Novruzova Nubar Qulu qızı
Nurzadə Əli Qayıb oğlu
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Piriyev İvtixar Fəhrat oğlu
Poladov Əkram Nicad oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Nurlan İbrahim oğlu
Rzayev Vüsal Elman oğlu
Salahov Əbülfət Yusif oğlu
Salamova Gülcahan Əhməd qızı
Salmanov Nicat Fərhad oğlu
Seyidov Uran Seyid Musa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səlimov Ruslan Xanbala oğlu
Səmədov Şükür Hacıbala oğlu
Süleymanlı Ceyhun Təvəkkül oğlu
Şarovskaya Natalya Yuryevna
Şeyxov Nizami Hüseyn oğlu
Şərifəliyeva Səidə Vahid qızı
Şıxəliyev Ramin Tofiq oğlu
Şirəliyev Elşən Şıxəli oğlu
Şirəliyeva İlhamə Şərbətəli qızı
Şirməmmədov Namis Xanmirzə oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyev Nofəl Abdulməcid oğlu
Vəliyeva Nigar Natiq qızı
Yaqubova Ella İsmayıl qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zeynalov Elnur Əli oğlu
Zəki Mehriban Mürvət qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 may tarixli 1172 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 893) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2020-ci il*

# Azərbaycan dünya birliyinin məsuliyyətli və səmərəli üzvü kimi pandemiya ilə beynəlxalq səviyyədə mübarizəyə böyük töhfə verir

*Əvvəli 1-ci səh.*

Bu, bizə gündə bir neçə min test keçirmək imkanı yaradır. Ümumilikdə 160 mindən çox test keçirilib və əhalinin bir milyon nəfərinə düşən testin sayına görə Azərbaycan ön sıralardadır.

**- Azərbaycan pandemiya ilə necə bacarır?**

- Görülən bütün tədbirlər, o cümlədən məhdudlaşdırıcı tədbirlər bir məqsəd daşıyıb - vətəndaşlarımızın təhlükəsizliyini, sağlamlığını təmin etmək və onların həyatını qorumaq. Aprelin 14-dən başlayaraq Azərbaycanda müsbət dinamika müşahidə edilir. Sağalanların sayı yoluxanların sayından çoxdur. Bunun nəticəsində aprelin 27-dən başlayaraq və sonra mayın 4-də karantin rejimi yumşaldıldı. Karantin rejimi mayın sonunadək qüvvədədir. Beləliklə, biz vəziyyətin müvafiq daimi monitorinqini gələcəkdə də davam etdirəcəyik və əgər görsək ki, yumşaltma xarakteri daşıyan tədbirlər yoluxanların kəskin artmasına gətirib çıxarır, o halda məhdudlaşdırıcı tədbirləri yenidən gücləndirməli olacağıq.

**- Bəs Ümumdünya Səhiyyə Təşkilatı bu istiqamətdə Azərbaycanın fəaliyyətini necə qiymətləndirdi?**

- Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun mart ayının sonunda mənə ünvanladığı məktubda koronavirusla mübarizə işində Azərbaycanın nümunəvi ölkə olduğu bildirilib.

İlk növbədə, milli səviyyədə işləməklə biz, həmçinin beynəlxalq birliyin daha sıx birləşməsinə, diqqətin bu problemə cəlb edilməsinə, habelə koronavirusa müqavimət üzrə birgə işlərin gücləndirilməsinə çalışırıq. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədridir. Apreldə və mayda iki sammit keçirildi. Özü də birinci sammit - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammiti, ümumiyyətlə, dünyada bu mövzuya videokonfrans formatında həsr edilən ilk sammit idi. Dövlət və hökumət başçılarının böyük sayda iştirakı ilə bu tədbirlərin uğurlu keçirilməsi nəticəsində biz ümumi bəlaya qarşı mübarizədə vahid yanaşmalar əldə etdik. Eləcə də həm tibbi sahədə, həm də pandemiyanın bütün ölkələrə böyük zərər vurduğu iqtisadi sahədə müxtəlif səviyyələrdə işçi qruplar yaradıldı. Beləliklə, Azərbaycan dünya birliyinin məsuliyyətli və səmərəli üzvü kimi pandemiya ilə beynəlxalq səviyyədə mübarizəyə böyük töhfə verir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatdır və Azərbaycan bu təşkilatda üç il sədrlik edəcək. Qoşulmama Hərəkatının Təmas Qrupunun Sammitinin keçirilməsi təşəbbüsü Hərəkatda çox müsbət qarşılandı. Sammit göstərdi ki, biz səyləri birləşdirməklə bu bəlaya qarşı daha təsirli müqavimət göstərə bilərik. Həmçinin Azərbaycan bir neçə ölkəyə zəruri maliyyə və texniki, o cümlədən tibbi preparatlar və qoruyucu vasitələr yardımı edib. Biz pandemiyaya qarşı mübarizə işinə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə iki dəfə donor töhfəsi etdik. Mart ayında Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında donor sazişi imzalandı. Sazişə müvafiq olaraq biz bu bəla ilə qlobal səviyyədə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. May ayında isə Qoşulmama Hərəkatının sədri kimi Hərəkatın virusdan daha çox zərər çəkən üzvlərinə yardım göstərilməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə etdik. Müvafiq qərara əsasən, Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan bu yardımın miqyasını və təqdim ediləcəyi ölkələri birgə müəyyənləşdirəcək.

**- Elə bu vaxt neftin qiyməti təxminən sıfıra endi. Bu, respublikanın iqtisadiyyatına necə təsir etdi?**

- Birinci rübdə sosial-iqtisadi inkişafın nəticələrinin müsbət olmasına baxmayaraq, gələcəkdə bizim enmə müşahidə etməyimiz istisna deyil. Buna baxmayaraq, biz koronavirusdan daha çox zərər görən sahələrdə işləyən insanlara yardım üçün minimum 2 milyard dollar həcmində mühüm maliyyə resurslarını səfərbər etmişik. Bizdə belə vətəndaşların sayı təqribən 700 mindir. Bu gün həmin insanların işləmək imkanından məhrum olduqları nəzərə alınaraq, onların əməkhaqqının mühüm hissəsi dövlət tərəfindən ödənilir. Həmçinin dövlət sektorunun məcburi məzuniyyətə göndərilən işçiləri əməkhaqqını tam həcmdə alırlar. Bu qəbildən insanların sayı isə bizdə 900 mindən çoxdur. Aşağı gəlirli insanlar kateqoriyasına aid olan 600 min nəfərə, o cümlədən işsizlərə, qeyri-formal sahədə məşğul olanlara da dövlət tərəfindən sosial müavinət ödənilir. İşsizlərin sayının kəskin artmasına yol verməmək məqsədilə bu il haqqı ödənilən 90 min ictimai iş yeri yaradılması haqqında qərar qəbul olunub, habelə Azərbaycanda 80 mindən çox ailə ünvanlı sosial yardım alacaq. Bu, sosial-iqtisadi tədbirlərin tam paketi deyil. Biz buraya vergi güzəştlərini, vergi tətillərini, kommunal ödənişlər və bank kreditləri xidmətlərində müəyyən güzəşt şərtlərini də əlavə edə bilərik. Beləliklə, Azərbaycan dövləti məqsədyönlü, sistemli fəaliyyət göstərir. İlk növbədə, bu, insanların sağlamlığı və təhlükəsizliyidir. İkinci növbədə, bu, iqtisadi inkişaf, habelə əhalinin sosial müdafiəsidir. Həmçinin beynəlxalq əməkdaşlıqla bağlı məsələlər, hesab edirəm, Azərbaycan tərəfindən ən məsuliyyətli şəkildə başladıldı.

**- Biz Sizinlə ümumi bayramımız - böyük qələbənin 75 illiyi ərəfəsində söhbət edirik. O müharibədəki qəhrəmanlıqlarına görə respublikadan 400 mindən çox insan döyüş mükafatı alıb. Azərbaycanlıların milli xarakterini necə təsvir edərdiniz?**

- Azərbaycan oğulları Böyük Vətən müharibəsi meydanlarında ləyaqətlə vuruşublar. Azərbaycanın 123 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın müharibədə iştirak etmiş 600 mindən çox nümayəndəsinin yarısı həlak olub. Azərbaycan bizim ümumi qələbəmizə böyük töhfə verib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Onu demək kifayətdir ki, sovet ordusu üçün mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi və neftin 70 faizi Azərbaycan tərəfindən tədarük edilib. Həmçinin bizim müəssisələrdə gecə-gündüz sovet ordusu üçün çox vacib silah sistemi istehsal edilirdi. Azərbaycanın sənayesi həmişə inkişafda olub. Qısa müddətdə o, hərbi texnika istehsalına tam yönəldilib.

**- Sizin atanız Heydər Əliyev müharibə veteranlarını millətin "qızıl fondu" adlandırıb. Bu gün Böyük Vətən müharibəsi veteranlarına hansı kömək göstərilir?**

- Azərbaycanda bu gün həmişə geniş qeyd olunur. Hərçənd deməliyəm ki, müstəqilliyin ilk illərində bu, belə deyildi. 1992-ci ildə Xalq Cəbhəsi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May bayramı ləğv edildi və veteranlar mənəvi terrora məruz qaldılar. Lakin Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu ədalətsizlik aradan qaldırıldı və həmin vaxtdan 9 May dövlət bayramıdır. Hər il mən həmin gün, bir qayda olaraq, veteranlarla görüşürəm, həlak olanların xatirəsini anırıq, məzarları üzərinə əklillər, güllər qoyuruq. Bu il tədbir, əlbəttə, başqa formatda olacaq. Çünki biz veteranlarımızı qorumalıyıq. Hələ ki, karantin rejimi bir yerə kütləvi toplaşmağa, kütləvi tədbirlər keçirilməsinə yol verməsə də, bundan məsələnin mahiyyəti dəyişməyəcək. Hərçənd bayramın qeydedilmə formatı başqa cür olacaq, lakin düşünürəm ki, veteranlar həm bu gündə, həm də sonra Azərbaycan dövlətinin dəstəyini hiss edəcəklər. Veteranlar qayğı ilə əhatə olunub, onların maddi durumu təmin edilir. Onların çoxu dövlət tərəfindən ayrıca yaşayış sahəsi, mənzillə təmin edilib. Biz həmin gün, bir qayda olaraq, onlara Prezident mükafatları təqdim edirik. Beləliklə, bütün bunların hamısı qorunub saxlanılacaq. Ən başlıcası isə Böyük Vətən müharibəsi haqqında həqiqət həmişə üstünlük təşkil etməli, tarixin yenidən yazılması, faşizmin və faşist cinayətkarlarının qəhrəmanlaşdırılması cəhdləri olmamalıdır. Azərbaycanın bu istiqamətdə mövqeyi birmənalıdır.

**- Siz Rusiya ilə münasibətləri səmərəli adlandırırsınız. Sizin fikrinizcə, daha nə etmək lazımdır ki, bu münasibətlər daha yaxşı olsun?**

- Əminəm ki, münasibətlərimizin inkişafı üçün ən əlverişli perspektivlər var, çünki Rusiya-Azərbaycan münasibətlərinin çox möhkəm təməli qoyulub. Bu münasibətləri hər iki tərəf strateji tərəfdaşlıq kimi xarakterizə edir. Bu, həqiqətən belədir. Çünki münasibətlərimizin yalnız geniş gündəliyinə nəzər salsaq, biz həyat fəaliyyətinin, demək olar, bütün sahələrini görərik. Bizim qarşılıqlı siyasi əlaqələrimiz çox fəaldır, dövlət başçıları səviyyəsində çoxlu görüşlər olur, görüşlər müntəzəm keçirilir. Son illərdə biz iqtisadi planda əmtəə dövriyyəsinin artımını görürük ki, bu da iqtisadi əməkdaşlığın fəallaşdığına dəlalət edir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sektorlarında Rusiya kapitalı ilə yüzlərlə şirkət çalışır. Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Biz mühüm "Şimal-Cənub beynəlxalq nəqliyyat layihəsi"ni birgə reallaşdırırıq. Həm Rusiya, həm də Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün infrastruktur layihələri praktiki olaraq həyata keçirilib. Hazırda biz nəqliyyat-logistika istiqamətləri ilə bağlı məsələlər üzərində işləyirik. Məqsəd yük daşımalarını artırmaq və bununla da qonşu ölkələrimizə daha əlverişli şərait yaratmaq, tranzit potensialını möhkəmlətməkdir. Energetika sahəsində kifayət qədər çox layihələr var və Rusiya ilə Azərbaycanın enerji sistemlərinin birləşdirilməsini qeyd etməliyəm. Ya Azərbaycanda, ya da Rusiyada qəza olanda biz dərhal bir-birimizə kömək edir və həmrəylik nümayiş etdiririk. Ona görə də perspektivlər haqqında danışarkən düşünürəm ki, biz əldə edilmiş nəticəyə istiqamətlənəcək, qeyd etdiyim həmin istiqamətlər və gələcəkdə yeni istiqamətlər üzrə də işləyəcəyik. Bu gün biz 7 yol xəritəsinin reallaşdırılması üzrə ikitərəfli formatda işləyirik. Bunlar həyat fəaliyyətinin bütün vacib sahələrini əhatə edən konkret layihələrdir. Hər bir istiqamət üzrə dəqiq plan, zaman müddəti, yol xəritələrinin reallaşdırılması üçün prezidentlərin tapşırıqları var. Bütün bunlar ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, əməkdaşlıq səviyyəsini, əmtəə dövriyyəsinin və qarşılıqlı investisiyaların artımını möhkəmləndirəcək. Əlbəttə ki, bütün bunlar xalqlarımızın rifahının daha da yaxşılaşmasına gətirib çıxaracaq.

**- Siz rus dilini çox əla bilirsiniz. Bu gün Azərbaycan mədəniyyətində rus dilinin rolunu necə qiymətləndirirsiniz?**

- Bizim münasibətlər ən yüksək qiymətə layiqdir. Azərbaycanda rus dilində təhsilin səviyyəsi genişlənir. Artıq Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filialları mövcuddur. Tədrisin rus dilində aparıldığı məktəblərə gəldikdə isə onların sayı artıq 340-a çatır. Bütün bunlar artıq qazanılmış potensialdır. Əlbəttə, bu il turizm sahəsində böyük tənəzzül olacağı təəssüf doğurur. Çünki ənənəvi olaraq Azərbaycan vətəndaşları Rusiyaya, Rusiya vətəndaşları Azərbaycana səfər ediblər, turist axınının artımı daim yaxşı rəqəmlərdə əksini tapıb. Lakin pandemiya nəzərə alınaraq qarşılıqlı razılıq əsasında ölkələrimiz arasında sərhədlər bağlanıb. Buna görə də yəqin ki, turist axını və turizm sahəsi karantin rejimi prosesindən ən axırda çıxan sahələr olacaq.

**- Bu il bizim Teleradio şirkətinin 27 yaşı tamam olub. Bizim tamaşaçılara Qələbə günü münasibətilə nə arzulamaq istərdiniz?**

- Fürsətdən istifadə edərək, bütün veteranlara bu mürəkkəb dövrdə cansağlığı arzulamaq istərdim. Bu gün pandemiya şəraitində hər birimiz yaxınlarımızı, cavabdeh olduğumuz insanları qorumalıyıq. Azərbaycanda pandemiya şəraitində belə şüarlar yaranıb: "Biz birlikdə daha güclüyük!", "Biz birlikdə güclüyük!" Elə bu şüarlarla da müsahibəni bitirmək istərdim. Sağ olun.

**- Cənab Prezident, bu müsahibəyə görə Sizə minnətdaram. Bayramınız mübarək!**

# Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi

*Əvvəli 1-ci səh.*

**Eyni zamanda, arxa cəbhədə göstərilən qəhrəmanlıq, Azərbaycan neftçilərinin qəhrəmanlığı barədə danışmamaq olmaz. Döyüş maşınlarının, tankların, təyyarələrin, gəmilərin istifadə etdiyi bütün yanacağın 80 faizi Azərbaycan mədənlərində, Azərbaycan zavodlarında istehsal edilirdi. Bununla əlaqədar, əlbəttə, Sizdən soruşmaq istəyirəm, bütün bu vəziyyətə baxmayaraq, Azərbaycanda Qələbə Gününü necə qeyd etməyə hazırlaşırlar, bütün bu şəraitə baxmayaraq, hansı tədbirlər keçiriləcək, ümumiyyətlə, bu gün Azərbaycanda bu bayramı necə qəbul edirlər?**

- Siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan bizim ümumi qələbəmizə sanballı töhfə verib. Biz fəxr edirik ki, respublikamız öz oğul və qızlarının həyatı bahasına, müəssisələrimizin gecə-gündüz işləməsi hesabına bu Qələbəyə mühüm töhfə verib. Bilirsiniz ki, Azərbaycanda sənaye həmişə yüksək səviyyədə inkişaf edib və bizim müəssisələrdə Qələbə üçün çox zəruri olan müxtəlif silah növləri fasiləsiz rejimdə istehsal edilirdi. Əlbəttə, siz düzgün olaraq qeyd etdiyiniz kimi, Azərbaycan yanacağın ən mühüm təchizatçısı olub. O vaxt hələ Sibirdəki yataqlar kəşf edilməmişdi. Buna görə yanacaq-sürtkü materiallarının əsas bazası Azərbaycan idi. Bu da təsadüfi deyil ki, faşist Almaniyası məhz Bakını tutmaq niyyətində idi. Bu məşhur kadrlar dəfələrlə nümayiş etdirilib: Hitlerə təqdim edilən bayram tortunun üzərində "Xəzər dənizi" sözləri yazılmışdı. Hətta belə bir forma məxsusi olaraq Xəzər dənizinin sərhədlərini göstərirdi, Hitler də svastikanı həmin nöqtəyə qoymuşdu. Əgər bu niyyət baş tutsaydı, əlbəttə, müharibənin yekunu tamam fərqli ola bilərdi.

Əlbəttə, sizin düzgün olaraq qeyd etdiyiniz kimi, biz sovet dövləti tərəfindən layiqincə qiymətləndirilən qəhrəmanlarımızla fəxr edirik. 123 Sovet İttifaqı Qəhrəmanı bizim fəxr etdiyimiz insanlardır, indiki nəsil də, gələcək nəsillər də bu insanlarla fəxr etməlidirlər.

Tədbirlərə gəlincə, əlbəttə, koronavirus şəraitində bizdə kütləvi tədbirlər çoxdan ləğv edilib. Xüsusən ona görə ki, yaşı 65-dən çox olan insanların evdən çıxması məsləhət deyil. Biz öz veteranlarımızı qorumalıyıq. Təəssüf ki, onların sayı ilbəil azalır. Adətən mayın 9-da mən həmişə veteranlarla görüşürəm, biz söhbət edirik, həlak olanların xatirəsini ehtiramla yad edirik, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Hər dəfə onlarla ünsiyyətdə olanda, sanki enerji alırsan. Özü də onların çoxunun yaşı 90-ı keçib, hətta 100-ü haqlayanlar da var. Lakin əvvələn, fiziki baxımdan onlar möhkəm olduqlarını nümayiş etdirirlər. Ən başlıcası, onların mənəvi ruhu, nikbinliyi və həyatsevərliyi, əlbəttə, bizi heyrətləndirir, təəccübləndirir və biz onlarla yalnız fəxr edə bilərik. Biz hər il veteranlar üçün mükafatlar ayırırıq. Bu il həmin mükafatın məbləği təxminən 900 dollar, manatla hesablasaq 1500 manat olacaq. İl ərzində də onların problemlərini həll edirik.

Deməliyəm ki, Azərbaycanda bizim ümumi qələbəmizə münasibət həmişə belə olmayıb. Təəssüf ki, müstəqilliyin ilk illərində, millətə zidd olan Xalq Cəbhəsi rejimi hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə 9 May Günü bayram təqvimindən silinmişdi. Müharibə veteranları mənəvi terrora məruz qalırdı, kütləvi informasiya vasitələrində onlara qarşı qəddar kampaniya aparılırdı. Yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra 9 May Günü bayram təqvimində bərpa olundu. O vaxtdan həmin gün dövlət bayramıdır. Bu qeyri-iş günüdür. Ədalət zəfər çaldı.

Siz düzgün olaraq qeyd etdiniz ki, mən həmin gün Moskvada olmağa hazırlaşırdım. Rusiya Federasiyasının Prezidentindən dəvət almışam, lakin koronavirusla əlaqədar bayram tədbirləri ləğv edilib. Ona görə bu il mən yenə həlak olanların xatirəsini yad edəcəyəm, lakin əlbəttə, tamam başqa formatda.

**- Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin deyib ki, müvafiq epidemioloji şərait imkan verəndə biz bu tarixi Rusiyada qeyd etməyi planlaşdırırıq, həmçinin təsdiq edilib ki, bütün dəvətnamələr qüvvədə qalır. Buna görə düşünürəm ki, bu məlum olanda və tarixlər təyin ediləndə, Siz Rusiya rəhbərliyi ilə, Müstəqil Dövlətlər Birliyi ölkələrindəki həmkarlarınızla birlikdə bu bayramı Moskvada qeyd etmək imkanına malik olacaqsınız.**

- Bəli, mən buna çox ümid edirəm.

**- İlham Heydər oğlu, Siz indicə tamamilə haqlı olaraq dediniz ki, Xalq Cəbhəsinin hakimiyyətdə olduğu Azərbaycan üçün kədərli günlərdə bu bayram, təəssüf ki, təqvimdən silinmişdi. Həqiqətən yalnız Heydər Əliyev hakimiyyətə gələndən sonra ədalət zəfər çaldı və bu gün həmin bayramı bütün xalq qeyd edir. O da təəccüblüdür ki, bəzi ölkələrdə siyasətçilər tarixi yenidən yazmağa, onu saxtalaşdırmağa çalışırlar. Bəzi ölkələrdə şəhərləri xilas etmiş sovet hərbi sərkərdələrinə, sovet döyüşçülərinə ucaldılmış abidələri məhv edirlər, bəzi ölkələrdə isə hətta faşist kollaborasionistlərinə və ya faşist rejiminin adi xadimlərinə heykəllər qoyulur, xatirə lövhələri vurulur. Siz buna necə baxırsınız?**

- Biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək, faşizmi və faşist canilərini qəhrəmanlaşdırmaq cəhdlərini qətiyyətlə pisləyirik. Azərbaycan bir sıra forumlarda bu mövzuda açıq çıxış edib, o cümlədən mən dəfələrlə öz mövqeyimi bildirmişəm. Deməliyəm ki, Azərbaycan cəmiyyəti bu mövqeyə tam şərikdir. Əlbəttə, bəzi ölkələrdə faşizmin qəhrəmanlaşdırılması prosesi bizim üçün əsla qəbuledilməzdir. Bilirsiniz, bir müddət əvvəl belə qənaətdə idik ki, sübut edilməsinə ehtiyac olmayan həqiqətlər var, Böyük Vətən müharibəsinin tarixi də belə həqiqətlərdən biri idi. Lakin təəssüf ki, bəzən müəyyən dairələrin tarixi həqiqəti təhrif etmək, İkinci Dünya müharibəsində Qələbədə Sovet İttifaqının rolunu azaltmaq və faşizmi qəhrəmanlaşdırmaq üçün əlaqələndirilmiş səylərinin şahidi oluruq. Ona görə bu meylə son qoyulmalıdır, biz bunu yalnız birgə səylərimizlə edə bilərik. O cümlədən Böyük Vətən müharibəsi dövründə baş vermiş hadisələr haqqında həqiqəti gənc nəslə çatdırmaq yolu ilə. Ona görə ki, onlar həqiqəti bilməlidirlər, vətənpərvərlik, əcdadlarının qəhrəmanlığı ruhunda tərbiyə olunmalıdırlar. Əlbəttə, bəzi ölkələrdə baş verənlər, İkinci Dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Bunu keçmiş SSRİ məkanında, MDB məkanında görmək xüsusilə xoşagəlməzdir. Axı faşizm üzərində ümumi Qələbə naminə ən böyük qurban verən Sovet İttifaqı olub. Buna görə bu meyillər pislənməli, bu cəhdlərə son qoyulmalı və mənim fikrimcə, dünya liderləri bu barədə daha açıq danışmalıdırlar.

Bizə gəldikdə isə, qeyd etdiyim kimi, mən bu məsələləri dəfələrlə qaldırmışam, o cümlədən MDB ölkələrinin sonuncu Zirvə görüşündə müzakirə mövzularından biri məhz bizim Böyük Qələbə bayramına, Qələbənin yubileyinə hazırlıq məsələsi idi. Mən təəssüflə qeyd etdim ki, Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir. Konkret misallarla göstərdim ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Yeri gəlmişkən, Qələbənin 75 illiyi ərəfəsində həm Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlər də buna sübutdur. Bu adam müharibə dövründə deyirdi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Bu adamın təxribatçılıq fəaliyyəti çoxsaylı insanın ölümünə gətirib çıxarıb və təsadüfi deyil ki, müharibə qurtarandan sonra o, SMERŞ tərəfindən həbs edilib, 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Belə bir adama Ermənistanda 6 metr hündürlüyündə heykəl qoyulur. Heykəlin açılışında bu ölkənin keçmiş prezidenti iştirak edir. Mən bu məsələni qaldırmaqla MDB üzrə həmkarlarımın diqqətini ona cəlb etmək istəyirdim ki, biz, ilk növbədə, özümüzdə, öz təşkilatımızda hər şeyi öz adı ilə adlandırmalıyıq, burada siyasi korrektlik, selektivlik prinsipini və ya kiminsə xətrinə dəyməmək istəyini rəhbər tutmamalıyıq. Biz həqiqəti deməliyik, əks halda, bu təşkilat formatında diskussiyalar, səmimi desək, mənasını itirər. Buna görə bu məsələni qaldıranda ümid edirdim ki, Ermənistanın yeni, özünü demokratik kimi göstərməyə çalışan rəhbərliyi mənim təşəbbüsümü dəstəkləyəcək. Lakin təəssüf ki, bunun əksini gördüm. Gördüm ki, Ermənistan nümayəndə heyətinin rəhbəri, baş nazir bu canini müdafiə etməyə başladı, dedi ki, nə olsun o, həbs düşərgələrində olub, Soljenitsın da həbs düşərgələrində olub. Bilirsiniz, bu yerdə protokol qaydalarını pozdum, yenidən çıxış üçün söz aldım və dedim ki, Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etmək həyasızlığın yüksək dərəcəsidir. Ona görə bütün bunlar böyük təəccüb, heyrət doğurur və belə bir fikrə əsas verir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalır.

Yeri gəlmişkən deməliyəm ki, Rusiya Federasiyasının ərazisində, məsələn Armavir şəhərində də cinayətkar, faşistlərin əlaltısı Njdeyə xatirə lövhəsi vurulub. Yalnız mən bu məsələni dövlət başçılarının Zirvə görüşündə qaldırandan və bu məsələ kütləvi informasiya vasitələrində əksini tapandan sonra həmin lövhə götürülüb. Haqlı olaraq sual yaranır: Ermənistanda Böyük Vətən müharibəsi qəhrəmanları olmayıbmı? Bəs Armavirdə erməni kilsəsinin yaxınlığında nə üçün onlara yox, faşist caniyə xatirə lövhəsi vurulub? Bunu necə başa düşməli? Ona görə bu məsələlər geniş müzakirə edilməlidir. Yenə də hər bir ölkə bu məsələyə öz münasibətini selektivlik, siyasi korrektlik mülahizələrinə görə deyil, birbaşa və açıq şəkildə bildirməlidir. Ermənistanda bir tərəfdən deyirlər ki, onlar Qələbənin yubileyini bayram edəcəklər, amma digər tərəfdən faşistin abidəsi önünə gül qoyurlar. Bu, ən azı ziddiyyət, əslində isə riyakarlıq təzahürüdür.

**- Bu vəziyyəti belə qiymətləndirdiyinizə görə sağ olun, İlham Heydər oğlu. Mayın 4-də Sizin təşəbbüsünüzlə, - Azərbaycan hazırda Qoşulmama Hərəkatında sədrlik edir, - Qoşulmama Hərəkatının Zirvə görüşü keçirildi. Məsələn, mən həmin görüşü iştirakçıların tərkibinə, elə bu faktın özünə görə tarixi hadisə adlandıra bilərəm. Bu görüş koronavirusa qarşı mübarizə üzrə birgə qərarların, birgə ideyaların hazırlanmasına həsr edilmişdi. Zirvə görüşünə Siz sədrlik edirdiniz. Orada çoxsaylı ölkələrin, özü də Hindistan, Misir, İran və başqaları kimi aparıcı ölkələrin liderləri iştirak edirdilər. Bu görüş başa çatandan sonra Siz sədr kimi çəkici vuraraq Zirvə görüşünü yekunlaşdırdınız. İndi Zirvə görüşünü necə qiymətləndirirsiniz? Orada nə haqda razılığa gələ bildiniz? Bir daha təkrar edirəm, Zirvə görüşünün keçirilməsi özü tarixi faktdır, lakin praktiki baxımdan fikrinizi bilmək istərdim.**

- Siz tamamilə haqlısınız. Bu Zirvə görüşünü həqiqətən tarixi görüş adlandırmaq olar. Çünki əvvələn, o, yeni formatda, videokonfrans formatında keçirilirdi. İkincisi, Qoşulmama Hərəkatının Zirvə görüşləri bir qayda olaraq müəyyən dövriliklə keçirilir. Əgər bundan əvvəlki Zirvə görüşü keçən ilin oktyabrında Bakıda keçirilmişdisə, növbəti görüş 2022-ci ildə bizdən sonra sədrlik edəcək ölkədə keçirilməli idi. Buna görə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın bu təşəbbüsü təbii ki, vaxtında irəli sürülmüşdü. Onu da deməliyəm ki, keçən ilin oktyabr ayında biz Qoşulmama Hərəkatında sədrliyi öz üzərimizə götürdük. Qeyd etməliyəm ki, Azərbaycan yekdilliklə Hərəkatın sədri seçilib, bu da çox əlamətdar amildir, çünki bildiyiniz kimi, Hərəkatda 120 ölkə iştirak edir və bu ölkələrin bəziləri arasında, yumşaq desək, gərgin münasibətlər var.

Lakin bizə göstərilən hörmət və etimad ona dəlalət edir ki, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazana bilib. Bakı Zirvə görüşündə mən demişdim ki, biz öz sədrliyimizi heç də formal sədrlik hesab etmirik, biz səmərəli sədr olmaq istəyirik. Hərəkatın beynəlxalq arenada nüfuzunu və rolunu yüksəltmək, ölkələr arasında daha sıx birlik istəyirik, şərait yaratmaq istəyirik ki, bəzi ölkələr arasında mövcud fikir ayrılıqları, zəruri hallarda bizim də iştirakımızla nizamlansın. Mən, həmçinin dedim ki, Azərbaycan təkcə sədrlik dövründə deyil, bundan sonra da beynəlxalq arenada üzv ölkələrin mənafelərini müdafiə edəcək. Zirvə görüşünün baş tutması onu göstərir ki, əvvələn, biz öz sözümüzə sadiqik, ikincisi, bu Zirvə görüşünün keçirilməsinə böyük ehtiyac var idi. Buna görə də çıxış edənlərin əksəriyyəti Azərbaycanın bu təşəbbüsünün vaxtında irəli sürüldüyünü və vacibliyini qeyd etdilər. Həmçinin deməliyəm ki, aparıcı beynəlxalq təşkilatların rəhbərləri - Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru və Avropa Komissiyasının vitse-prezidenti Zirvə görüşünün iştirakçılarını salamladılar. Bu məqamı xüsusi vurğulamalıyam. Mən Avropa Komissiyasının və Qoşulmama Hərəkatının hansısa vahid formatda iştirak etdiyi ikinci belə hadisəni xatırlamıram. İndiki halda bu cür birgə tədbir ona görə mümkün oldu ki, Azərbaycan Avropa İttifaqı ilə çox fəal əlaqə saxlayır, Azərbaycan beynəlxalq arenada çox böyük nüfuz qazanıb. Əlbəttə, bir məsələ də var ki, bizi ümumi bəla birləşdirir. Buna görə Zirvə görüşünün keçirilməsinin əsas məqsədi təşkilatın daxilində həmrəylik göstərmək, habelə aparıcı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq idi.

Mənim təşəbbüsümlə biz dövlət və hökumət başçıları səviyyəsində BMT-nin koronavirusa həsr edilmiş xüsusi Baş Assambleyasının keçirilməsini təklif etdik. Hərəkatın üzvü olan ən həssas ölkələrə təxirəsalınmaz kömək göstərilməsi üçün biz Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırdıq. Bu, bizim ikinci donor ianəmizdir. Bundan əvvəl mart ayında da qlobal pandemiyaya qarşı mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırmışdıq. Qoşulmama Hərəkatında yaradılmış Təmas Qrupu formatı üzv ölkələr tərəfindən böyük dəstək alıb. Biz istiqamətlər üzrə yarımqruplar və COVID-19-a qarşı mübarizə üzrə vahid məlumat bazası yaradılmasını təklif etdik ki, həm Hərəkatın belə niyyəti olan üzvləri, həm beynəlxalq təşkilatlar, həm də donor təşkilatlar vaxtında yardım göstərmək üçün informasiya bazasına malik olsunlar. Mən deyərdim ki, Zirvə görüşünün keçirilməsinin əsas məqsədləri də, nəticələri də budur. Bir daha deməliyəm ki, bütün iştirakçılar bu görüşün vacibliyini, zəruriliyini qeyd etdilər, bu təşəbbüsə görə Azərbaycana təşəkkürlərini bildirdilər.

Deməliyəm ki, bu, bizim keçirdiyimiz ilk Zirvə görüşü deyil. Hazırda Azərbaycan həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədridir və aprelin 10-da bu təşkilatın Azərbaycanın təşəbbüsü ilə keçirilmiş Zirvə görüşü faktiki olaraq dünyada videokonfrans formatında ilk Zirvə görüşü oldu. Biz iki ay ərzində çox mühüm iki beynəlxalq tədbir keçirdik, əminəm ki, onlar həmrəyliyi və əməkdaşlığı möhkəmlədəcək.

Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı bir məqam da ondan ibarətdir ki, dediyim kimi, Qoşulmama Hərəkatında 120 ölkə, sədri məktubla müraciət etmiş Afrika İttifaqında 55 ölkə, ali nümayəndəsi bu tədbirdə iştirak edən Avropa İttifaqında 27 ölkə var. Buna görə təvazökarlıqdan kənar olsa da deməliyəm ki, Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi.

**- İlham Heydər oğlu, bu, həqiqətən belədir. Bir fikir də söyləmək istəyirəm ki, əlbəttə, Azərbaycanın sədrlik etməsi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına müəyyən ianə verməsi faktları mühüm amildir. Lakin mənə belə gəlir ki, Azərbaycanın bu Zirvə görüşünü çağırmağa mənəvi haqqı daha bir səbəblə bağlıdır, obyektiv rəqəmlər göstərir və Ümumdünya Səhiyyə Təşkilatı da bunu, sadəcə, təsdiqləyir ki, bu dəhşətli pandemiya Azərbaycandan yan keçmədiyinə baxmayaraq, - hər halda, mən rəqəmlərə baxmışam, - ölkədə bu mübarizədə müəyyən uğurlar qazanılıb. Mənə belə gəlir ki, vəziyyəti yavaşıtmaq, müəyyən məqamda isə döndərmək mümkün olub. Hər halda rəqəmlər bunu deyir, ÜST də bunu təsdiq edir. Buna nəyin sayəsində nail olunub? Hansı səylər göstərilib? Çünki bu ümumi bəlanın öhdəsindən daha böyük dərəcədə gələn istənilən ölkənin təcrübəsi bu gün çox vacibdir.**

- Siz tamamilə haqlısınız. Son nəticələr barədə danışmaq hələ tezdir, lakin aralıq nəticələr göstərir ki, biz doğru yoldayıq. Yeri gəlmişkən, bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz bu işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanlanmış məktubunda Azərbaycan rəhbərliyinin gördüyü tədbirlər yüksək qiymətləndirilib, Azərbaycan nümunəvi ölkə, yəni bu bəlaya qarşı mübarizədə nümunə göstərən ölkə adlandırılıb.

Konkret tədbirlərə gəldikdə isə deməliyəm ki, biz lap əvvəldən Nazirlər Kabineti yanında Operativ Qərargah yaratdıq. Onun çox geniş səlahiyyətləri var və hər gün, hər saat mühüm təşkilati məsələlərlə məşğul olur. Mənim fikrimcə, bütün ölkələrin əsas vəzifəsi bu xəstəliyin inkişafını, onun geniş yayılmasını yavaşıtmaq idi. Bir sıra başqa ölkələr kimi, Azərbaycana da bu virus kənardan gətirilib. Buna görə qonşularla müvafiq məsləhətləşmələrdən sonra sərhədlərin bağlanması birinci mühüm addım oldu. Lakin sonra gördük ki, daxildə yoluxma prosesi gedir. Odur ki, mərhələli şəkildə məhdudlaşdırıcı tədbirlər tətbiq edildi. Biz həmin tədbirləri şəraitə uyğun olaraq tətbiq etdik və hadisələrin arxasınca getməyə yox, onları qabaqlamağa çalışdıq, əks halda, uğur qazana bilməzdik.

Biz dövlət xəstəxanalarının işini operativ surətdə tamamilə yeni formatda təşkil etdik. Bu gün 20-dən çox dövlət xəstəxanası koronaviruslu xəstələrin müalicəsi üçün təqdim edilib. O cümlədən 575 çarpayılıq yeni ən müasir xəstəxana bütünlüklə koronaviruslu xəstələrə təqdim edilib. Biz operativ surətdə əlavə laboratoriyalar aldıq. Hazırda 23 bu cür laboratoriyamız var, lazım gəlsə yenə alacağıq. Milyon nəfərə düşən testlərin sayına görə Azərbaycan lider ölkələr sırasındadır. Biz 160 mindən çox test keçirmişik. Əlbəttə, bu, xəstəliyin yayılma ocaqlarının, o cümlədən regional baxımdan aşkar olunmasına kömək edir. Mayın 4-dən, bundan əvvəl isə aprelin 27-dən karantin rejimi müəyyən qədər yumşaldılmağa başlanıb. Bu, onunla bağlı idi ki, son 3 həftədə pozitiv dinamika müşahidə edirik, yəni sağalanların sayı yoluxanların sayından çoxdur. Biz həm də həkimlərimizə, tibb işçilərinə çox qayğı ilə yanaşırıq. Koronaviruslu xəstələrə xidmət edənlər üçün onların aylıq maaşından 3, 4, 5 dəfə yüksək xüsusi maaş əlavələri tətbiq edilib. Ona görə də bu məhdudlaşdırma tədbirlərinin, o cümlədən müalicə prosesinin düzgün təşkilinə yönəlmiş tədbirlər kompleksi sayəsində biz hələlik bu vəziyyətdən minimum itkilərlə çıxa bilirik.

Bizim tədbirlərə ictimai dəstəyin yüksək səviyyəsini də qeyd etmək istərdim. Mən hər gün yüzlərlə, bəzən minlərlə təşəkkür məktubu alıram. Bu məktublarda bütün kateqoriyalardan olan vətəndaşlar, balaca uşaqlardan başlamış uzunömürlülərə qədər təşəkkürlərini bildirirlər ki, biz hələlik bu vəziyyətdən şərəflə çıxırıq. Lakin biz onu da demişik ki, karantin rejiminin yumşaldılması tədbirlərinin vəziyyəti kəskin pisləşdirdiyini görsək, bu rejimi yenidən sərtləşdirməli olacağıq. Mən Azərbaycan xalqına müraciətlərimdə dəfələrlə demişəm ki, biz həmrəylik göstərdik, birlik göstərdik, indi biz həm də məsuliyyət və intizam göstərməliyik. Fikrimcə, bu iki istiqamət ayrıca müzakirə tələb edir, lakin düşünürəm ki, bütövlükdə vəziyyət hələlik nəzarət altındadır.

Onu da deməliyəm ki, biz pandemiyadan əziyyət çəkənlərə təqribən 2 milyard dollarlıq sosial-iqtisadi yardım paketi ayırmışıq. Bu paket, ilk növbədə, pandemiyadan əziyyət çəkən sahələrdə çalışan 700 minə yaxın insanı və mikrosahibkarları əhatə edir. Dövlət iki ay ərzində onların əməkhaqqının xeyli hissəsini ödəyəcək, çünki onlar praktiki olaraq işləmirlər. Bunlar 600 min aztəminatlı ailə və işsiz, hətta qeyri-formal sektorda məşğul olanlar, yəni əmək müqaviləsi olmayanlardır. Onlara 2 ay ərzində müəyyən məbləğ ödənilir ki, hətta əmək müqaviləsi olmayanlar da əməkhaqqı alsınlar. İndi bu adamlar qazancdan məhrum olublar.

Biz ünvanlı sosial yardım alan ailələrin sayını artıraraq 80 minə çatdırmışıq, belə ailələrin hər biri orta hesabla 222 manat, yəni 130 dollar alır. Bundan əlavə, əməkhaqqı minimal səviyyədə, yəni 250 manat və ya təxminən 150 dollar səviyyəsində olmaqla, 90 min ödənişli ictimai iş yeri və 12 min özünüməşğulluq yeri yaradılır. Bu yerlər dövlət tərəfindən maliyyə və texniki kömək nəzərə alınmaqla cari ildə fəaliyyətə başlayacaq. Bu, həmin paketin yalnız bir hissəsidir. Vergi güzəştləri, vergi tətilləri də var. Yəni biz bu məsələyə çox geniş yanaşmışıq və ilk növbədə, insanları, onların sağlamlığını, həyatını qorumağa və ikinci növbədə iqtisadiyyatın inkişafını təmin etməyə çalışırıq.

**- İlham Heydər oğlu, bütün bunlar barədə danışarkən Sizin üçün, əlbəttə, sirr deyil ki, indi ekspertlər, analitiklər, siyasətçilər tez-tez belə fikirlər səsləndirirlər: Allah qoysa, gec-tez pandemiya başa çatacaq. Lakin hələlik bütün proses yüksələn xətt üzrə gedir. Buna baxmayaraq, hamı deyir ki, dünya başqa cür olacaq. O, dəyişəcək, sosial baxımdan, iqtisadi baxımdan, müəyyən mənada mədəni baxımdan dəyişəcək. Azərbaycan son illərdə çoxsaylı iri tədbirlər - idman, mədəniyyət, siyasət, iqtisadiyyatla bağlı tədbirlər, müxtəlif forumlar keçirib. Bundan əvvəl dediklərinizin hamısı inkaredilməz faktlara, dəqiq rəqəmlərə əsaslanırdı. İndi mənim sualım fərziyyələr sahəsinə daha çox aiddir. Siz postpandemiya dövrünü necə təsəvvür edirsiniz? Biz hamımız həmin dünyada yaşamalı olacağıq. İndi xüsusilə gənclər bu cür suallar verirlər. Çünki onlar çoxsaylı psixoloji çətinliklərlə üzləşir, yaşlılar üçün isə bu, həm də fiziki xarakterli çoxsaylı risklər deməkdir. Siz postpandemiya dövründə dünyanı necə təsəvvür edirsiniz?**

- Bilirsiniz, bir sıra siyasi və ictimai xadimlər, həmçinin geniş beynəlxalq ictimaiyyət qeyd edir ki, dünya başqalaşacaq və artıq başqalaşıb. Biz də yeni iş formatına, yeni həyat formatına, özünütəcrid rejiminə tədricən alışırıq. Əlbəttə, əslində bu, xüsusən sərt karantin şəraitində insanların çoxunun həyat tərzinə də, onların psixoloji vəziyyətinə də ciddi təsir göstərir. Biz yaxşı başa düşürük ki, həftələrlə evdə oturmaq, evdən çıxmamaq fəal həyat tərzinə, fəal işləməyə adət etmiş insanlar üçün çox ciddi sınaqdır. Bəli, mən qeyd etdim ki, işini itirənlər üçün vəsait ödəyirik. Axı onlar üçün motivasiya təkcə əməkhaqqı deyildi. İnsanlar əslində, sevimli işindən məhrum olublar və əlbəttə ki, bu da onların psixoloji vəziyyətinə ciddi təsir göstərə bilər. Buna görə dünyanın gələcəkdə necə olacağını güman etmək çətindir.

Beynəlxalq tədbirlər keçirilməsinə gəldikdə, mənim dediyim iki Zirvə görüşü göstərdi ki, biz bu formatda da işləyə bilərik. Əlbəttə, ünsiyyət çatışmazlığını hiss edirik. Əgər biz Zirvə görüşünü adi rejimdə keçirsəydik, bu, əlbəttə, 2 gün, bəlkə də 3 gün davam edərdi, çoxsaylı ikitərəfli görüşlər, çoxlu mədəni tədbirlər olardı. Amma, məsələn, mayın 4-də Zirvə görüşü fasiləsiz olaraq altı saat yarım davam etdi. Sədr kimi mənim həmin görüşü tərk etmək imkanım yox idi. Əlbəttə, bu formatda yaşamağa öyrəşmək lazımdır.

Beynəlxalq forumlara gəldikdə, siz tamamilə haqlı olaraq qeyd etdiniz ki, Azərbaycan, ilk növbədə, humanitar əməkdaşlıq üçün artıq mühüm məkana çevrilib. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə keçirilən və formalaşmasında şəxsən siz, Mixail Solomonoviç, çox böyük rol oynadığınız Bakı Beynəlxalq Humanitar Forumu da, Mədəniyyətlərarası Dialoq Forumu da, keçirilməsi bu gün təxirə salınmış bir sıra başqa tədbirlər də sual doğurur - biz onları necə keçirəcəyik? Beynəlxalq forumları, diskussiyaları videokonfrans rejimində keçirməyə imkan olacaqmı - bütün bunlar gələcəyin məsələləridir.



*Ardı 5-ci səh.*

# Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi

*Əvvəli 4-cü səh.*

Lakin bir şey aşkardır ki, koronavirus üzərində qələbədən sonra sırf işçi baxımdan, psixoloji baxımdan bu vəziyyətdən çıxmaq üçün hələ uzun müddət lazım gələcək. Bunun nə qədər davam edəcəyini demək çox çətindir. Lakin mənim fikrimcə, əsas məqam, o cümlədən beynəlxalq siyasət məsələlərində əməkdaşlığın müsbət təcrübəsini qoruyub saxlamaqdır ki, bu müvəqqəti ayrılıq ölkələri bir-birindən ayırmasın. Biz dialoqu davam etdirək, videokonfrans formatında işləyək. Yeri gəlmişkən, mən həmkarlarımla videokonfrans formatında bir neçə görüş keçirmişəm. Əlbəttə, forma fərqli olacaq, lakin əsas məsələ müsbət məzmunu saxlamaq və pandemiya nəticəsində gördüyümüz müsbət məqamların sayını artırmaqdır. Ola bilsin, bunlar hələ ilk təzahürlərdir, lakin həmrəylik, hətta münasibətləri gərgin olan ölkələr arasında da əməkdaşlıq elementləri görünür.

**- İlham Heydər oğlu, Siz dediniz ki, bütün bu çətinliklərə baxmayaraq, əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək zəruridir. Məhz bu baxımdan mən istərdim ki, Rusiya Prezidenti Vladimir Putin ilə Sizin münasibətləriniz məsələsinə toxunaq, Sizin aranızda kifayət qədər sıx şəxsi yoldaşlıq münasibətləri, necə deyərlər, "personal chemistry" yaranıb. Siz Rusiyaya səfərlər etmisiniz, Putin Azərbaycanda olub. Bu şəraitdə Sizə elə gəlmirmi ki, Sizin fikrinizin davamı kimi məhz yeni şəraitdə yeni həllər və əməkdaşlığın yeni formatını tapmaq üçün bu əlaqələri daha da intensivləşdirmək lazımdır?**

- Bəli, siz tamamilə haqlısınız, biz bu məsələ üzərində işləyirik, hətta pandemiya şəraitində də fasiləsiz nəqliyyat daşımaları həyata keçirilir. Biz tranzit-logistika sahəsində işləri intensivləşdirmək barədə razılığa gəlmişik. Ölkələr arasında, Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinə gəldikdə isə əlbəttə, pandemiya mənfi təsirini göstərir. Lakin əminəm ki, biz müsbət əməkdaşlığı qoruyub saxlayacaq və genişləndirəcəyik.

Siz qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti ilə biz həm Rusiyada, həm də Azərbaycanda yetərincə tez-tez görüşürük. Sonuncu görüşümüz keçən ilin axırında Peterburqda olub, bundan əvvəl Soçidə. Mən "Valday" Diskussiya Klubuna dəvət edilmişdim. Buna görə bizim ünsiyyətimiz və görüşlərimiz qarşılıqlı əlaqələrimizin inkişafına çox müsbət təkan verir və tabeliyimizdə olanlara verdiyimiz göstərişlər, təlimatlar həyata keçirilir.

Qarşılıqlı siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əlbəttə, pandemiya olmasaydı, biz əmtəə dövriyyəsini daha da artırardıq. Lakin əminəm ki, iqtisadi əlaqələrimiz lazımi səviyyədə olacaq. Bizim nəqliyyat-logistika sahəsində də böyük planlarımız var. Bu gün bizim fəal istifadə etdiyimiz Şimal-Cənub dəhlizi ilə yanaşı, Rusiyanın Şimal-Qərb nəqliyyat dəhlizinə qoşulması da bizi sevindirir. Rusiyalı yükgöndərənlər Azərbaycandan Avropa istiqamətinə gedən bu marşrutdan istifadə edirlər. Elektroenergetika sahəsində elektrik enerjisi mübadiləsi, habelə çoxtərəfli əməkdaşlıq baxımından böyük potensial var. Biz yüksəkvoltlu elektrikötürmə xətləri ilə bağlıyıq.

Neft-qaz sahəsində də vəziyyət yaxşıdır. Bəlkə də çoxları bilmir, lakin Xəzər dənizinin Rusiya sektorunda Rusiya şirkətləri tərəfindən hasil edilən neftin bir hissəsi Azərbaycanın nəqliyyat infrastrukturu vasitəsilə nəql edilir. Yəni, burada əməkdaşlıq yüksələn xətt üzrə davam edir.

Əlbəttə, Rusiya Prezidenti ilə birlikdə humanitar sahədə həmişə həyata keçirdiyimiz əməkdaşlığı da hökmən qeyd etmək lazımdır. Düşünürəm ki, bu, qonşular arasında əməkdaşlığın nümunəsidir. Rusiyada da bunu çox yüksək qiymətləndirirlər ki, Azərbaycanda tədrisin rus dilində olduğu 330-dan çox məktəb var. Rusiyanın aparıcı ali məktəblərinin filialları, yetərincə zəngin mədəni proqram və əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulmuş "Azərbaycan" pavilyonunun təntənəli açılışı da dostluq münasibətlərinin rəmzidir.

Əlbəttə, biz təəssüflənirik ki, pandemiya turizm sektoruna çox güclü zərbə vurub. Ona görə ki, keçən il bir milyona yaxın rusiyalı Azərbaycana səfər edib. Biz bu il də rusiyalı turistlərin sayının artacağına ümid edirdik. Lakin hər şeyin qaydaya düşəcəyi və insanların yenidən bir-birini ziyarət etməyə başlayacağı vaxtı gözləyək. Siz tamamilə haqlısınız, biz vaxtı itirməməliyik, bu il görüləsi işlər hələ çoxdur. Biz daim əlaqə saxlayırıq və yaxın dostlar, tərəfdaşlar kimi işləyirik.

**- İlham Heydər oğlu, bilirsiniz, pandemiyadan sonrakı dövrdən söhbət düşəndə enerji sahəsi ayrıca mövzudur. Əlbəttə, indi xəbərlərin bütün gündəliyi pandemiya ilə bağlıdır. Lakin hələ yaxın vaxtlarda neftin qiymətləri mövzusu da buraya əlavə olunurdu. Dünya təlatümdə idi, hamı hansısa detektiv kimi neftin qiymətinin az qala mənfiyə keçməsini izləyirdi. Bütün insanlar neft sahəsində mütəxəssislərə çevrilmişdi. Azərbaycan tarixən neft hasil edən ölkədir, lakin bununla bərabər, Siz artıq neçə illərdir deyirsiniz ki, Azərbaycan neftdən asılılıqdan xilas olmalıdır. Bununla əlaqədar mən neftin qiymətlərini qabaqcadan söyləməyə hazır deyiləm, amma asılılıqdan yaxa qurtarmaq baxımından Siz iqtisadiyyatın hansı sahələrinə bel bağlayırsınız, postneft dövründə Azərbaycanı necə təsəvvür edirsiniz?**

- Siz tamamilə haqlısınız. Mən bu mövzunu çox fəal şəkildə qaldırmışam və qaldırıram. Bu istiqamətdə müəyyən addımlar atılır. Onu demək kifayətdir ki, bu ilin birinci rübündə qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalının həcmi 23 faiz artıb. Bu, mütləq rekord göstəricidir. Mənim fikrimcə, pandemiya şəraitində bu rəqəm, əlbəttə, bizim apardığımız işə hörmət doğurur. Buna görə qeyri-neft sektoruna oriyentasiya bizim əsas prioritetimiz olub və yenə belədir. Dəfələrlə dediyim kimi, biz neft sektorunu yaddan çıxarmalıyıq. Demək olar ki, bu gün neftin bu qiymətləri ilə postneft dövrü, əslində, başlanıb. Buna görə Azərbaycan iqtisadiyyatının artımının əsas hərəkətverici qüvvəsi onun aşkarlığı olacaq. Bu istiqamətdə - iqtisadiyyatın kölgədən çıxarılması üçün çox iş görülür. Təəssüf ki, bu problem bizim üçün hələ də aktualdır. Burada qeyri-formal məşğulluqdan başlamış vergi ödəməkdən yayınmağa qədər bütün məsələlər bir-biri ilə sıx bağlıdır. Bizim gördüyümüz tədbirlər öz nəticələrini verir. Həm keçən il, həm də bu il biz büdcəni, əsasən, iqtisadiyyatın kölgədən çıxarılması hesabına artırırıq. Yəni, bu, əsas hərəkətverici amil olacaq.

İqtisadiyyatın sahələrinə gəldikdə, əlbəttə, mən, ilk növbədə, kənd təsərrüfatını qeyd edərdim, orada çox böyük potensial var və bu sahəyə çox böyük investisiyalar yatırılıb. Artım da kifayət qədər ciddidir. Nəqliyyat-logistika sahəsi. Azərbaycan ərazisində bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Ölkəmiz Şərq-Qərb nəqliyyat dəhlizində fəal iştirak edir. Bu, "Bir kəmər, bir yol" təşəbbüsü, Şimal-Cənub dəhlizi, həmçinin artıq qeyd etdiyim Şimal-Qərb dəhlizi layihəsidir. Odur ki, nəqliyyat-logistika infrastrukturunun yaradılması başa çatdırılıb və bu gün biz daşımaları artırmaq, Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün tərəfdaşlarımızla, qonşularımızla işləyirik.

Biz turizmə böyük diqqət yetirirdik və yenə belədir. Bu sektor çox perspektivli idi. Son 4 ildə turistlərin sayı hər il 10 faizdən 24 faizə qədər artıb. Müasir turizm infrastrukturu yaradılıb. Lakin əlbəttə, pandemiya bu sektora çox güclü zərbə oldu. İndi biz daxili turizmin stimullaşdırılması barədə düşünürük. Xüsusən ona görə ki, Azərbaycanın milyonlarla vətəndaşı il ərzində, o cümlədən istirahət üçün ölkədən kənara gedir. Onlar sərhədlərin bağlanmasını nəzərə alaraq yəqin ki, bu il yayda daxili turizmə istiqamətlənəcəklər.

Əlbəttə, informasiya-kommunikasiya texnologiyaları sektorunu da qeyd etməliyəm. Burada da yaxşı təməl yaradılıb. Üç süni peyki olan Azərbaycan artıq kosmik klubun üzvüdür. İKT sektoru çox fəal inkişaf edir və bu sahədə çox ciddi artım var. Ona görə düşünürəm ki, bu istiqamətlər bundan sonra da mühüm rol oynayacaq. Əlbəttə, iqtisadiyyatın qlobal məsələlərinə bir daha qayıdaraq deməliyəm ki, bu, həm yerli, həm də əcnəbi investorlar üçün biznes mühitinin yaxşılaşması və kiçik sahibkarlığa dəstək deməkdir. Biz hazırda bu istiqamətdə böyük addımlar atırıq. Bu, həm məşğulluğu, həm də iqtisadiyyatın şaxələndirilməsini təmin edəcək. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən bilirik ki, orada ümumi daxili məhsulun yarıdan çoxu kiçik və orta biznes hesabına formalaşır. Biz də buna çalışmalıyıq.

**- İlham Heydər oğlu, bilirsiniz ki, hazırda müzakirə edilən və pandemiya ilə bağlı daha bir məsələ beynəlxalq təşkilatların effektivliyi məsələsidir. Siz Qoşulmama Hərəkatının pandemiyaya həsr edilmiş tarixi Zirvə görüşünün uğurla keçməsindən danışdınız. Lakin indi bəzi siyasətçilər Birləşmiş Millətlər Təşkilatının ünvanına çoxlu tənqidi sözlər söyləyirlər. BMT-nin təsisatı olan Ümumdünya Səhiyyə Təşkilatı ciddi tənqidə məruz qalıb. Azərbaycan əksər beynəlxalq təşkilatların inamlı və fəal iştirakçısıdır. O, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi, ATƏT və digər təşkilatlar sistemində fəal işləyir. Sizin fikrinizcə, əvvələn, beynəlxalq təşkilatların ünvanına bu tənqid nə dərəcədə ədalətlidir, beynəlxalq təşkilatlar bu ümumi bəlaya nə dərəcədə hazır oldular, digər tərəfdən, Siz necə hesab edirsiniz, onların hazır olmaları üçün beynəlxalq təşkilatlarda islahatlar, qarşılıqlı fəaliyyətin hansısa yeni variantları tələb olunurmu? Axı, həmişə nəyisə gözləmək lazım gəlir.**

- Bilirsiniz, mənim fikrimcə, bu istiqamətdə əsas amil ayrı-ayrı ölkələrin iradəsidir. Ona görə ki, beynəlxalq təşkilatlar ölkələrdən ibarətdir və ölkələr bu təşkilatlara nümayəndələrini göndərirlər, ölkələr öz mənafelərini bu beynəlxalq təşkilatlar çərçivəsində müdafiə edirlər. Beynəlxalq təşkilatlara rəhbərlik edən insanlar beynəlxalq məmurlardır. Əlbəttə, onlar kiminsə xoşuna gələcək, kiminsə xoşuna gəlməyəcək məsul qərarlar qəbul etməli olanda üzləşdikləri çətinlikləri anlamaq lazımdır. Buna görə onların diplomatiya məharəti də çox cəhətdən bu və ya digər beynəlxalq təşkilatın nüfuzunu müəyyən edir.

Azərbaycana gəldikdə, bizim üzv olduğumuz bütün təşkilatlarda məhz ona görə iştirak edirik ki, bu təşkilatı gücləndirək, çünki biz onun üzvüyük, həmçinin bu təşkilatda fəaliyyətimiz çərçivəsində öz milli maraqlarımızı maksimum təmin edək. Lakin biz, ilk növbədə, üzv ölkələrin daha böyük etimadını qazanmağa çalışırıq və həyata keçirdiyimiz təşəbbüslər buna istiqamətlənib. Məsələn, Qoşulmama Hərəkatının üzvləri olan ölkələrə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə yardımı göstərmək təşəbbüsü konkret nümunədir.

Təəssüf ki, beynəlxalq təşkilatlarda sözçülük çox geniş yayılıb, özü də ilbəil bir məruzədən digərinə köçürülən və arxasında heç bir əməli iş dayanmayan şablon sözlər. Həm də, əlbəttə, istənilən beynəlxalq təşkilat qüdrətli ölkələrdən, ortabablardan və hələ bir qədər böyüməli olan ölkələrdən ibarətdir. Ona görə burada bütün ölkələrin maraqlarının nəzərə alınması da vacibdir ki, böyük maliyyə, siyasi və digər resursları olmayan ölkələr özlərini aldadılmış, ikinci dərəcəli üzvlər kimi hiss etməsinlər. Buna görə hesab edirəm ki, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı hörmət mühüm prioritetlərdən biridir. Əlbəttə, bütün dünyanı, yaxud Qoşulmama Hərəkatı kimi 120 ölkəni birləşdirən qlobal beynəlxalq təşkilatlar çərçivəsində buna nail olmaq daha yığcam təşkilatlarla müqayisədə çətindir. Lakin hesab edirəm ki, bu, siyasətçilər üçün əsas ruhlandırıcı amil olmalıdır.

Bir də, əlbəttə, beynəlxalq təşkilatın nüfuzu çox cəhətdən onun qəbul etdiyi qərarların yerinə yetirilməsindən asılıdır. Deməliyəm ki, burada da islahatlar üçün yer çoxdur. Hətta BMT Təhlükəsizlik Şurasının neçə illər bundan əvvəl qəbul etdiyi qətnamələr yerinə yetirilmir və Azərbaycan bunu öz timsalında yəqin edib. Otuz ilə yaxındır ki, erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmir və təcavüzkara qarşı, bu qətnamələri pozana qarşı heç bir sanksiya tətbiq edilməyib. Buna görə hökmən cəza mexanizmi olmalıdır. Əgər beynəlxalq təşkilat icrası zəruri olan qərar qəbul edirsə, bu qərar yerinə yetirilməlidir. Qərarı pozan üzv barəsində isə bir neçə mərhələdən ibarət prosedur olmalıdır, lakin bu prosedur yoxdur. Mənim fikrimcə, beynəlxalq təşkilatlara münasibətdə müəyyən ümidsizlik doğuran əsas amillər bunlardır. Sizə səmimi deməliyəm, bəzən beynəlxalq hüquqa zidd olan hərəkətlər müşahidə edirik, bu isə əlbəttə, beynəlxalq təşkilatların nüfuzunu artırmır və ümumiyyətlə, müasir dünya nizamını şübhə altına alır. Ona görə ki, beynəlxalq hüquq hər kəs üçün prioritet olmalıdır və ölkələr onların potensialından, imkanlarından asılı olmayaraq, beynəlxalq hüquqa hörmət etməyə borcludurlar. Amma biz bəzən beynəlxalq hüququn kobudcasına, nümayişkaranə şəkildə pozulduğunu görəndə sual yaranır: bəs biz nə üçün ona riayət etməliyik? Əgər başqaları onu pozmağı özlərinə rəva görə bilirsə, biz nə üçün poza bilmərik? Mən demirəm ki, biz bu yolla gedirik. Xeyr. Azərbaycan həmişə qanunun aliliyini və beynəlxalq hüququn aliliyini əsas götürür. Lakin haqlı olaraq, bu cür suallar yaranır və əlbəttə, onlara birgə cavablar axtarmaq lazımdır.

**- İlham Heydər oğlu, Sizdən praktiki məsləhət istəyirəm. Bilirsiniz, dövlət başçısı kimi sanki mürəkkəb şəraitə düşmüsünüz. Siz, bir tərəfdən, karantinə riayət etməlisiniz və bilirəm ki, bir vətəndaş kimi adi təhlükəsizlik mülahizələrinə əsasən buna riayət edirsiniz. Amma digər tərəfdən, televizora baxanda görürük ki, Sizin dövləti fəaliyyətinizin intensivliyi əsla azalmır. Siz bunları əlaqələndirməyə necə nail olursunuz? Digər tərəfdən Siz həmişə fiziki formanızı saxlamağa böyük diqqət yetirirsiniz və yəqin ki, bunu tez-tez edirsiniz. Öz həmvətənlərinizə, bizim televiziya tamaşaçılarına məsləhət verin: karantin şəraitində belə fiziki formanı necə saxlayırsınız?**

- Fiziki formanı ev şəraitində də saxlamaq olar. Bu gün bu, artıq heç kəs üçün sirr deyil. İdman zalına getmədən evdə idmanla fəal məşğul olmağın mümkünlüyünü göstərən informasiya resursları çoxdur. Mən ilk gənclik illərimdən bəri idmanla məşğulam və əlbəttə, bütün qaydalara riayət edirəm. Hesab edirəm ki, idmanla məşğul olmaq hər kəsdən ötrü həm sağlamlıq, həm özünəinam, həm də iş qabiliyyəti üçün mühüm amillərdən biridir. Mən gənclərə və orta yaşlı insanlara müraciətlə dəfələrlə demişəm, idmanla məşğul olun. Bəzən bunu çox təkrar edirəm, lakin insanların buna əməl etmələri üçün təkrarlamaq lazımdır. Yadımdadır, biz xəstəxanaların tikintisini genişləndirməyə başlayanda mən dəfələrlə təkrar edirdim ki, hər kəs tibbi müayinədən keçməlidir. Biz bunu - kütləvi pulsuz dispanserizasiyanı həyata keçiririk. Yeri gəlmişkən, bu il pandemiya ucbatından onu keçirmədik. Beş milyondan çox insan öz sağlamlığını yoxlamaq üçün gəlir. İdmanda da belə olmalıdır. Mən deyirəm: idmanla məşğul olun, faydasını görəcəksiniz, sizin fiziki formanızın, əhvalınızın, iş qabiliyyətinizin necə yaxşılaşacağını görəcəksiniz. Buna görə indi mən imkanı olmayanların hamısına məsləhət görürəm: internet resurslarından istifadə edin, orada idmanla evdə məşğul olmaq üçün çoxlu məsləhətlər, çoxlu proqramlar var.

Karantin rejiminə gəldikdə isə, mən prinsip etibarilə intizamlı adamam. Buna görə mənim ictimai tədbirlərimdə ən çoxu 9 nəfər olur. Bizdə on nəfərdən çox adamın bir yerdə toplaşması qadağandır. Lakin mən ehtiyat üçün həmişə deyirəm, 9 nəfərdən çox olmamalıdır. Ən çoxu 10 və ya 9 nəfər. Bir də, əlbəttə, məsafəyə riayət edirəm. İctimai xarakterli tədbirlərdə də, görüşlərdə də belə olub. İlin birinci rübünün yekunlarına həsr olunmuş iclası videokonfrans rejimində keçirdik. Amma deməliyəm ki, bu iclas əvvəl keçirdiklərimizdən o qədər də fərqlənmədi. Mənim tabeliyimdə olan işçilərlə söhbətlərim də videokonfrans formatında keçirilir. Yəni, insan prinsip etibarilə hər şeyə alışır. Buna da vərdiş etmək lazımdır. Amma sualınıza görə sağ olun. Fürsətdən istifadə edib, bir daha hamıya müraciət edirəm: idmanla məşğul olun, özü də müntəzəm surətdə.

**- İlham Heydər oğlu, gələcəkdə pandemiyanın başa çatmasından danışarkən Siz, mənim fikrimcə, çox düzgün, dəqiq bir söz işlətdiniz: Qələbə. Yəqin bilirsiniz, bəlkə də görmüsünüz: TASS agentliyinin fotomüxbiri Yevgeni Xaldeyin "Reyxstaq üzərində Qələbə bayrağı" adlı fotoşəkli var. Bizim TASS agentliyi pandemiya üzərində qələbənin rəmzi olacaq gələcək fotoqrafiya üçün ümumdünya müsabiqəsi elan edib. Sizin fikrinizcə, həmin fotoqrafiyada nə ola bilərdi?**

- Əlbəttə, çox yaxşı təşəbbüsdür. Buna görə sizə təşəkkür etmək istərdim. Mənim fikrimcə, bu müsabiqə təkcə rəssamların yox, hamının böyük marağına səbəb olacaq. Ona görə ki, bu gün bu mövzu hər kəsi narahat edir və hər kəsi bu xəstəliyə qalib gəlmək istəyi, öz yaxınlarını xəstəliyin ağır fəsadlarından qorumaq istəyi birləşdirir. Buna görə düşünürəm ki, həmin fotoqrafiya və ya simvol bu cür birləşdirici xarakter daşımalıdır. Bir də, şübhəsiz, dünya pandemiyaya qalib gələndə bunun rəmzi insan, onun zəkası olmalıdır. Ona görə ki, vaksin icad ediləndə insanın zəkası bu xəstəliyə qalib gələcək. İnsanın iradəsi. Ona görə ki, çətin dövrdə çox məsələləri məhz iradə qüvvəsi həll edir. Əlbəttə, mərhəmət hissi də. Ona görə ki, vəziyyətin çox mürəkkəb olmasına, çoxsaylı insan tələfatına baxmayaraq, mənim fikrimcə, ictimai şüurda mərhəmət səviyyəsi xeyli yüksəlib, insanlar anlayırlar ki, təbiətin və Allahın qarşısında hamı bərabərdir, hər kəs öz yaxınları qarşısında məsuliyyət göstərməli və özünü ləyaqətlə aparmalıdır. Buna görə mövzular palitrası bir qədər geniş ola bilər, lakin əminəm ki, bu müsabiqə bir simvolika ilə kifayətlənməyəcək. Düşünürəm ki, burada ən yaxşı duyğular, ən yaxşı arzular, insanın və insanlığın ən yaxşı keyfiyyətləri cəmləşməlidir.

**- Çox sağ olun, İlham Heydər oğlu. Allahın izni ilə və necə deyərlər, böyük dünya elminin köməyi ilə pandemiya üzərində o qələbə gününə qədər yaşamaq lazımdır. Faşizm üzərində Böyük Qələbə bayramı isə bu günlərdə qeyd ediləcək. Sizinlə bizim söhbətimizi milyonlarla rusiyalı görəcək və düşünürəm ki, bu söhbəti görənlər təkcə rusiyalılar olmayacaq. Sizdən bir xahiş edə bilərəmmi: mayın 9-da Moskvada olsaydınız, deyəcəyiniz sözlərlə müraciət edin.**

- Mən bizim hamımızı, veteranları, bugünkü nəsli, gəncləri təbrik etmək istəyirəm. Bu, sovet xalqının qələbəsi, Sovet İttifaqının tarixi əhəmiyyət kəsb edən qələbəsidir. Bu qələbəyə keçmiş Sovet İttifaqının hər bir xalqı dəyərli töhfə verib. Söhbətimizin əvvəlində qeyd etdiyimiz kimi, qəhvəyi taun milyonlarla insanın həyatı bahasına məğlub edilib. Buna görə mən, ilk növbədə, veteranlara dərin hörmətimi, həlak olanların xatirəsinə ehtiramımı bildirirəm. Bu gün biz onların sayəsində yaşayırıq, müstəqil dövlətlərdə yaşayır və öz taleyimizi qururuq.

Əlbəttə, gənc nəslə müraciətlə demək istərdim ki, onlar öz əcdadları kimi fədakarcasına, yüksək vətənpərvərlik hissi ilə yaşamağı, mübarizə aparmağı öyrənsinlər, qəhrəmanlıq göstərsinlər, öz Vətənini müdafiə edərkən canlarını, həyatlarını əsirgəməsinlər. Bu, elə bayramdır ki, biz onu daim qeyd etməliyik. Bu, elə bayramdır ki, bütün mütərəqqi bəşəriyyəti, bütün sülhsevər insanları birləşdirir. Əlbəttə, sizinlə artıq müzakirə etdiyimiz kimi, biz tarixi yenidən yazmaq, Böyük Vətən müharibəsi haqqında həqiqəti təhrif etmək cəhdləri ilə barışmamalıyıq. Buna görə mən bütün veteranlara, bu gün sırada olanların hamısına bu cür arzularla müraciət edirəm, Allah onlara uzun və sağlam ömür versin.

**- Hörmətli İlham Heydər oğlu, bu söhbətə görə çox sağ olun. Sizi qarşıdan gələn Qələbə bayramı münasibətilə təbrik edirəm. Sizə arzum budur ki, Azərbaycan Sizin rəhbərliyinizlə bu pandemiya üzərində tezliklə qələbə qazansın. Sizə ən xoş diləklərimizi bildirirəm. Çox sağ olun.**

# Operativ Qərargahda brifinq keçirilib

Mayın 7-də Nazirlər Kabineti yanında Operativ Qərargahda növbəti brifinq keçirilib. AZƏRTAC xəbər verir ki, brifinqdə Təhsil naziri Ceyhun Bayramov və Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə tərəfindən hazırkı vəziyyətlə əlaqədar təhsil ictimaiyyətini maraqlandıran məsələlərə aydınlıq gətirilib.

Nazir Ceyhun Bayramov bildirib ki, iyunun 1-dən tədris prosesinin bərpa edilməsi nəzərdə tutulmur. Həmçinin dövlət bağçalarının yay aylarında açılması barədə qərar yoxdur.

Onun sözlərinə görə, 2019-2020-ci tədris ilinin ikinci yarımili üzrə şagirdlər arasında hər hansı qiymətləndirmə həyata keçirilməyəcək. Yəni şagirdlər və müəllimlər arasında kiçik və ya böyük summativ qiymətləndirmə aparılması planlaşdırılmır. Şagirdlərin illik yekun qiymətləndirmələrinin çıxarılması və növbəti sinfə keçirilməsi üçün onların 2019-2020-ci il tədris ilinin birinci yarımili üzrə nəticələri və qiymətləri əsas götürüləcək. Öz nəticələrindən razı olmayan şagirdlər nəticələri yaxşılaşdırmaq istəyirlərsə və ya hər hansı fəndən birinci yarımil üzrə qeyri-kafi qiymət alıblarsa, onlar tədris ili öncəsi məktəbə müraciət edərək yenidən qiymətləndirmədə iştirak edib öz qiymətlərini yaxşılaşdıra bilərlər.

"Bu dövrdə şagirdlərə məzmunun intensiv şəkildə çatdırılması həyata keçirilir. Bu, həm müəllimlər, həm də Təhsil Nazirliyi tərəfindən mərkəzləşmiş qaydada teledərslər vasitəsilə icra olunur. Təhsil Nazirliyi teledərslər vasitəsilə bu həftənin sonunadək 1200 dərsin yayımını həyata keçirib. "Virtual məktəb" layihəsinə qoşulmuş şagird və müəllimlərin sayı 900 minə yaxınlaşır. Bu məzmunun mənimsəmə səviyyəsini müəyyən etmək məqsədilə iyunda Təhsil Nazirliyi hər bir yaş qrupu üzrə 3 mindən 6 minə qədər şagird arasında onlayn formada ölçmələr, qiymətləndirmələr həyata keçirəcək. Burada məqsəd monitorinqdir. Proqramın mənimsəmə səviyyəsini müəyyən etmək istəyirik ki, növbəti aylarda, o cümlədən yay aylarında şagirdlərə dəstək mexanizmlərini daha uyğun formada təqdim edə bilək. Məqsəd ümumi təhsildə siniflər arasında, məzmun arasında varisliyi təmin etmək, növbəti tədris ilində şagirdləri maksimum şəkildə hazırlıqlı formada qəbul etməkdir", - deyə Təhsil naziri bildirib.

Bu il birinci sinfə qəbulla əlaqədar 122 minə yaxın uşağın elektron formada qeydiyyatı yekunlaşıb. Biz növbəti aylar ərzində əlavə olaraq şagirdlərin elektron formada müraciət etməsini gözləyirik, bunun həyata keçirilməsində heç bir problem yoxdur və bu iş davam edəcək.

Tədris Azərbaycan dilində olmayan, digər dillərdə, əsasən rus dilində olan dövlət məktəblərinin birinci sinfinə qəbul olmaq istəyən uşaqlar müsahibə mərhələsindən keçməlidirlər. Bu qəbildən 9621 sorğu qəbul edilib ki, onların da növbəti mərhələdə müsahibəsi həyata keçirilməlidir. Müsahibələrə dair qeydiyyat mayın 20-dən etibarən başlanacaq. İyunda müsahibələrin onlayn və ya üzbəüz formatda keçirilməsi valideynlərin seçimi əsasında olacaq.

Lisey və gimnaziyalara növbəti tədris ili üçün qəbul avqustun ikinci yarısında keçiriləcək. İmtahanların ayrı-ayrı siniflər üzrə müxtəlif məktəblərdə təşkil olunması planlaşdırılır. Qeyd edək ki, lisey və gimnaziyalara qəbul 5-9-cu siniflər səviyyəsində həyata keçirilir.

Növbəti iki həftə üçün 1400-ə yaxın müəllimin daimiləşməsi nəzərdə tutulur.

İmtahanların keçirilməsi, ali təhsil sistemində yay imtahan sessiyasının təşkili, müxtəlif məqsədli müsabiqələrin həyata keçirilməsi - bütün bu tədbirlər mövcud vəziyyətə uyğun yeni qaydalara və normalara müvafiq həyata keçiriləcək.

Nazir, həmçinin bildirib: "Yeni normalar hazırlanıb. İlkin olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla Dövlət İmtahan Mərkəzi belə kütləvi tədbirlərin həyata keçirilməsinə dair yeni qaydalar hazırlayaraq Operativ Qərargaha təqdim edib. Operativ Qərargahda bu məsələlərə baxılıb. Tibb sahəsindən olan həmkarlarımız müvafiq təkmilləşmələr edərək sənədi təsdiq olunması üçün Nazirlər Kabinetinə təqdim ediblər. Yaxın günlərdə bu sənədin təsdiq edilməsi planlaşdırılır".

Ali təhsil müəssisələrində tədris ilinin uzadılması nəzərdə tutulmur.

176 min tələbə kontingentinin 75 faizi onlayn təhsilə qoşulub. Ali təhsil müəssisələrinin sonuncu kursunda təhsil alan tələbələrin sosial təcrid dövründə iştirak edə bilmədikləri təcrübə onlardan tələb edilməyəcək.

DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə koronavirus pandemiyası dövründə Mərkəzin fəaliyyəti ilə əlaqədar tədbir iştirakçılarına məlumat verib. O bildirib ki, "koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə görülən işlər, Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejimi müddətinin daha da uzadılması, o cümlədən təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması DİM-in fəaliyyət istiqamətlərinə uyğun həyata keçirilən tədbirlərdə müəyyən dəyişikliklər aparılmasını zəruri edib. Yaranmış vəziyyətlə əlaqədar buraxılış və qəbul imtahanları qaydalarında müəyyən dəyişikliklərin edilməsi də nəzərdə tutulur".

Daha sonra M.Abbaszadə 2020-ci ildə keçiriləcək imtahan və tədbirlərə dair aşağıdakı müvəqqəti müddəaları təqdim edib.

Bildirib ki, bütün imtahanlar yeni sanitar-gigiyenik qaydaları əsasında aparılır. İmtahan zallarında 15 nəfərdən çox olmamaq şərti ilə hər masa arxasında 1 şagird (abituriyent) əyləşir.

IX sinif buraxılış imtahanlarının iyun ayında bir mərhələdə bu imtahanın II mərhələsinin modeli əsasında keçirilməsi planlaşdırılır. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarından asılı olaraq imtahanların bölgələr üzrə keçirilmə ardıcıllığı müəyyən olunacaq. İmtahana buraxılış vərəqələri imtahan günündən 5-7 gün əvvəl DİM-in saytında yerləşdiriləcək.

Martın 1-də Bakı, Şirvan və Naxçıvan Muxtar Respublikasında I mərhələ üzrə imtahan vermiş məzunların imtahan nəticələri elmi-statistik hesablamalar tətbiq edilməklə 100 bala uyğunlaşdırılacaq.

Digər bölgələr üzrə məzunlar yalnız imtahanın II mərhələsində iştirak edəcəklər. Bu mərhələ üzrə maksimal bal hər fənn üzrə 70 deyil, 100 ballıq şkalaya uyğun hesablanacaq.

Nəticələri I mərhələ imtahanı əsasında hesablanmış məzunlar qiymətlərindən narazı olduqları halda II mərhələ imtahanında iştirak edə bilərlər.

Buraxılış imtahanı proqramlarından martın 1-dən sonra tədris olunan mövzular çıxarılır və imtahanlarda həmin mövzuların qiymətləndirilməsi nəzərdə tutulmur.

Bu il və əvvəlki illərdə üzrlü səbəbdən buraxılış imtahanlarında iştirak edə bilməyən məzunlar sentyabr ayında təşkil ediləcək imtahanlarda iştirak edə bilərlər.

XI sinif buraxılış imtahanlarının iyun ayı ərzində təşkil edilməsi planlaşdırılır. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarından asılı olaraq imtahanların bölgələr üzrə keçirilmə ardıcıllığı müəyyən olunacaq. İmtahana buraxılış vərəqələri imtahan günündən 5-7 gün əvvəl DİM-in saytında yerləşdiriləcək.

Buraxılış imtahanı proqramlarından martın 1-dən sonra tədris olunan mövzular çıxarılır və imtahanlarda həmin mövzuların qiymətləndirilməsi nəzərdə tutulmur.

Məzunlar buraxılış imtahanında əvvəlki illərdə olduğu kimi hər fənn üzrə maksimum 100 bal toplaya bilərlər.

Tədrisi Azərbaycan dilindən fərqli dildə olan məktəblərin 9-cu sinif şagirdləri üçün Azərbaycan dili (dövlət dili kimi) imtahanı iyun ayı ərzində kağız daşıyıcılar vasitəsilə keçirilir. Tədrisi Azərbaycan dilindən fərqli dildə olan məktəblərin 11-ci sinif məzunları üçün imtahan evdən onlayn və ya imtahan mərkəzlərində elektron və ya kağız daşıyıcılar vasitəsilə keçiriləcək. İmtahanda evdən onlayn iştirak etmək istəyən məzunlar müəyyən ediləcək texniki şərtlərə malik olmalıdırlar.

Tədrisi Azərbaycan dilindən fərqli dildə olan məktəblərin 11-ci sinif şagirdləri üçün Azərbaycan dili (dövlət dili kimi) imtahanı üzrə mayın 20-dən etibarən onlayn sınaq imtahanları keçiriləcək.

Bu imtahanlarda cari ilin məzunları və mayın 20-dək ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizələrini təsdiq etmiş abituriyentlər (ötən illərin məzunları) iştirak edə biləcəklər.

Ümumi (9-cu sinif) orta təhsil bazasında kolleclərə qəbul yalnız buraxılış imtahanlarının II mərhələsinin nəticəsi əsasında aparılacaq.

Bu il 19 mindən artıq abituriyent kolleclərə qəbul olmaq üçün ərizəsini təsdiq edib, onlardan 1 mart 2020-ci il tarixində buraxılış imtahanında (I mərhələ) iştirak etmiş 4000 abituriyent müsabiqəyə qatılmaq üçün mütləq buraxılış imtahanının II mərhələsində iştirak etməlidirlər.

Tam (11 illik) orta təhsil bazasında kolleclərə sənəd qəbulu onlayn şəkildə 12 may - 5 iyun tarixlərində təşkil ediləcək.

Ali təhsil müəssisələrinə qəbul olmaq üçün abituriyentlərin sənəd qəbulu onlayn şəkildə 12 may-5 iyun tarixlərində aparılır.

Qəbul imtahanlarının iyulun 20-dən sonra 1 dəfə keçirilməsi nəzərdə tutulur. Əvvəlki illərdə olduğu kimi, müsabiqə buraxılış və qəbul imtahanlarında toplanılan ballar əsasında 700 ballıq şkala əsasında aparılacaq.

I-IV ixtisas qruplarının biri üzrə imtahanda iştirak etmiş abituriyentlər, eyni zamanda, V ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilərlər (qabiliyyət imtahanında müvəffəqiyyət qazanmaq şərti ilə).

Qəbul imtahanı proqramlarından martın 1-dən sonra tədris olunan mövzular (11-ci sinfə aid) çıxarılır və imtahanlarda həmin mövzuların qiymətləndirilməsi nəzərdə tutulmur.

Magistraturaya onlayn ixtisas seçimi qəbul planı təsdiq olunduqdan sonra aparılacaq.

Dövlət qulluğuna qəbul imtahanları avqust ayından başlayaraq ayda iki dəfə Bakıda və DİM-in regional bölmələrində oflayn qaydada kompüterlər vasitəsilə keçiriləcək.

Müsahibələr onlayn olacaq. Müsahibələrin cədvəli müvafiq dövlət orqanları ilə razılaşdırıldıqdan sonra elan olunacaq. İlk növbədə, karantin rejimi ilə əlaqədar təxirə salınmış 32 dövlət orqanı üzrə müsahibələr keçiriləcək.

Sertifikatların verilməsi fərdi qaydada bildiriş əsasında həyata keçirilir.

Mayın 18-dən etibarən elektron növbə əsasında DİM-in inzibati binalarında vətəndaşların qəbuluna başlanılacaq.

# Milli Məclisin Sədri Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünə həsr olunmuş videokonfransda çıxış edib





Mayın 7-də Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin təşkilatçılığı ilə Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib.

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə videokonfransın keçirilməsinin əhəmiyyətini qeyd edib, bu tədbirə dəvət üçün minnətdarlığını bildirib.

Sədr diqqətə çatdırıb ki, bu günlərdə hamımız üçün çox əlamətdar olan tarixi bir günü - Qələbə Gününü qeyd edirik. Biz öz ölkəsinin azadlığı uğrunda canlarından keçmiş insanları böyük minnətdarlıq hissi və ağrı ilə xatırlayırıq. Mənim ölkəmin, Azərbaycanın bu Qələbəyə verdiyi töhfəni dəyərləndirməmək mümkün deyil. Burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çıxışlarından birində söylədiyi fikir yada düşür: "Tarix bu gün də bilməlidir ki, Azərbaycanın İkinci Dünya müharibəsində xidmətləri, fəaliyyəti və rolu çox böyük olmuşdur".

Sədr xatırladıb ki, Sovet İttifaqında, haqlı olaraq, əsas yanacaq tədarükçüsü kimi tanınan Azərbaycan Qızıl Ordunun çox güclü yanacaq bazasına çevrilmişdi. Böyük Vətən müharibəsində Azərbaycan cəbhəyə 75 milyon ton neft göndərmişdir ki, bu da böyük Qələbənin əldə olunmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan milli diviziyaları alman-faşist qoşunlarının darmadağın edilməsində - 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında böyük rol oynamış, məşhur 416-cı Taqanroq Azərbaycan milli diviziyası isə Qafqazdan Berlinədək şanlı yol keçmişdir.

Sahibə Qafarova qeyd edib ki, 130-dan çox Azərbaycan nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək ada layiq görülmüşdür. 30 nəfər "Şərəf" Ordeninin hər üç dərəcəsi ilə, 170 min insan isə müxtəlif orden və medallarla təltif olunmuşdur. Bu statistik göstəricilər Azərbaycan xalqının qəhrəmanlığını bir daha təsdiqləyir. O illərdə Azərbaycan zəhmətkeşləri böyük fədakarlıq göstərmişlər. Arxa cəbhədə, Azərbaycanın sənaye müəssisələrində 130 adda silah və sursat istehsal olunub. Əlbəttə ki, bu, Qələbənin qazanılmasına böyük töhfə olub.

Milli Məclisin Sədri təəssüflə onu da bildirib ki, son zamanlar bir sıra qüvvələr İkinci Dünya müharibəsində Hitler qoşunlarının darmadağın edilməsində Sovet İttifaqının rolunu inkar etməyə cəhd edirlər. Bu, qəbuledilməz və yolverilməzdir. Biz, siyasətçilər, o cümlədən dünya ictimaiyyəti həqiqətin qorunmasında əzmli olmalıyıq.

Sədr qeyd edib ki, bu gün neofaşist meyillərin güclənməsi haqlı narahatlıq yaradır. Axı, bizə elə gəlirdi ki, faşist ideologiyasına birdəfəlik son qoyulub və bir daha bu hal təkrarlanmayacaq. Ancaq təəssüf ki, biz tarixin saxtalaşdırılması ilə yanaşı, faşizmin və onun təhrikçilərinin qəhrəmanlaşdırılması prosesini müşahidə edirik. Məsələn, Ermənistan respublikasında nasist Qaregin Njdeyə milli qəhrəman kimi abidənin ucaldılması faktı bizi narahat etməyə bilməz. Biz hesab edirik ki, faşizm bütün bəşəriyyət tərəfindən qınandığına görə belə hallara dözümlülük göstərmək olmaz. Biz qəlbən inanırıq ki, bu müharibədə şərəfli döyüş yolu keçmiş əsgərlərin xatirələrdən silinməyən qəhrəmanlığı və şücaəti gələcək nəsillər üçün əsl vətənpərvərlik nümunəsi olacaq.

Sahibə Qafarova vurğulayıb ki, bizim ölkəmizdə İkinci Dünya müharibəsi veteranlarına diqqət və hərtərəfli qayğı dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müharibə veteranlarına qayğının göstərilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı imzalanmış çoxsaylı sərəncamlar buna parlaq misaldır.

Parlamentin Sədri bu günlərdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalının təsis edilməsi ilə əlaqədar qanunun qəbul olunduğunu vurğulayıb.

Sədr çıxışının sonunda tədbir iştirakçılarını yaxınlaşmaqda olan Böyük Qələbə Günü münasibətilə təbrik edib, ölkələrinə sülh və əmin-amanlıq arzulayıb.

Videokonfransda çıxış edən Belarus, Özbəkistan, Qırğızıstan, Moldova respublikalarının parlament sədrləri və digər iştirakçılar Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümü münasibətilə öz fikirlərini söyləyiblər.

Bununla da Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünə həsr olunmuş videokonfrans başa çatıb.

# "Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda videokonfrans formatında tədbir keçirilib

Mayın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda videokonfrans formatında tədbir keçirilib.



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov çıxış edərək tədbirin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunduğunu bildirib.

Əli Əhmədov Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışıb və qeyd edib ki, Heydər Əliyev özünün çoxillik və çoxşaxəli fəaliyyətinin başlıca mənasını və qayəsini müstəqil Azərbaycan dövlətinin qurulmasından ibarət olduğunu hesab edib.

YAP sədrinin müavini deyib ki, Azərbaycan xalqı hər zaman Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edir. Əli Əhmədov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları daim yaşayacaq. Çünki bu ideyalar Azərbaycanın tərəqqisinin və yüksəlişinin əsasını təşkil edir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə görülən işlərə, xalqımızın həyatında baş verən əsaslı dəyişikliklərə nəzər salsaq, bu fikri təsdiqləyən kifayət qədər faktlar söyləmək mümkündür: "1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra respublikamızda sürətli inkişaf başladı. 1969-cu ildən sonra Ulu Öndərin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan tamamilə dəyişdi, özünə inamı artdı, dinamik inkişaf yoluna çıxdı və xalq öz gələcəyinə inamla baxmağa başladı. Eyni zamanda o dövrdə Heydər Əliyevin siyasəti nəticəsində milli iradənin güclənməsi Azərbaycanın gələcək müstəqilliyinə gedən yolun əsaslarını təşkil edirdi. Tarix Ulu Öndər Heydər Əliyevə bu missiyasını ikinci dəfə həyata keçirmək şansı verdi. 1993-cü ilə qədər və ondan sonrakı Azərbaycan gözlərimiz qarşısındadır. 1990-cı illərin əvvəlində respublikamızda total böhran hökm sürürdü, ovaxtkı hakimiyyət Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı zərurətə çevrildi. O zamana qədər xalq Heydər Əliyevi qurucu lider kimi qəbul edirdisə, bu dəfə Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirdi. Xaos, anarxiya, ümidsizlik içərisində olan, dərin böhran keçirən Azərbaycanda məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra onun qətiyyətli islahatlar strategiyası nəticəsində əmin-amanlıq bərqərar oldu, dinamik inkişaf təmin edildi, "Əsrin müqaviləsi" kimi tarixi sənəd imzalandı".

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışarkən Baş Nazirin müavini deyib ki, Azərbaycanın uğurlu inkişafı məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edilib. "10 il ərzində Ulu Öndər Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində müstəqil Azərbaycan dövlətinin əsasları möhkəm təməllər üzərində quruldu. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri o qədər böyükdür ki, Heydər Əliyevin xatirəsi hər gün, hər zaman anılır. Azərbaycanın ayrı-ayrı sahələrinin inkişafında Heydər Əliyevin nişanələri görünür. Azərbaycanın hər bir guşəsində Heydər Əliyevin izi görünür, hər bir sahənin inkişafında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət özünü göstərir. Bu gün Azərbaycan Heydər Əliyevin ideyaları əsasında uğurla, qürurla inkişaf edir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, dəyərlər, strategiya Azərbaycan xalqına xidmət edir", - deyə o vurğulayıb.

Əli Əhmədov bildirib ki, bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan güclü, qüdrətli, beynəlxalq aləmdə nüfuzlu bir dövlətə çevrilib: "Məhz Azərbaycan dövlətinin möhkəm təməllər üzərində qurulmasının nəticəsidir ki, müxtəlif vaxtlarda dünyada baş verən böhranlardan Azərbaycan uğurla çıxa bilib. 2008-2009-cu illərdə baş vermiş iqtisadi böhran demək olar ki, Azərbaycana təsir etmədi. Eyni zamanda bu günümüzdə baş verən koronavirus pandemiyası ilə əlaqədar da Azərbaycan dünyada ən az itkilərə məruz qalan ölkələrdən biridir. Belə ki, COVID-19 infeksiyasına dünyada hər 1 milyon insana düşən yoluxmanın sayı 450 nəfərdirsə, bu göstərici Azərbaycanda 200-ə yaxındır. Ölüm sayına görə dünyada hər 1 milyon insana düşən göstərici 33-ə bərabərdir. Azərbaycanda isə bu göstərici daha yaxşıdır, cəmi 2,6 nəfərdir. Beləliklə, Azərbaycanda vəziyyət dünya göstəricilərindən 15 dəfə yaxşıdır. Bütün bunlar dövlətimizin, Prezidentimiz İlham Əliyevin insanların təhlükəsizliyinin, sağlamlığının qorunmasına verdiyi önəmin ifadəsidir".

Əli Əhmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətinin əsasları o qədər güclüdür ki, kənar təsirlərə müqavimət göstərmək immuniteti kifayət qədər möhkəmdir. O, ölkəmizin qazandığı hər bir uğurun təməlində Ulu Öndərin əsasını qoyduğu siyasətin dayandığını vurğulayıb. YAP sədrinin müavini deyib ki, Azərbaycan bu gün Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyir. Heydər Əliyevin ideyaları, əsasını qoyduğu ənənələr, müəyyənləşdirdiyi siyasət Azərbaycan xalqına xidmət edir. Bu ideyalar və ənənələr daim yaşayacaq, müstəqil Azərbaycan dövlətinin uğurlarının fövqündə dayanacaq.

Videokonfrans formatında keçirilən tədbirdə, həmçinin Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Musa Quliyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və Milli Məclisin deputatı Elman Nəsirov çıxış edərək Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurucusu kimi misilsiz xidmətlərindən və Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevin siyasətinin uğurlarından bəhs ediblər.

# Milli Məclis komitələrinin onlayn iclasları

Mayın 7-də Milli Məclisin Gənclər və idman komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, iclası Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev açaraq gündəliyi təqdim edib.

Onlayn iclasda komitənin deputatları ilə yanaşı, Milli Məclis Aparatının aidiyyəti şöbələrinin əməkdaşları da iştirak ediblər.

İclasda "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyət haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə edilib.

Müzakirələr zamanı dövlətimiz tərəfindən gənclərə, xüsusilə də əlilliyi olan şəxslərə göstərilən diqqət və qayğıdan danışılıb, bunun davamı kimi qanunvericiliyin təkmilləşdirilməsi məqsədəuyğun hesab edilib. Belə ki, qanunvericilikdə nəzərdə tutulmuş "əlil" sözü Azərbaycan Respublikasının 2008-ci ildə qoşulduğu Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasının tələblərinə uyğunlaşdırılmış, habelə əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli həyata keçirilməsi ilə əlaqədar dəyişikliklər edilməsi təklif olunub.

İclasda qanun layihələri ilə yanaşı, Milli Məclisin Gənclər və idman komitəsinin hesabatının qısa icmalı da komitə üzvlərinə təqdim edilib, perspektivdə nəzərdə tutulan məsələlər müzakirə edilib.

Onlayn iclasın sonunda müzakirə olunan sənədlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Mayın 7-də Milli Məclisin Regional məsələlər komitəsinin onlayn iclası keçirilib.

Komitənin sədri Siyavuş Novruzov iclası açaraq gündəlik barədə məlumat verib.

Komitə sədri bildirib ki, gündəliyə əsasən, "Yaşayış minimumu haqqında", "Qanın və qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında". "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Əmək pensiyaları haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılır.

Layihə barədə danışan Siyavuş Novruzov adları çəkilən sənədlərə təklif olunan düzəlişləri diqqətə çatdırıb. Bildirilib ki, dəyişikliklər redaktə xarakterlidir.

Onlayn iclasda iştirak edən komitə üzvləri Elşən Musayev, Tahir Rzayev, Nizami Cəfərov, Kamran Bayramov, Aqil Məmmədov, Cavid Osmanov, Səbinə Xasayeva, Məzahir Əfəndiyev, Emin Hacıyev, Əliabbas Salahzadə layihə barədə fikirlərini bildirib, dəyişiklikləri məqsədəmüvafiq hesab ediblər.

Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Sonra onlayn iclasda cari məsələlər barədə müzakirələr aparılıb. Müzakirələrdə Regional məsələlər komitəsinin növbəti dövr üçün qanunvericilik fəaliyyəti və koronavirus infeksiyası ilə əlaqədar ölkəmizdə fəaliyyət məhdudiyyətlərinin vaxtının uzadılması və yumşaldılması çərçivəsində qarşıda dayanan vəzifələr və görülən işlər haqqında komitə üzvləri öz fikirlərini bildiriblər. Deputatlar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu infeksiyanın yayılmasının qarşısının alınması üçün vaxtında, çevik, operativ və düşünülmüş şəkildə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər.

Bununla da Milli Məclisin Regional məsələlər komitəsinin onlayn iclası başa çatıb.

* * *

Mayın 7-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.

Komitə sədri Bəxtiyar Əliyev deputatlara iclasın gündəliyi barədə məlumat verib. Qeyd olunub ki, gündəliyə üç məsələ daxil edilib.

Onlayn iclasda əvvəlcə "Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib.

Sonra komitənin onlayn iclasında "Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə, eləcə də "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "İcbari sığortalar haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Mədəniyyət haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədə baxılıb.

Bəxtiyar Əliyev bildirib ki, bugünkü gündəliyə daxil edilən hər üç məsələ Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olub. Qanun layihələri "Əlilliyi olan şəxslərin hüquqları" haqqında 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli qanuna uyğunlaşdırma məqsədi daşıyır. Sözügedən sənədlərə təklif edilən dəyişikliklər əlilliyi olan şəxslərin reabilitasiyası, tibbi, təhsil, peşə-əmək, psixoloji-pedaqoji problemlərinin həlli ilə bağlı hüquqi tənzimləmə məqsədilə aparılıb.

Komitə üzvləri İsa Həbibbəyli, Musa Qasımlı, Anar İsgəndərov, Eldar Quliyev, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Şahin Seyidzadə onlayn iclasda çıxış edərək sənədlərlə bağlı fikirlərini bildiriblər.

İclasın sonunda hər üç qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

* * *

Mayın 7-də Milli Məclisin Səhiyyə komitəsinin iclasında 7 məsələyə baxılıb.

Əvvəlcə "Koronavirus (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlər barədə" məsələ müzakirə olundu.

Komitənin sədri Əhliman Əmiraslanov bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə görülən qabaqlayıcı tədbirlər müsbət nəticəsini verib. Dünya ölkələri ilə müqayisədə Azərbaycanda koronavirusdan ölənlərin sayı çox aşağıdır. Prezidentin gündəlik nəzarəti, diqqət və qayğısı sayəsində müvafiq dövlət qurumları vətəndaşların sağlamlığını qorumaq istiqamətində bütün zəruri tədbirləri həyata keçirirlər. Görülən işlər müsbət nəticəsini verir. Lakin dünyanı bürümüş bu bəla ilə mübarizəyə əhali də laqeyd yanaşmamalıdır.

Sonra iclasa dəvət olunmuş TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı deputatlara ölkədəki mövcud vəziyyət və görülən tədbirlər barədə geniş məlumat verdi. Bildirdi ki, indiyədək dünyada 3 milyon 822 min 295 nəfər koronavirusa yoluxub, 265 min 120 nəfər vəfat edib.

Azərbaycanda isə cəmi 2 min 204 yoluxma faktı, 28 ölüm faktı qeydə alınıb. 1551 nəfər müalicə olunaraq sağalıb ki, onlar arasında 84 və 92 yaşlı şəxslər də var. Hazırda aktiv xəstə sayı 625-dir. Qadınlar arasında yoluxma 54 faiz, kişilər arasında 46 faizdir.

Diqqətə çatdırıldı ki, yoluxmanın aşkarlanması məqsədilə ölkəmizdə 176 minə yaxın test icra olunub. Hazırda gündəlik 4-6 min test icra etmək iqtidarına malikik.

TƏBİB-in sədri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə pandemiya dövründə Azərbaycanda virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlər həyata keçirilib, virusun xaricdən idxalının qarşısının alınması məqsədilə dövlət sərhədləri müvəqqəti bağlanıb, martın 14-dən etibarən izolyasiya qaydaları tətbiq olunub, daha sonra xüsusi karantin rejimi elan edilib. Bütün bunlar ölkədə xəstəliyin kütləvi yayılmasının qarşısını alıb. Xarici ölkələrdən gətirilən minlərlə soydaşımız 14 gün müddətində karantində saxlanılıb.

Ölkəmizə Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr vaxtında gətirilərək tibb müəssisələrinə təhvil verilib. Azərbaycanda COVID-19 virusunun müntəzəm diaqnostikası üçün 18 laboratoriyanın fəaliyyəti təmin edilib, ən müasir avadanlıqlarla təchiz olunmuş 575 çarpayılıq "Yeni klinika" istifadəyə verilib, 10 modul tipli yeni xəstəxananın tikintisinə başlanıb və bu gün Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışı olub.

Prezidentin 18 mart 2020-ci il tarixli sərəncamı ilə tibb işçilərinin sosial müdafiəsi gücləndirilib, dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 misli miqdarında əlavə müəyyən edilib. Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə yeni Çağrı Mərkəzi yaradılıb, koronaviruslu xəstələrin müalicəsinə cəlb olunmuş həkimlərə və tibb personalına psixoloji dəstək göstərilməsinə başlanıb. Sumqayıtda tibbi maska istehsalı müəssisəsi açılıb.

Ramin Bayramlı koronavirusla mübarizə sahəsində Milli Məclis rəhbərliyinin və deputatların fəaliyyətini minnətdarlıqla qeyd etdi, əhalini maarifləndirmə işində dəstəklərini yüksək qiymətləndirdi.

Məlumat dinlənildikdən sonra komitə sədrinin müavini Rəşad Mahmudov, deputatlar Kamilə Əliyeva, Kamaləddin Qafarov, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Soltan Məmmədov, Ülvi Quliyev koronavirusla mübarizənin yaxın gələcəkdəki istiqamətləri və hazırda seçicilərini maraqlandıran məqamlarla bağlı suallarını səsləndirdilər.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı suallara cavab verdi.

Günün aktual məsələsi ilə bağlı müzakirə başa çatdıqdan sonra gündəlikdəki qanun layihələrinə baxıldı. Bildirildi ki, təqdim edilmiş qanun layihələri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 31 may 2018-ci il tarixli qanunun icrası məqsədilə hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır.

Komitə üzvləri "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "İcbari sığortalar haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Mədəniyyət haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsini məqsədəuyğun saydılar. Həmçinin "Onkoloji yardım haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Atçılıq haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlara təklif olunan dəyişikliyi müsbət qiymətləndirdilər.

İclasda "Yaşayış minimumu haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Əmək pensiyaları haqqında", "Sosial müavinətlər haqqında" qanunlarda və 2002-ci il 15 mart tarixli "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi razılıqla qarşılandı.

Komitə üzvləri "Polis haqqında", "Avtomobil yolları haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Dövlət qulluğu haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" qanunlarda dəyişikliyi zəruri saydılar.

Deputatlar "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında, "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanunlarda və 1997-ci il 3 oktyabr tarixli "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsinə də müsbət münasibət bildirdilər. Bundan başqa, "Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" qanunlarda dəyişiklik edilməsini vacib saydılar.

Səhiyyə komitəsində yekdilliklə qərara alındı ki, bugünkü iclasda baxılan bütün qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunsun.

**AZƏRTAC**

1923 **Azərbaycanın özü qədər əbədi** 2020

*Hər bir dövlətin, xalqın taleyində həlledici məqamlarda məsuliyyəti üzərinə götürərək xalqının, millətinin gələcəyini müəyyən etmiş, dövlətini bəlalardan qorumuş böyük şəxsiyyətlər olmuşdur. Belə şəxsiyyətlər öz xalqını zamanın ən sərt sınaqlarından uğurla çıxararaq milli dövlətçilik, azadlıq və müstəqillik ideallarını gerçəkləşdirmiş, xalqının xilaskarına çevrilmişlər. Azərbaycan xalqı üçün belə möhtəşəm əməllərə, misilsiz xidmətlərə imza atmış böyük öndər şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevdir. O, hər zaman xalqının xilaskarı, bayraqdarı missiyasını uğurla və şərəflə həyata keçirmiş, müasir müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, onun sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsini, ölkəmizin dünya dövlətləri sırasında öz layiqli yerini tutmasını təmin etmişdir. "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur", - deyən və bütün ömrünü Azərbaycan xalqının firavan həyatına, dövlətimizin möhkəmlənməsinə həsr edən Ulu Öndər öz fəaliyyəti, xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri ilə əsl dövlət xadimi, dahi şəxsiyyət, vətənini, xalqını sevən böyük vətənpərvər olduğunu sübuta yetirmişdir.*



# Müasir, müstəqil, qüdrətli Azərbaycan dövlətinin banisi

## Ümummilli Liderin ideyaları ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatlar strategiyasının əsasını təşkil edir

İki fərqli ictimai quruluşda Azərbaycana rəhbərlik edən Heydər Əliyev formasiyaların və sistemlərin müxtəlifliyinə baxmayaraq, zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, tükənməz enerjisi, yüksək təşkilatçılıq bacarığı və ən mürəkkəb vəziyyətlərdə belə məsuliyyəti öz üzərinə götürərək ən düzgün qərarları qəbul etmək səriştəsi ilə əsl liderlik nümunəsi göstərmişdir. Məlumdur ki, 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda ölkəmiz iqtisadi göstəricilərinə görə keçmiş Sovet respublikaları sırasında ən geridə qalmışlardan biri idi. 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrində geriləmə müşahidə olunur, respublika iqtisadiyyatı dərin böhran keçirirdi. Məhz belə bir şəraitdə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yenidənqurmanı və dinamik inkişafı təmin etmək məqsədilə ayrı-ayrı proqramlar, planlar hazırlanaraq icrasına başlanılmışdı. Bu tədbirlər nəticəsində qısa müddətdə respublikanın milli gəliri 2,5, sənaye istehsalının və kənd təsərrüfatı məhsullarının ümumi həcmi isə 2,7 dəfə artmışdı. İqtisadiyyatın inkişafına əsaslı vəsait qoyuluşunun həcmi əvvəlki 50 il üçün müvafiq göstəricidən 1,4 dəfə çox olmuşdu. Azərbaycanda neft-kimya, maşınqayırma, energetika, metallurgiya, mədənçıxarma və digər sahələr əhəmiyyətli dərəcədə inkişaf etməyə başlamış, 400-ə yaxın yeni sənaye obyekti yaradılmışdı. 1969-cu ildə sənaye müəssisələrinin sayı 735 idisə, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı.

Həyatın digər sahələrində də tamamilə yeni yanaşmanın ortaya qoyulması və yeni dəyərlərin formalaşması Ümummilli Lider tərəfindən həyata keçirilən məqsədyönlü strateji siyasətin tərkib hissəsi idi. Müasir müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının bünövrəsi də həmin dövrdə yaradılmışdır. 1978-ci ildə qəbul edilmiş Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması haqda məşhur 73-cü maddənin daxil edilməsi məhz Heydər Əliyevin cəsarəti və əzminin nəticəsi idi. Milli təhsil sisteminin yenidən formalaşdırılması və bu sahədə fəaliyyət göstərən kadrların milliləşdirilməsi istiqamətində atılan addımlar, hər il təxminən 800-ə qədər azərbaycanlı tələbənin keçmiş İttifaq miqyasında ən aparıcı ali təhsil müəssisələrinə təhsil almağa göndərilməsi Azərbaycanın gələcəyi üçün çox mühüm əhəmiyyətə malik olmuşdur. Məhz həmin dövrdə yaradılmış milli kadr potensialı bu gün müstəqil Azərbaycanın uğurlu inkişafına xidmət edir. O cümlədən milli hərbi kadrların hazırlanmasına da xüsusi diqqət göstərən Ulu Öndər 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail olmuşdur.

Ulu Öndərin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanda bütün geriliklər aradan qaldırılmış və 1982-ci ildə respublikamız artıq SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrilmişdi. Bununla da Ulu Öndər Heydər Əliyev 1969-1982-ci illərdə gələcəyin müstəqil Azərbaycanının güclü bünövrəsini formalaşdırmış, ölkəmizin inkişafına xidmət edən iqtisadi, siyasi, sosial, hərbi, mədəni, ictimai potensial məhz həmin illərdə onun uzaqgörənliyi və dönməz iradəsi sayəsində yaradılmışdır.

Ulu Öndər Heydər Əliyev harada çalışmasından asılı olmayaraq həmişə xalqına, Vətəninə sədaqətlə xidmət etmiş, doğma Azərbaycanı ilə əlaqələrini kəsməmişdir. O, Moskvada SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə də respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdir. 1987-ci ildə Sov. İKP MK Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə, onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa versə də, Azərbaycanda baş verənləri diqqətlə izləmişdir. Sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar Heydər Əliyevin ertəsi gün, Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq öz ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək orada bəyanat verməsi, SSRİ hakimiyyətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləməsi bu çətin məqamda Azərbaycan xalqının ehtiyac duyduğu əsl liderin cəsarəti və qətiyyəti idi.

1991-ci ildə SSRİ-nin süqutu ilə həm beynəlxalq münasibətlər sistemində yeni bir era, həm də regionda yeni bir situasiya yarandı. Digər İttifaq dövlətləri ilə yanaşı, Azərbaycan da öz müstəqilliyini elan etmiş və idarəçilik formasından ictimai şüura qədər hər şey dəyişmişdi. Buna görə də ölkəyə rəhbərlik etməyə bütün bu çağırışlara cavab vermək iqtidarında olan bacarıqlı bir dövlət xadimi gərək idi. Çox təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində dövlət idarəçilik sükanında məhz belə bir liderin olmaması Azərbaycan üçün ağır fəsadlar ortaya çıxarmışdı. Həm müəyyən dairələrin direktivləri ilə hərəkət edən qrupların, həm də siyasi hakimiyyəti qeyri-qanuni, antidemokratik yolla ələ keçirən AXC-Müsavat iqtidarının zamanında Azərbaycan dövləti çox ciddi böhran və tənəzzülə üz-üzə qalmışdı. Siyasi sistemin və cəmiyyət həyatının bütün qatlarına sirayət etmiş nizamsızlıq, xaos və qanuna tabe olmamaq vərdişləri ictimai münasibətlər sistemində də ciddi böhranı meydana çıxarmışdı.

Digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti getdikcə genişlənmiş, hakimiyyət dairələrinin səriştəsizliyi nəticəsində 1993-cü ilin may-iyun aylarında ölkədə siyasi böhran son həddə çatmış, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Belə bir şəraitdə Azərbaycan xalqının diqqəti yenidən xalqımızın böyük oğlu Heydər Əliyevə yönəlmişdi. Bu dəfə də xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər xalqın tələb və təkidlərinə cavab verərək ölkəmizdə növbəti dəfə hakimiyyətə gəldi. Bu qayıdış Azərbaycanın dövlətçilik tarixində qurtuluş, yüksəliş, inkişaf və sabitlik dövrünün əsasını qoydu.

Cəmiyyətlərin sosial quruculuğu prosesində liderlərin şəxsi keyfiyyətləri, enerjisi və zəkası ilə yanaşı, novator və konstruktiv ideyalar irəli sürmək və gerçəkləşdirmək məharəti də mühüm əhəmiyyət kəsb edir. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk günlərdən etibarən yeni cəmiyyət quruculuğuna, ictimai münasibətlər sistemində yeni dəyərlərin formalaşmasında tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq rasional inkişaf xətti irəli sürmüş və onların həyata keçirilməsini təmin etmişdir. Ulu Öndər milli-mənəvi dəyərlərə, xalqımızın zəngin tarixinə və mənəviyyatına bağlı lider olduğu kimi, Azərbaycanın gələcəyini təmin edən strateji planları müəyyənləşdirən novator islahatçı idi. Onun qəbul etdiyi qərarlarda, strateji inkişaf proqramlarında birmənalı olaraq milli maraqlar və vətəndaş mənafeyinin bütün spektrləri dolğun əks olunmuşdur. Heydər Əliyev dövlətin və cəmiyyətin resurslarını ümummilli məqsədlər naminə böyük ustalıqla səfərbər edən, milli potensialı doğru yönləndirməyi bacaran böyük təşkilatçı kimi bir çoxları üçün əlçatmaz görünən layihələri, strateji inkişaf proqramlarını reallığa çevirirdi.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə, ilk növbədə, uğurlu dövlət-vətəndaş birliyi platformasına söykənərək ictimai nizam-intizamı, siyasi sabitliyi təmin etmiş, milli təhlükəsizliyin sarsılmaz əsaslarını yaratmışdır. O, "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!" tezisi ilə əsl vətəndaş mövqeyi ortaya qoyaraq milli təəssübkeşliyin nümunəsini göstərmişdir. Böyük və bənzərsiz şəxsiyyət millətini bütün bəlalardan qorumuş, vətəndaş qarşıdurmasını aradan qaldırmış, ölkənin parçalanmasının qarşısını almaqla milli qurtuluşu təmin etmişdir. Azərbaycan Respublikasının demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün ölkəmizdə zəruri olan təsisatlar və hüquqi baza formalaşdırılmış, Ulu Öndərin birbaşa rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası işlənib hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir. Həmçinin sosial-iqtisadi və dövlət quruculuğu sahələrində, insan hüquqları və azadlıqlarının təmin edilməsi istiqamətində ciddi konseptual qərarlar qəbul olunmuş, sağlam hüquqi bünövrə yaradılmışdır.

Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövr Azərbaycan parlamentarizminin ən parlaq səhifələrini təşkil edir. Xalqımızın böyük oğlunun rəhbərliyi ilə parlament ali qanunverici orqan kimi, ölkəmizin problemlərinin həlli ilə bağlı demokratik müzakirələrin keçirildiyi və siyasi mədəniyyətin hökm sürdüyü bir tribunaya çevrilmişdir. Parlamentin ictimai nüfuzu yüksəlmiş və effektiv qanunvericilik fəaliyyəti həyata keçirilmiş, mühüm qanunlar qəbul olunmuşdur.

Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlara paralel olaraq, dövlət aparatının möhkəmləndirilməsi və yeni təsisatlarının formalaşdırılması, siyasi mühitin sağlamlaşdırılması və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanların yaradılması, müasir və döyüş qabiliyyətli ordunun formalaşdırılması, neft strategiyasının hazırlanması, bu strategiyanın əsası olan "Əsrin müqaviləsi" sazişinin imzalanması ilə Azərbaycanın qlobal enerji bazarında və beynəlxalq münasibətlərdə aktiv iştirakının təmin olunması, yeni və praqmatik xarici siyasət strategiyasının müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi həmin dövrdə ölkəmizin qarşısında tamamilə yeni inkişaf paradiqmalarının meydana gəlməsini şərtləndirmişdir.

İdarəçilik sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyev həmişə xüsusi olaraq vurğulayırdı ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Baxmayaraq ki, bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyatda da ölkəmizin öncəki siyasi rəhbərliyindən çox ağır miras qalmışdı, Ulu Öndər Azərbaycanın müstəqilliyinin iqtisadi əsaslarını gücləndirmək, ölkənin iqtisadi qüdrətini artırmaq üçün ciddi islahatlara start vermişdir. Həmişə, ən çətin məqamlarda belə optimal strateji xətti düzgün müəyyənləşdirməyi bacaran Ümummilli Lider yaranmış vəziyyəti, reallıqları dəyərləndirərək qəti şəkildə bildirirdi ki, keçmiş sovet dövrünün idarəçilik metodları ilə yeni dönəmin iqtisadiyyatını qurmaq mümkün deyil, yolumuz liberal iqtisadiyyata transformasiya yolu olmalıdır.

Ulu Öndərin müəyyənləşdirdiyi strateji kurs islahatlar yolu ilə müstəqil Azərbaycanın keyfiyyətcə yeni və daha funksional iqtisadiyyatının qurulmasını hədəfləyirdi. Bu məqsədlə 100-dən çox fərman və sərəncam imzalanmış, onun təşəbbüsü əsasında parlamentdə yeni qanunlar qəbul edilmiş, Azərbaycan Respublikasının Konstitusiyasında da liberal iqtisadiyyata keçidi təmin etməyə hüquqi əsaslar yaradan bir sıra müddəalar öz əksini tapmışdır. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə respublikamızda MDB məkanında ilk dəfə olaraq geniş torpaq islahatı aparılmış, Azərbaycan vətəndaşlarının heç bir əvəz ödəmədən torpaq mülkiyyətçilərinə çevrilməsi təmin edilmişdir. Bu addım respublikanın kənd təsərrüfatında da, sözün əsl mənasında, dönüş yaratmışdır.

Beləliklə, dahi şəxsiyyət Heydər Əliyevin parlaq zəkası sayəsində iki əsrin və iki minilliyin kəsişməsində Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur. Bugünkü güclü, qüdrətli Azərbaycanı öz əlləri ilə yaratmış, onun müstəqilliyini yaşatmış və inkişaf etdirmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin də qeyd etdiyi kimi, Heydər Əliyev öz həyatını doğma xalqına həsr etmişdir və bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir: "Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir".

Tam qətiyyətlə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də özündən sonra Azərbaycanı uğurlu inkişaf etdirəcək, ölkəmizi dünya dövlətləri sırasında layiqli zirvələrə daşıyacaq və ötən illərdə başlanılmış böyük layihələri, genişmiqyaslı islahatları müvəffəqiyyətlə həyata keçirəcək uğurlu lideri yetişdirmək olmuşdur. Bu mənada müstəqil Azərbaycan dövlətinin 2003-cü ildən bu günə qət etdiyi inkişaf yolu, əldə etdiyi möhtəşəm nailiyyətlər bu seçimin nə qədər mühüm tarixi əhəmiyyətə malik olduğunu, Azərbaycanın davamlı inkişafı üçün Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu bir daha sübuta yetirmişdir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ötən dövr Azərbaycan tarixinə sabitlik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur.

Tarixi təcrübə göstərir ki, milli həmrəyliyə malik olan, iqtidar - xalq birliyi yüksək səviyyədə təmin edilən ölkələr qarşıya qoyulan hədəflərə müvəffəqiyyətlə çatırlar. Ölkəmizin də inkişafını fərqləndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, Azərbaycanda dövlət siyasətinin müəyyənləşməsində cəmiyyətdən gələn sifarişlər əsas götürülür və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ana xəttini məhz xəlqilik təşkil edir. Möhtərəm Prezident İlham Əliyev 2003-cü ildə öz vəzifəsinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" demişdi. Və ötən dövrdə Prezident İlham Əliyev öz əməli fəaliyyəti ilə xalqımızın böyük dəstək və ehtiramını qazanmış, hər bir vətəndaşımızın Prezidenti olduğunu sübuta yetirmişdir.

Gənc dövlətin əsaslarının möhkəmliyi, həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi, uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Azərbaycanın əldə etdiyi genişmiqyaslı nailiyyətlər dövlət başçısının qətiyyətli, yaradıcı və milli maraqlara söykənən fəaliyyətinin nəticəsidir. Ölkəmizin hərtərəfli inkişafı ciddi konseptual əsaslara malikdir və hər bir sahə üzrə bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış fəaliyyət proqramları həyata keçirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya mövcud olduğu halda müstəqil siyasət yeritmək mümkündür. Bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır və xalqımızın maraqlarını təmin edir.

Ölkəmizin dinamik inkişafını şərtləndirən digər mühüm məsələlərdən biri də həyata keçirilən islahatların ardıcıllığının təmin olunmasıdır. Dövlət başçısı bu islahatların vacibliyini vurğulayaraq inkişaf və tərəqqinin islahatlarsız mümkün olmadığını qeyd edib: "İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk".

Böyük müvəffəqiyyətlə həyata keçirilən islahatlar çərçivəsində qeyri-neft sektorunun üstün inkişafına nail olunması, azad sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, bazar iqtisadiyyatının gücləndirilməsi, xarici investisiyaların regionların inkişafına cəlb edilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi Azərbaycanın iqtisadi həyatında çox ciddi nailiyyətlərin qazanılmasını şərtləndirmişdir. Həmçinin yeni istehsal sahələrinin yaradılması, qlobal iqtisadi layihələrin həyata keçirilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, modern sənaye quruculuğu kimi başlıca strateji vəzifələrin yerinə yetirilməsi nəticəsində Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Ölkəmizdə liberal, rəqabətədavamlı, ixrac tutumu böyük olan diversifikasiya edilmiş iqtisadiyyat quruculuğu ilə bağlı yeni hədəflər müəyyənləşdirilmiş və hazırda bu strateji vəzifələr uğurla icra olunur. Bu illər ərzində milli iqtisadiyyatımız 3,4 dəfə genişlənmişdir ki, bu da bütün dünya üzrə ən yaxşı göstəricilərdən biridir. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü iqtisadiyyata malik ölkədir. Qlobal iqtisadi sferada müşahidə olunan mənfi tendensiyalar və risklər fonunda Azərbaycan özünün iqtisadi məkanını mənfi təsirlərdən qoruya bilir və milli iqtisadiyyatımız rəqabətqabiliyyətliliyinə görə MDB-də lider mövqeni tutur. Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında söylədiyi dərinməzmunlu nitqində respublikamızın iqtisadi sahədə qazandığı uğurlardan bəhs edərək deyib: "Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib".

Əlamətdar haldır ki, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və iqtisadi qüdrətinin artması daha səmərəli və çoxşaxəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsi ilə müşayiət olunur. Möhtərəm Prezident İlham Əliyevin ardıcıl və davamlı islahatlar kursu, qazanılan iqtisadi nailiyyətlər ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına xidmət edir. Bu siyasətə uyğun olaraq son 16 ildə respublikamızda geniş və modern infrastruktur quruculuğu həyata keçirilmiş, təxminən 3500 məktəb, 750-dən çox xəstəxana tikilmiş, yaxud əsaslı şəkildə yenidən qurulmuş, bütün şəhər və rayonlarda mədəniyyət mərkəzləri, idman və olimpiya qurğuları istifadəyə verilmiş, 15 min kilometrdən artıq yol çəkilmiş, əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatı məsələləri həll edilmişdir. 2003-2019-cu illər ərzində respublikamızda təxminən 2 milyon yeni iş yeri açılmış, işsizlik səviyyəsi 5 faizədək aşağı endirilmişdir ki, bu da dünya üzrə ən yaxşı göstəricilərdən biridir. İşsizliyin aşağı səviyyədə olması həmçinin respublikamızda yoxsulluğun da azalmasını - 49 faizdən 5,4 faizə enməsini şərtləndirmişdir. Bu müsbət dinamikanı biz əməkhaqlarının və pensiyaların, həssas qruplara dövlət dəstəyinin davamlı olaraq artırılmasında da müşahidə edirik.

Təkcə ötən il həyata keçirilən böyük sosial paket 4,2 milyon vətəndaşımızı əhatə etməklə, onların maddi-rifah halının əsaslı şəkildə yaxşılaşmasını təmin etmişdir. Cari ildə də sosial layihələrin davam etdirilməsi, bu sahədə heç bir proqramın ixtisar edilməməsi sübut edir ki, Azərbaycan dövləti yalnız öz gücünə, imkanlarına arxalanaraq genişmiqyaslı sosial proqramlar həyata keçirir, dövlətimizin və xalqımızın maraqlarına, mənafeyinə söykənən qərarlar qəbul edir. Möhtərəm Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, sosial siyasət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu demokratikləşmə prosesi və siyasi islahatlar da dövlət başçısının rəhbərliyi ilə 2003-cü ildən yeni keyfiyyətdə davam etdirilir. Başqa sözlə, iqtisadi islahatlar mükəmməl siyasi islahatlarla tamamlanır. Həm konseptual, həm də struktur xarakteri daşıyan bu islahatlar dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması, səmərəliliyinin artırılması, qərarların icrası mexanizminin müasir tələblərə uyğunlaşdırılması və yeni keyfiyyət mərhələsinə yüksəldilməsi məqsədlərinə xidmət edir. Eyni zamanda Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanların yaradılması, dövlət və özəl qurumların fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin olunması, ictimai və sosial xidmətlər sahəsində institusional islahatların reallaşdırılması ilə yeni və ciddi keyfiyyət dəyişikliyinə nail olunması, həyata keçirilən kadr islahatları müasir mərhələdə Azərbaycanda praqmatik, düşünülmüş siyasi kursun reallaşdırılmasını təsdiq edir. Hazırda Azərbaycanda yeni siyasi konfiqurasiya formalaşmaqdadır və siyasi sistemin komponentləri arasında dialoq mühitinin genişləndirilməsi, münasibətlərin sağlamlaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılır.

Təbii ki, həyata keçirilən islahatlar Azərbaycan Respublikası Milli Məclisinin də qarşısında yeni vəzifələr qoyur. Azərbaycan parlamenti bundan sonra da ölkəmizin dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin uğurla həyata keçirilməsinə öz töhfəsini verəcək və möhtərəm Prezidentimizin rəhbərliyi ilə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyasını dəstəkləməkdə davam edəcəkdir.

Bu gün ciddi əsaslara malik ictimai-siyasi sabitliyin hökm sürdüyü, demokratik, hüquqi, sivil, dünyəvi, iqtisadiyyatı inkişaf edən, əhalinin etibarlı sosial müdafiəsini təmin edən müstəqil Azərbaycan xarici siyasət sahəsində də fəal diplomatik əlaqələrə və geniş imkanlara malikdir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmiz dünya iqtisadi və siyasi birliyinə uğurla inteqrasiya etmiş, qlobal layihələrin mərkəzinə, dünyanın aparıcı dövlətlərinin, beynəlxalq təşkilatların hörmət və diqqətlə yanaşdığı nüfuzlu dövlətə çevrilmişdir. Azərbaycan işğalçı Ermənistan istisna olmaqla, dünya birliyinə üzv olan bütün dövlətlərlə qarşılıqlı hörmət və etimada söykənən səmərəli münasibətlər qurmuş, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri yaratmışdır. Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının 2012-1013-cü illərdə qeyri-daimi üzvü seçilməsi bunun parlaq təzahürüdür. Ölkəmiz BMT-dən sonra dünyanın ən böyük ikinci təşkilatı olan Qoşulmama Hərəkatının da fəal üzvlərindən biridir və hazırda bu təşkilata uğurla sədrlik etməkdədir. Eyni zamanda digər mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanın dərinləşməsinə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir.

Azərbaycan dinlər və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi ilə bağlı mühüm beynəlxalq təşəbbüslər irəli sürmüş, sülh və əməkdaşlıq məkanı kimi özünü təsdiq etmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, respublikamızın müəllifi olduğu layihələr dünyanın enerji xəritəsini dəyişdirmiş, Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür.

*Beləliklə, sadalanan faktlar qurucusu və banisi xalqımızın Ümummilli Lideri Heydər Əliyev olan müstəqil Azərbaycan dövlətinin əldə etdiyi möhtəşəm uğurların sadəcə bir qismini ifadə edir. Azərbaycan gözlərimizin önündə hər gün dəyişir, inkişaf edir və gələcəyə doğru inamla, qətiyyətlə addımlayır. Əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bundan sonra da müstəqil, dinamik, hərtərəfli inkişafını davam etdirəcək və Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti daha da qüdrətli, zəngin və hərtərəfli inkişafa nail olacaqdır.*

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

1923 Azərbaycanın özü qədər əbədi 2020

Tarix dahi insanların fəaliyyətinin məhsuludur. Heç bir xalq dahi, böyük tarixi miqyaslı şəxsiyyətlər yetişdirmədən inkişafın zirvəsinə yüksələ bilməyib. Tale Azərbaycan xalqını da inkişafın gedişinə və istiqamətlərinə fövqəladə təsir göstərmək qüdrətinə malik olan dahi şəxsiyyətlərdən məhrum etməmişdir. Ən müasir tariximizdə bu şərəfli missiya Ümummilli Lider Heydər Əliyevə nəsib oldu. İndiki nəsillərin şahidi olduğu tarixin yaradıcısı, müasir Azərbaycanın qurucusu da məhz Heydər Əliyevdir.



# Heydər Əliyev ideyalarının təntənəsi:
# Müasir Azərbaycan Respublikası

## Müasir Azərbaycanın qurucusu

Keçən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycanın tarixinə həm şanlı, həm də faciə və uğursuzluqlarla dolu səhifələr kimi daxil olub. Dövlət müstəqilliyinin bərqərar olması, xalqın çoxdan arzuladığı azadlığa qovuşması tariximizin şanlı səhifələrini təşkil etdiyi halda, ölkəmizin erməni təcavüzünə məruz qalması, 20 faiz torpaqlarımızın işğal olunması, minlərlə vətəndaşımızın həlak olması yaşadığımız faciələrdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, yaşamağa məhkum edildiyimiz qara, təlatümlü günlər yalnız yuxarıda deyilənlərlə məhdudlaşmır. 1992-ci ildə xalq hərəkatı dalğası üzərində hakimiyyətə gələnlərin ölkəyə və xalqa yaşatdırdığı müsibətlər qeyd olunanlardan heç də az tünd rəngdə deyil. İqtisadiyyatın talan edilməsi, iş yerlərinin kütləvi surətdə bağlanması, 1600 faizə çatan hiperinflyasiya, Bakının tükürpərdən simasına çevrilmiş çörək növbələri, anarxiya, siyasi qeyri-müəyyənlik və qeyri-sabitlik insanların yaşamaq ümidlərini bütünlüklə qırmışdı. Şimalda və cənubda baş qaldırıb tüğyan edən separatçılıq dövlətin müstəqilliyi və ölkənin bütövlüyü üçün ciddi təhdidə çevrilmişdi.

Ötən əsrin 70-80-ci illərində sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə onun sosial, iqtisadi və mədəni inkişafına, əslində isə çoxlarının birmənalı şəkildə qeyd etdiyi kimi, intibahına nail olmuş Heydər Əliyev yeni tarixi şəraitdə xilaskarlıq missiyasını öz çiyinləri üzərinə götürdü. Qısa vaxtda yuxarıda sadalanan böhranlar, təlatümlər, təhlükələr aradan qaldırıldı. Azərbaycan yenidən canlandı, ölkədə iqtisadi və siyasi islahatlar keçirildi, ən əsası isə insanlar müstəqilliyin və azadlığın faydalarını görməyə başladılar, xalq isə, sözün həqiqi mənasında, öz taleyinin sahibi oldu. Bu məqamda vurğulamaq vacibdir ki, müasir tariximizə Heydər Əliyevin qayıdışı kimi daxil olan dövr Azərbaycanın iqtisadiyyatının möhtəşəm inkişafı, insanların rifahının yaxşılaşması, ölkənin simasının inanılmaz dərəcədə müasirləşməsi, dünya miqyasında nüfuzunun yüksəlməsi, ordumuzun qüdrətinin artması və daha nə qədər tarixi möhtəşəm dəyişikliklərin tarixidir. Məhz bu andan etibarən, 1993-cü ilin 15 iyununda Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində yeni mərhələ başlandı. İnsanları narahat edən, xalqı vahiməyə salan bütün proseslər dəf edildi, xaos, anarxiya, hakimiyyət böhranı aradan qaldırıldı. O zaman Azərbaycanın parçalanması təhlükəsini yaratmış separatizmin, vətəndaş müharibəsinin qarşısı alındı, erməni təcavüzünün dərinləşməsinə son qoyuldu, cəbhədə atəşkəs razılaşmasına nail olundu. Ən başlıcası isə ölkəni bürümüş siyasi və iqtisadi tənəzzülə son qoyuldu, hakimiyyət böhranı aradan qaldırıldı. 1994-cü ildə məlum "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyev müdrikliyinin və uzaqgörənliyinin ən bariz nümunəsi oldu. Bölgənin enerji mənzərəsini dərindən dəyişdirən bu layihə Azərbaycana böyük iqtisadi və geopolitik dividenflər bəxş etdi. Bugünkü Azərbaycanı, onun böyük potensialını həmin müqaviləsiz təsəvvür etmək mümkün deyil. Beləliklə, Azərbaycanın müstəqilliyi möhkəm və etibarlı bünövrə üzərinə qoyuldu və inkişafa, tərəqqiyə xidmət edən islahatlar reallaşdırıldı. Azərbaycanın iqtisadi çiçəklənməsinə və təhlükəsizliyinə təminat verən böyük neft sazişlərinin imzalanması, iqtisadi, sosial və siyasi islahatlar strategiyasının hazırlanaraq ardıcıl surətdə həyata keçirilməsi ilə yeni, müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı.

Heydər Əliyev xalqımızın tarixinə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olmuşdur. Azərbaycançılıq ideologiyasına əsaslanan bu dövlətin təməlində müstəqillik, güclü iqtisadiyyat və azad insan kimi dəyər və prinsiplər dayanır. Müasir tariximizin təlatümlü, ziddiyyətlərlə dolu dövründə Heydər Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində qurulan müstəqil Azərbaycan dövləti özündə, sözün həqiqi mənasında, ən müasir dövlətçilik dəyərlərinin və Heydər Əliyev ideyalarının sintezini ehtiva edir. Məhz elə buna görə Azərbaycan Respublikası Heydər Əliyevdən sonra da böyük inkişaf və təkmilləşmə potensialına sahib olduğunu nümayiş etdirir, Azərbaycan xalqının iradəsini və maraqlarını layiqincə təmsil etmək imkanlarını göstərir. Ümummilli Lider müstəqil Azərbaycan dövlətini özünün şah əsəri adlandırırdı və bütün xalq onun bu dəyərləndirməsini birmənalı şəkildə qəbul edirdi, bu gün də edir. Bu, xalqımızın Ümummilli Liderin misilsiz tarixi xidmətlərinə verdiyi qiymətin əyani ifadəsidir.

## Müasir Azərbaycanın inkişafında İlham Əliyev mərhələsi

Müasir Azərbaycanın yeni mərhələdə inkişafından söhbət açılanda birmənalı şəkildə vurğulanır ki, onun fundamental əsaslarını Heydər Əliyevin ideyaları təşkil edir. Məhz elə buna görə də 2003-cü ildən bu günə qədər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu strateji kurs ölkəmizin hərtərəfli inkişafını təmin edib. Bu siyasət nəticəsində Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edib, insanların rifahı əhəmiyyətli dərəcədə yüksəlib, ölkənin hərbi qüdrəti artıb. Azərbaycanın müasirləşməsi, yeniləşməsi baş verib, şəhər və kəndlərin siması kökündən dəyişib. Bu gün Azərbaycan dünyanın ən uğurlu gənc dövləti kimi qəbul olunur, onun parlaq gələcəyinə sonsuz inam ifadə edilir. Ölkəmizin beynəlxalq nüfuzunun artması, mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə qərar tutması isə insanların qürur mənbəyinə çevrilib.

Son 16 il ərzində Azərbaycan öz iqtisadiyyatını 3,4 dəfə genişləndirməklə dünyada rekord göstəriciyə imza atıb. Ölkədə yaradılan müasir infrastruktur iqtisadi aktivliyin artmasına geniş imkanlar açıb, həmçinin neft gəlirlərindən səmərəli istifadə etməklə postneft dövrünün iqtisadiyyatının qurulması istiqamətində önəmli addımlar atılıb. Eyni zamanda respublikamız özünün maliyyə imkanlarını, strateji valyuta ehtiyatlarını artırmağa müvəffəq olub.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və milli maraqlara əsaslanan uğurlu xarici siyasət nəticəsində respublikamızın beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir, ikitərəfli və çoxtərəfli münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Azərbaycanın təşəbbüsü və liderliyi ilə reallaşdırılan regional miqyaslı, qlobal əhəmiyyətli nəhəng transmilli enerji və nəqliyyat layihələri bölgədə və beynəlxalq miqyasda əməkdaşlığa, təhlükəsizliyə xidmət edir, ölkəmizin tərəqqisinə, beynəlxalq əlaqələrinin genişlənməsinə mühüm töhfələr verir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında etibarlı tərəfdaş, güclü və nüfuzlu dövlət kimi tanınır. Bütün məsələlərdə milli maraqlara əsaslanan prinsipial mövqedən çıxış edən rəsmi Bakı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində də qətiyyət nümayiş etdirir, hücum diplomatiyasını uğurla davam etdirərək həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Son zamanlar Prezident İlham Əliyevin Aşqabad və Münxendə, eləcə də "Valday" Beynəlxalq Diskussiya Klubunda erməni yalanlarını ifşa edərək tarixi və hüquqi reallıqları qətiyyətlə ifadə etməsi ermənilərin və ermənipərəst qüvvələrin manipulyasiya cəhdlərinin, qarayaxma kampaniyasının iflasa uğradılması baxımından olduqca böyük önəm kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu strateji diplomatiya siyasətinin nəticəsidir ki, beynəlxalq səviyyədə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə olunur, Ermənistanın işğalçı siyasəti pislənilir. Bu kontekstdə son olaraq martın 31-də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda təşkil edilmiş "seçki" şousunun iflasa düçar olması - bir çox ölkənin, regional və beynəlxalq təşkilatların qondarma "seçkilər"i qeyri-qanuni və hüquqazidd adlandıraraq rədd etməsi xüsusi olaraq vurğulanmalıdır. Xatırlatmaq yerinə düşər ki, bəhs olunan "seçkilər"ə dair Türkiyə, Ukrayna, Gürcüstan, Bosniya və Herseqovina, Moldova, Kanada, Avstraliya, Çex Respublikası, Estoniya, Latviya, Litva, Rumıniya, Bolqarıstan, Finlandiya, Almaniya, İtaliya, Monteneqro, Böyük Britaniya, Belçika, İsveç, Xorvatiya, İran və digər bir sıra ölkələr, eyni zamanda, Türk Şurası, Türk Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Təşkilatı-GUAM, ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, NATO tərəfindən müvafiq mövqe bildirildi və verilmiş bəyanatlarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda keçirilmiş qondarma "seçkilər"in tanınmadığı vurğulandı, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstək ifadə olundu. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli xarici siyasət kursunun, o cümlədən uğurlu strateji diplomatiya siyasətinin real nəticələridir.

Şübhəsiz ki, qazanılan uğurlar ən əsas problemimiz olan Dağlıq Qarabağ məsələsinin həlli, torpaqlarımızın işğaldan azad olunması üçün etibarlı zəmin yaradır. Azərbaycanın güclü ordusu, xalqın iradəsi, Prezidentin qətiyyəti torpaqlarımızın işğaldan azad olunmasına inamı artırır. Azərbaycan müharibə tərəfdarı deyil, münaqişənin sülh yolu ilə həllinə üstünlük verir. Lakin ordumuzun qüdrəti, xüsusilə də Aprel döyüşləri zamanı hərbçilərimizin nümayiş etdirdiyi rəşadət və cəsarət nəticəsində düşmənin təxribatının qarşısının layiqincə alınması bir daha təcavüzkar Ermənistana və dünya ictimaiyyətinə göstərdi ki, Azərbaycan öz ərazilərini işğaldan azad etmək gücü və iqtidarındadır!

Bir sözlə, Azərbaycanın XXI əsrdə qazandığı möhtəşəm uğurlar Heydər Əliyev siyasəti və həmin siyasəti bacarıqla həyata keçirən İlham Əliyevin adı ilə bağlıdır. Onun strategiyası və fədakarlığı sayəsində Azərbaycan dünyanın ən uğurlu gənc dövləti imicini qazanıb. Müasirləşmə, yeniləşmə böyük iqtisadi tərəqqi və dövlətin qüdrətinin artması ilə müşayiət olunur. İndi Azərbaycan öz gələcəyinə daha inamla və böyük ümidlərlə baxır.

Ümumiyyətlə, İlham Əliyev bütün dünyada müasir dünyagörüşlü, cəsarətli, uzaqgörən siyasətçi və dövlət başçısı kimi tanınır. Əhalinin ona bəslədiyi böyük hörmət və etimad dövlət başçısının şəxsiyyətinə və fəaliyyətinə verilən ən böyük qiymətdir. Heç şübhəsiz, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsində dövlətimizə, ölkəmizə və xalqımıza bundan sonra da xidmət edəcək, Azərbaycanı daha yüksək zirvələrə qaldıracaq.

## Genişmiqyaslı islahatlar və Azərbaycanın gələcək inkişaf perspektivləri

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, yenilənir, müasirləşir. Son vaxtlar uğurla həyata keçirilən islahatlar ölkəni inkişafın keyfiyyətcə yeni mərhələsinə aparır. İslahatlar bütün sahələri əhatə edir: iqtisadi artım, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, siyasi sistemin inkişafı və sair. Bütün bunlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını göstərir.

Bu məqamda xatırlatmaq vacibdir ki, 2019-cu ildə respublikamızda böyük sosial paketin reallaşdırılması nəticəsində sosial islahatlar 4,2 milyon vətəndaşı əhatə edib. Ötən il reallaşdırılan sosial islahatların ən mühüm seqmenti məhz əmək münasibətləri ilə bağlı olub. İl ərzində dövlət başçısının imzaladığı müvafiq sənədlər əsasında reallaşdırılan tədbirlər nəticəsində 1 milyon 350 min insanın əməkhaqqı ciddi şəkildə artıb. Bu artımlar Azərbaycanın minimum əməkhaqqına görə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerə yüksəlməsini təmin edib. Respublikamızda cəmi bir il ərzində əməkhaqqı fondunun 42,3 faiz artması böyük uğurdur. Eyni zamanda median əməkhaqqı cəmi bir il ərzində 52 faiz artıb. İslahatlar çərçivəsində 2019-cu ildə əmək pensiyalarının minimum məbləğinin iki dəfə artırılması da təqdirəlayiq haldır. Əməkhaqqı artımları ilə bağlı, xüsusi şərtlərlə pensiya alan 90 min pensiyaçının da pensiyaları orta hesabla 31 faiz artıb və bu da ümumilikdə ötənilki paketin 750 min insanı əhatə etməsini təmin edib. Bütövlükdə, aparılan islahatlar nəticəsində 2019-cu ildə ölkədə orta pensiya 15 faiz, yaşa görə pensiya 15 faiz, ən həssas kateqoriya olan əlilliyə görə pensiya isə 22 faiz artıb.

Bütün bu reallıqlar, hər şeydən əvvəl, Prezident İlham Əliyevin bəyan etdiyi "siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" prinsipinin növbəti əyani təcəssümü sayıla bilər. Ümumiyyətlə, insana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsini təşkil edir və məhz elə bu səbəbdən də xalqla hakimiyyətin qırılmaz vəhdəti deyilən fenomen meydana çıxmışdır.

Çox mühüm məqamlardan biri budur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar ölkənin inkişaf dinamizmini daha da yüksəldib. Sosial-iqtisadi sahə ilə yanaşı, idarəetmə sahəsində də islahatların aparılması, onun hakimiyyətin hər üç qolunu əhatə etməsi xüsusi əhəmiyyətə malikdir. İcra strukturlarında və məhkəmə-hüquq sistemində islahatların aparılması ilə yanaşı, qanunverici hakimiyyətin də islahatlardan kənarda qalmaması inkişafın və yeniləşmənin ahəngdarlığını təmin edən çox mühüm amildir. Bu islahatların tərkib hissəsi kimi, Azərbaycanda cari ilin fevral ayının 9-da keçirilən parlament seçkiləri ölkəmizdə demokratiyanın yeni bir təzahürü, demokratik inkişaf istiqamətində ölkəmizin daha da irəliyə doğru əhəmiyyətli bir addım atmasının ifadəsidir. Azərbaycanda heç zaman parlament seçkilərində 1300-dən çox namizəd iştirak etməyib. Bu, rekord bir göstəricidir. Bu, bir tərəfdən, Azərbaycanda seçkilərin açıq və şəffaf keçirilməsinə vətəndaşların əvvəlcədən inamının ifadəsi idi, digər bir tərəfdən isə, ölkəmizdə demokratik ənənələrin oturuşmasının çox vacib göstəricilərindən biridir. Seçkilər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi. Beynəlxalq təşkilatlar Azərbaycanda keçirilən bu seçkilərə böyük maraq göstərdi. Təsəvvür edin, əhalinin sayına görə Azərbaycan o qədər də böyük ölkə deyil, cəmi 125 dairədə seçkilər keçirilir, 125 deputat mandatı uğrunda mübarizə aparılırdı. Ancaq digər ölkələrlə müqayisədə daha az deputat yerləri uğrunda aparılan mübarizəni izləmək üçün 900-ə yaxın beynəlxalq müşahidəçi gəlmişdi. Bunun özü də beynəlxalq aləmdə Azərbaycana olan marağın bir ifadəsidir. Bütün bunların hamısını ümumiləşdirərək demək olar ki, parlament seçkiləri çoxşaxəli islahatlar strategiyasının mühüm komponenti kimi Azərbaycanın siyasi tarixinin mühüm bir hissəsini təşkil edir, ölkəmizin demokratiya yolunda irəliləyişinin əhəmiyyətli bir təsdiqi kimi özünü büruzə verir. Ən əsası, bu seçkilərdə Yeni Azərbaycan Partiyasının növbəti dəfə qələbə qazanması, hər şeydən əvvəl, seçicilərin Prezident İlham Əliyevə, onun həyata keçirdiyi siyasətə dərin inamının ifadəsi kimi qiymətləndirilməlidir. Milli Məclisə keçirilən seçkilərin nəticələrinin ortaya qoyduğu digər mühüm həqiqət insanlarımızın Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və yenidənqurma kursunu dəstəkləməsində ifadə olunur. Ümumiyyətlə, müşahidələrimiz bu fikri söyləməyə əsas verir ki, Azərbaycan cəmiyyəti bütövlükdə İlham Əliyevin həyata keçirdiyi islahatlara ciddi inam ifadə edir və bu islahatlardan böyük gözləntiləri var. İfadə olunan konkret mövqe və yanaşma ondan ibarətdir ki, islahatların aparılması Azərbaycanda inkişafın daha da sürətlənməsinə xidmət edir.

Bu gün dünya ölkələrinin "gözəgörünməz düşmən" adlandırılan yeni növ koronavirus infeksiyası (COVID-19) ilə mübarizə apardığı şəraitdə Azərbaycan dövləti bu istiqamətdə öz müsbət və mütərəqqi təcrübəsi, nümunəvi modeli ilə fərqlənir. Diqqət yetirsək, görərik ki, bir çox inkişaf etmiş, yüksək infrastruktura, texniki və texnoloji təminata malik olan aparıcı ölkələr koronavirus pandemiyası ilə mübarizədə aciz vəziyyətə düşüblər, həm kütləvi insan tələfatları, həm də ciddi sosial-iqtisadi problemlər acı reallığa çevrilib. Azərbaycanda isə Prezident İlham Əliyevin tapşırığına əsasən, zəruri qabaqlayıcı və mübarizə xarakterli tədbirlərin görülməsinə başlanıb. Təxirəsalınmaz tədbirlərin reallaşdırılması üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılıb, sosial izolyasiya qaydaları və xüsusi karantin rejimi tətbiq edilib. Bunlarla yanaşı, xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilib, ölkə ərazisində 18 laboratoriyanın fəaliyyəti təmin edilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. Dövlət başçısının təşəbbüsü ilə modul tipli yeni xəstəxanaların tikintisinə başlanılıb, mart ayının sonunda istifadəyə verilmiş "Yeni klinika" müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb. Virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanılması, xüsusi rejimli xəstəxanaların müvafiq dərman və qoruyucu vasitələrlə təmin olunmaları da mühüm əhəmiyyətə malikdir. Bunlarla yanaşı, Prezident İlham Əliyevin müvafiq qərarları əsasında ölkəmizdə pandemiya şəraitində iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, eləcə də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 3,5 milyard manat vəsait ayrılıb, müxtəlif istiqamətlərdə dövlət dəstəyi mexanizmlərini özündə ehtiva edən çoxsaylı sənədlər imzalanıb.

Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını göstərən konkret faktlardır. 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfrans formatında keçirilən müşavirədə bu məsələlərə toxunan Azərbaycan Prezidenti "Əsas məqsədimiz koronavirusla apardığımız mübarizədə qalib gəlmək, bu vəziyyətdən az itkilərlə çıxmaq, iqtisadiyyata az ziyan vurmaqdır. Çünki biz açıq-aydın başa düşürük ki, bu məhdudlaşdırıcı tədbirlər iqtisadiyyata ziyandır. Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı. Ona görə bu məhdudlaşdırıcı addımlar atıldı. Biz, əlbəttə, bəri başdan bilirdik ki, bu, iqtisadi fəallığa mənfi təsir göstərə bilər, istər-istəməz müəyyən şayiələrin yayılmasına, iqtisadi sahədə müəyyən narahatlığa gətirib çıxara bilər. Biz bunu şüurlu şəkildə etdik ki, insanlarımızı, onların həyatını qoruyaq. Çünki bundan daha qiymətli heç nə yoxdur", - deyə vurğuladı. Məhz bu yanaşma bir daha Azərbaycan Prezidentinin öz vətəndaşlarına xidmət etməsinin, Azərbaycan dövlətinin öz vətəndaşlarını himayə etməsinin çox bariz göstəricisidir. Bir sözlə, Prezident İlham Əliyev hər zaman öz xalqının, xalq isə öz Prezidentinin yanındadır. Biz hər gün mətbuatda Azərbaycan Prezidentinə ünvanlanan çoxsaylı minnətdarlıq məktublarına rast gəlirik. Məktublarda əks olunmuş fikirlər bir daha onu göstərir ki, qədirbilən Azərbaycan xalqı Prezident İlham Əliyevin sosial siyasətini ürəkdən dəstəkləyir, Onun rəhbərliyi ilə həyata keçirilən tədbirləri yüksək qiymətləndirir. Başqa sözlə, xalq öz Prezidentini milli birliyin və həmrəyliyin simvolu kimi görür.

Deyilənlər bir daha onu göstərir ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir. Məhz bu ideyalar və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan səmərəli daxili və xarici siyasət kursu XXI əsrin ən uğurlu dövlətlərindən olan Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etməsini şərtləndirir. Tərəqqi yolunda əmin addımlarla irəliləyən Azərbaycanın gələcəyi barədə proqnozlar optimistdir və belə bir yanaşma əminliklə ifadə olunur: Heydər Əliyev siyasətini müvəffəqiyyətlə davam etdirərək rasional və praqmatik strateji kurs həyata keçirən cənab İlham Əliyev qətiyyətli lider, uzaqgörən siyasətçi və öz fəaliyyətində dövlətin maraqlarını, xalqın mənafeyini rəhbər tutan Prezident kimi ölkənin sabitlik adası kimi dayanıqlı inkişafına xidmət edən addımlarla Azərbaycanı rifah və tərəqqinin təmin olunduğu xoşbəxt gələcəyə aparır! Qarşıda böyük hədəflər dayanır. Əminliklə söyləmək olar ki, Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli maraqlara əsaslanan uğurlu siyasət növbəti tarixi mərhələdə qüdrətli Azərbaycanı müəyyən olunmuş hədəflərə çatdıran strateji vasitə olacaq!

***Əli ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi***

1923 **Azərbaycanın özü qədər əbədi** 2020

# Heydər Əliyev və Azərbaycanın müasir dünyada yeri

Əslində, Heydər Əliyevlə bağlı hər bir mövzu nə qədər əzizdirsə, nə qədər doğmadırsa, o qədər də məsuliyyətlidir. Çünki Azərbaycanda elə bir sahə yoxdur ki, onun misilsiz xidmətləri olmasın, çox hallarda da o, bu işlərin qurucusu və yaradıcısıdır. Eyni zamanda onunla bağlı hətta ən kiçik məsələ də böyükdür, çox əhəmiyyətli və qiymətlidir. Heydər Əliyev irsi bizim üçün və gələcək nəsillər üçün zəngin xəzinədir, Vətəninə, xalqına, dövlətinə xidmət nümunəsidir. Mən də belə bir böyük şəxsiyyətin zamanında yaşamağıma və onun məktəbindən dərs aldığıma görə özümü hədsiz dərəcədə xoşbəxt hiss edir, bu alın yazıma görə Yaradanıma sonsuz şükür edirəm.

Azərbaycan xalqı tarix boyu məşhur dövlət xadimləri yetişdirmiş xalqlardan olmaqla XX əsrdə dünya siyasətində həm Sovetlər Birliyində, həm də müstəqillik illərində çox tanınan siyasətçi və görkəmli dövlət adamı, müasir müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev kimi şəxsiyyət yetirən bir xalqdır. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün onun dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi istiqamətində dövlət siyasətinin formalaşdırılması böyük əhəmiyyət kəsb edir.

Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan özünün geosiyasi mövqeyini, ictimai-siyasi və mənəvi-psixoloji inkişaf xüsusiyyətlərini nəzərə alaraq mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermədən Qərb və Şərqin yaratdığı dəyərlərdən yaradıcılıqla və səmərəli şəkildə bəhrələnməyə, tarazlaşdırılmış çoxşaxəli xarici siyasət yeritməyə nail oldu. 1993-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə hansı şəraitdə hakimiyyətə gəlməsini nəzərə alsaq, Azərbaycanın çağdaş dünyada qazandığı yer və mövqenin hansı çətinliklər hesabına başa gəlməsi bir daha aydın olur.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri, daha doğrusu, avroatlantik strukturlara inteqrasiya və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və paralel olaraq Türkiyə ilə, müsəlman dünyası və ayrıca olaraq İranla, Asiya, Afrika və Cənubi Amerika ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan durumu yaradıldı. Yəni fərqi yoxdur, məqsəd həm çoxtərəfli və həm də ikitərəfli münasibətlərdə ən etibarlı tərəfdaş olmaq prinsipini həyata keçirmək idi.

Heydər Əliyev məhz bu reallıqları nəzərə alaraq, necə deyərlər, "yaxın qonşu uzaq qohumdan irəlidir" düşüncəsi ilə özünün ilk səfərlərindən birini Rusiyaya etdi. Bu səfər Azərbaycanın MDB-yə daxil olması ilə paralel hazırlandı. Çünki həm Rusiya ilə münasibətlər üçün, həm də MDB-yə daxil olan ölkələrlə Azərbaycanın münasibətləri, əlaqə və əməkdaşlığı üçün bu iş haqlı olaraq əhəmiyyətli sayılırdı. Heydər Əliyevin Rusiya Federasiyasının paytaxtı Moskvaya səfərləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ölkələrimiz arasındakı gərginliyi xeyli zəiflətdi, iki ölkə arasındakı münasibətlərə yeni keyfiyyət gətirdi.

Azərbaycan dövlətinin xarici siyasətinin çox vacib və əhəmiyyətli istiqamətlərindən biri də Amerika Birləşmiş Ştatları ilə münasibətlərdir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 18-də yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təqdim etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, daim müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında məşhur "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni və həm də dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməklə nəticələndi. Bu, çox əhəmiyyətli bəyanat idi. İndi irəli getmək, ölkəmizi, işlərimizi, məqsəd və məramımızı, düçar olduğumuz müsibətlərimizi Amerika ictimaiyyətinə çatdırmaq, əlaqələri daha da genişləndirmək üçün yeni səylər göstərmək tələb olunurdu. Heydər Əliyevin ABŞ-a səfərləri və onların uğurlu nəticələri bu böyük səylərin davamı kimi çox əhəmiyyətli oldu. Bu, Heydər Əliyev diplomatiyasının, Azərbaycanın düşünülmüş, əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasəti sayılırdı.

Azərbaycanın yeni xarici siyasət kursunda Avropanın böyük dövlətləri ilə münasibətlər məsələsi mühüm bir istiqamət təşkil edir. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt qısa bir müddətdə çevik taktiki gedişlərlə həyata keçirildi. Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu həmfikirlər əldə etməsi Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu.

Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilirdi. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və məhəlli təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi (MDB), GUAM, İslam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Azərbaycan yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur.

Heydər Əliyevin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarından biri də 2001-ci ilin əvvəlində tarixi əhəmiyyət daşıyan hadisə - Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə qovuşması oldu. Beləliklə də, müstəqilliyin ilk on ili ərzində Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi altında ən mürəkkəb və sərt maneələri dəf etdi, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşmasında qətiyyətli addım atıldı. Azərbaycan özünün gələcəyini Avropaya tam inteqrasiya ilə bağladı. Onu da qeyd etmək lazımdır ki, bu mühüm nailiyyət Azərbaycana başqa dövlətlərlə müqayisədə ikiqat, üçqat, bəlkə də daha ağır zəhmət və şərtlər bahasına başa gəldi. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi həm ölkəmiz üçün, həm də bu təşkilat üçün xüsusi əhəmiyyət kəsb edir.

Bu gün Ulu Öndər Heydər Əliyevin sağlam və güclü təməl üzərində, eyni zamanda daha uzaq və çoxşaxəli hədəflərə istiqamətlənmiş, geniş vizyonlu siyasətinin nəticəsidir ki, Prezident İlham Əliyev yeni neft strategiyasının məntiqi sonluğa yetişməsini uğurla təmin etmişdir. Cənab Prezident İtaliyanın nüfuzlu "RAI International" telekanalına müsahibəsində xüsusi qeyd etdiyi kimi, "Azərbaycanın enerji ehtiyatları artıq Avropa, dünya enerji bazarlarına çatdırılır və əlbəttə ki, Azərbaycan bunlardan yararlanır, iqtisadi inkişaf eyni zamanda bir çox sosial problemlərin həlli deməkdir və ölkənin regional mövqeləri əhəmiyyətli dərəcədə güclənmişdir".

Dövlət başçısı neft strategiyasında varisliyi inamla təmin edərək Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin praktik şəkildə gerçəkləşməsinə nail olub. Beləliklə, 2005-ci ildə əfsanədən həqiqətə çevrilən BTC neft kəməri müəllifi Heydər Əliyev olan və dünyaya səs salan "Əsrin müqaviləsi"nin qanunauyğun məntiqi nəticəsi idi. 2005-ci il mayın 25-də boru kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan hadisəyə çevrildi. Xəzər neftinin Ceyhan limanına çatdırılması, Ceyhandan isə dünya bazarlarına ünvanlanması həmişə çətin sınaqlardan böyük uğurla çıxmış, özünü təsdiqləmiş Heydər Əliyev siyasi kursunun real və parlaq qələbəsi kimi tarixə düşdü. Bu, sadəcə qələbə olmayıb, Heydər Əliyevin müdrik siyasətinin təntənəsi səviyyəsində ümumiləşən tarixi hadisə, müstəqil Azərbaycan dövlətinin taleyində xüsusi əhəmiyyət kəsb edən, ölkəmizin tarixində mühüm yeri olan misilsiz nailiyyət idi.

Bu gün dünyada baş verən müxtəlif proseslər - yeni müharibə ocaqlarının yaranması, ölkələr arasında enerji daşıyıcılarının nəqli sahəsində problemlərin və mübahisələrin yaşanması göstərir ki, ayrı-ayrı dövlətlər enerji təhlükəsizliyi üçün daha ciddi düşünməli, xüsusən alternativ nəql sistemlərinin yaradılması ilə mövcud ideyaların reallaşdırılması istiqamətində əməli hərəkətə keçməlidirlər.

Ötən dövrdə Azərbaycanın enerji siyasəti daha da zənginləşib və respublikamız dünyada təchizatçı kimi mövqeyini möhkəmləndirib. Azərbaycan bölgənin bir çox ölkəsinə yanacaq ehtiyatlarının nəqlini həyata keçirməklə diversifikasiya siyasətini gücləndirib. Belə ki, hazırda Azərbaycan nefti və qazı mövcud enerjidaşıyıcı sistemlərlə bütün istiqamətlərə nəql edilir. Lakin hazırkı imkanları genişləndirmək, şaxələndirmək və sayını artırmaq üçün də yaxşı potensial mövcuddur. Rəsmi Bakı neft-qaz təchizatı marşrutlarının şaxələndirilməsi ilə bağlı səslənən təklifləri hər zaman dəstəkləyib, bu sahədə müxtəlif layihələr üzərində düşünən Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfələr verməyə hazır olduğunu bəyan edib. Ona görə bir çox ölkələrin enerji təhlükəsizliyinin təminatına böyük töhfələr verən respublikamız buna görə də dünya birliyində etibarlı və strateji tərəfdaş kimi yerini möhkəmləndirib.

Azərbaycanın təşəbbüsü ilə BTC, Bakı-Supsa neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsindən sonra karbohidrogen ehtiyatlarının nəqli ilə bağlı regionda tamamilə yeni vəziyyət yarandı. Yəni Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başlandı ki, bu da Azərbaycanın enerji siyasətinin müstəqil olmasından xəbər verdi. Bu layihələrdən sonra Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri layihələrinin həyata keçirilməsi Avropa və dünyanın enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir. Bu gün Bakı-Tbilisi-Qars dəmiryolu kimi nəhəng nəqliyyat, logistik layihə ölkəmizi Asiya ilə Avropa, Şimal-Cənub arasında iqtisadi-siyasi-mədəni cəhətdən çox böyük əhəmiyyət kəsb edən nəqliyyat-kommunikasiya və s. transmilli layihələrin əsas oyunçusu və söz sahibi etmişdir. Bu mənada Azərbaycan gələcəkdə Asiya ölkələrinin geosiyasi, geoiqtisadi və sosiokultural maraqlarının, regional təhlükəsizliyinin təmin olunmasında birbaşa iştirak edəcəkdir. Çünki Azərbaycan Respublikası Şərq ilə Qərb, Şimal ilə Cənub arasında körpü rolunu oynamaq üçün lazımi imkanlara malikdir.

Əlbəttə, Azərbaycanın əlverişli geosiyasi mövqeyinin, multikultural müxtəlifliyin və çoxmədəniyyətliliyinin, yüksək insan potensialının və zəngin təbii ehtiyatlarının olmasına baxmayaraq, balanslı siyasət həyata keçirməsi heç də asan olmamışdır. Bütün bunlara baxmayaraq Ulu Öndərimiz özünün zəngin siyasi-diplomatik bilik və bacarığına, yüksək dövlət idarəçiliyi və uzaqgörənlik qabiliyyətinə istinad edərək elə bir dövlət siyasəti formalaşdırdı ki, bu siyasət ölkəmizin ildən-ilə müasir dünyada imicinin və mövqeyinin güclənməsinə zəmin yaratdı. Sözsüz ki, 2003-cü ildən başlayaraq dövlət siyasətinin əsas milli maraqlarımız olmaqla kürəsəl güclərin və kürəsəl siyasətin də maraq və prinsiplərinə uyğun şəkildə yüksək səviyyədə həyata keçirilməsi məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin misilsiz xidməti sayəsindədir.

Qeyd etmək lazımdır ki, möhtərəm Birinci vitse-prezidentimizin dünyada bir ilk olaraq həm ICESCO, həm də UNESKO-nun xoşməramlı səfiri kimi beynəlxalq aləmdəki fəaliyyəti, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sərhədlərimizdən çox uzaqlarda həyata keçirdiyi genişmiqyaslı sosial və humanitar layihələr ölkəmizin dünya birliyində nüfuzlu ölkələrdən birinə çevrilməsində müstəsna rola malikdir. Biz əminik ki, dövlətimizin əbədiyaşar Heydər Əliyev irsi üzərində bugünkü siyasəti Azərbaycanın müasir dünyada müsbət imicini, onun dünya birliyində yerini və mövqeyini bundan sonra daha da gücləndirəcəkdir.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru, YAP Siyasi Şurasının üzvü***



# Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın intibah salnaməsi

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycanın dövlətçiliyinin siyasi, iqtisadi əsasları yaradılmış, müstəqil Azərbaycan dünya məkanında öz layiqli yerini tutmuşdur. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsidir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuşdur.

Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, böyük istedada, parlaq zəkaya, ali mənəvi keyfiyyətlərə, yüksək siyasi idarəçilik və liderlik qabiliyyətinə, tükənməz enerjiyə malik Heydər Əliyevin sosial-iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

1969-cu ildə Heydər Əliyevin ölkəmizə rəhbərlik etməsi ilə başlanan şərəfli missiya sayəsində Azərbaycanın siyasi və iqtisadi inkişafının əsasları yaradılmışdır. Onun əsas qayəsi ölkəmizi ittifaq miqyasında əsas respublikalardan birinə çevirmək, həyata keçirilən inkişaf proqramlarını insanların sosial həyatına, iş yerlərinin və sənaye komplekslərinin yaradılmasına, təhsilə, səhiyyəyə, elm, mədəniyyət, incəsənət, idman sahələrinin dirçəlişinə nail olmaq idi. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparıldı, Azərbaycan sovet respublikaları arasında xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevrildi, sənaye və kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olundu, yeni sənaye sahələri yaradıldı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Mütərəqqi texnologiyaların istehsalata tətbiqi sayəsində Azərbaycan SSRİ-də qabaqcıl mövqeyə yiyələndi, istehsal olunan məhsulların keyfiyyəti yaxşılaşdı.

1969-1982-ci illərdə respublikamızın iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri baş verdi. Ulu Öndərin rəhbərliyi sənaye sahəsində dərin islahatlar aparmaqla respublikamızda sənayeləşmənin əsası qoyuldu. Sənaye iqtisadiyyatın əsas güc mərkəzinə çevrildi. Həyata keçirilən məqsədli dövlət proqramlarının icrası nəticəsində təkcə Azərbaycan üçün deyil, İttifaq respublikaları və xarici ölkələr üçün strateji əhəmiyyət kəsb edən iri sənaye obyektləri, Dərin Özüllər Zavodu, Bakı Məişət Kondisionerləri Zavodu, Cənubi Qafqazın ən iri Poladtökmə zavodu, Gəncədə Əlvan metallar zavodu, Ələtdə Ağac emalı kombinatı, Naxçıvanda və Sumqayıtda Şüşə zavodları və digər güclü sənaye müəssisələri yaradılaraq istifadəyə verildi. Əgər 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə, yəni cəmi 14 il ərzində onların sayı 1048-ə çatmışdı. O dövrdə Azərbaycanın sənaye müəssisələrində istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi. Bu, SSRİ miqyasında ən böyük iqtisadi hadisə idi. Respublikamızda neftmaşınqayırması və neftayırma sənayesinin yenidən qurulması həyata keçirildi ki, bu da müstəqillik dövründə yeni neft strategiyasının uğurla həyata keçirilməsində mühüm rol oynadı. Azərbaycanın neftmaşınqayırma sənayesinin yeni sahələri yaradıldı. Bunun nəticəsində 1975-ci ildə respublikada ümumi neft və qaz hasilatının həcmi 3 dəfəyə yaxın artaraq 27,1 milyon tona çatdı.

1982-ci il dekabrın ilk günlərində Azərbaycan və keçmiş SSRİ-nin siyasi tarixində mühüm əlamətdar hadisənin əsası qoyuldu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib. Heydər Əliyev həmişə qurub-yaratmaq, inkişaf etdirmək amalı ilə çalışmış və hansı vəzifədə olmasından asılı olmayaraq dövlət işlərinə sədaqətlə xidmət etmişdir. Onun təşəbbüskarlığı və gərgin əməyinin məhsulu olan Baykal-Amur magistralı, dəmir yolları, körpülər, yol və genişmiqyaslı nəqliyyat qovşaqları, infrastruktur layihələri, mühüm strateji dövlət obyektləri tikilib istifadəyə verilmişdir.

Müstəqilliyin ilk illəri Azərbaycan üçün ciddi sınaq dövrü olmuşdur. Müəssisələr arasında mövcud əlaqələrin pozulması, o dövrdəki siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-nin işğalı, 1 milyondan çox soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5% azalmışdı. Tənəzzül meyli sənayedə xüsusilə kəskin xarakter almış, 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1993-cü ildə 50%-ə qədər azalmışdı. 1991-ci ildən etibarən inflyasiya səviyyəsi dəfələrlə artaraq, 1994-cü ildə 1764%-ə çatmış, büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 13%-ə qədər olmuş, 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42% azalmışdır.

Yalnız Ümummilli Liderimiz Heydər Əliyev xalqın yekdil çağırışı ilə hakimiyyətə qayıtdıqdan sonra respublikamızda sabitlik təmin edildi, inkişafın bünövrəsi qoyuldu, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Azərbaycan Ulu Öndərin uzaqgörən siyasəti və qətiyyətli rəhbərliyi sayəsində parçalanma təhlükəsindən xilas olaraq yeni bir inkişaf dövrünə qədəm qoydu.

1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı və bununla da ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Neft müqavilələrinin imzalanması nəticəsində xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi təmin olundu, Azərbaycanın beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşularaq dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığı dərinləşdi. 1995-2003-cü illərdə iqtisadiyyatın əsas güc mənbəyi olan enerji resurslarının dünya bazarlarına çıxarılması və yüksək neft gəlirlərinin əldə olunması iqtisadi inkişafı təmin etdi.

Ulu Öndər Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi, Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu məqsədlə müəyyənləşdirilən ən uğurlu marşrut Bakı, Tbilisi və Ceyhanı birləşdirən boru kəmərinin çəkilməsi idi. Həmin dövrdə müxtəlif xarici qüvvələrin təxribatlarına və təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, Amerika Birləşmiş Ştatlarının dəstəyi nəticəsində, ən əsası isə Ulu Öndərin əzmkarlığı sayəsində bəzilərinin əfsanə hesab etdiyi layihə reallığa çevrildi.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu möhtəşəm inkişaf salnaməsi onun siyasi varisi, yeni güclü lider İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanın inkişaf piramidasının yeni obrazını yaratdı. 2003-cü ildən sonra inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycanın ötən 17 illik şanlı və zəngin tarixi bizim üçün qürur mənbəyidir. Ötən illər ərzində ölkəmiz sürətli iqtisadi tərəqqiyə çatıb, dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevrilib, ölkəmizin hər bir vətəndaşı layiqli və ləyaqətli sosial həyat, şəraitlə təmin olunmuşdur.

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən demokratik, hüquqi, dünyəvi dövlətin quruculuğu istiqamətində yorulmaq bilmədən inamla, inadla çalışmış, hər bir vətəndaşın rəhbəri olmaq üçün diqqət və qayğısını əsirgəməmiş, ölkəmizdə möhkəm tolerantlıq mühiti yaratmış, irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsini təmin etmişdir.

YAP Sədri, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir. Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft, Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Son illərdə reallaşdırılan ən mühüm layihələrdən olan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən, Prezident İlham Əliyevin "XXI əsrin layihəsi" adlandırdığı "Cənub qaz dəhlizi" layihəsi isə enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirməkdədir. Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başlanılması və istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı enerji-nəqliyyat sahəsində uğur dastanının şanlı səhifələridir.

Ölkəmizdə sosial-mədəni və humanitar layihələrin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyeva da müstəsna xidmətləri ilə seçilir. Belə ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçılarından biri kimi Mehriban xanımın xidmətləri xalqımız tərəfindən yüksək dəyərləndirilir. Məhz onun rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyev irsinin təbliği məqsədilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələri həyata keçirməklə yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir, xalqımızın humanist dəyərlərini beynəlxalq aləmdə yetərincə təbliğ edir.

2017-ci ilin fevralın 21-də Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan qətiyyətli islahatların daha da genişlənməsinə, ölkəmizin müasir iqtisadi-sosial həyatında mühüm mərhələnin başlanmasına səbəb oldu. Sosial proqramların əhatəliliyi və səmərəliliyi yüksəldi. Mehriban xanımın xüsusi diqqət və qayğısı sayəsində məcburi köçkünlərə, Qarabağ müharibəsi iştirakçılarına qayğı yüksəldi. Mehriban xanım Prezident İlham Əliyevin yazdığı uğur salnaməsinə öz zəngin dəstxətini əlavə edərək Azərbaycanın möhtəşəm quruculuğuna əvəzolunmaz töhfələrini verməkdədir. Birinci vitse-prezidentin regionlara səfərləri dövlətin vətəndaşlara olan humanizminin, səmimiyyətinin, yüksək diqqət və qayğısının ifadəsi kimi yadda qalır. Onu hər bölgədə, şəhər və rayonda böyük coşqu, sevinc hissi və məhəbbətlə qarşılayırlar. Azərbaycanın Birinci vitse-prezidenti fəaliyyətinin son 3 ili ərzində çoxsaylı müvəffəqiyyətlərə nail olubdur. Ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında öz töhfəsini verməkdədir.

Beynəlxalq ictimaiyyət tərəfindən Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlara ən yüksək qiymət verildi. Dünya Bankının 2019-cu və 2020-ci illərə dair "Doing Business" hesabatlarında Azərbaycan dünyada ən islahatçı ölkələrdən biri elan edildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan struktur islahatları 2020-ci ilin əvvəllərindən yeni bir mərhələyə keçid alıb. İdarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdən ibarət olan bu islahatlar Azərbaycanın intibahını dərinləşdirməkdədir.

Bu gün pandemiya səbəbindən dünyanı bürüyən qlobal böhran dünya iqtisadiyyatına da ağır zərbələr vurmaqdadır. Beynəlxalq təşkilatların qənaətinə görə, hazırda yaşanan ağır iqtisadi böhran 2008-2009-cu illərin böhranından da sarsıdıcıdır. Qlobal böhran Azərbaycan iqtisadiyyatına və insanların gündəlik sosial-iqtisadi həyatına təsir göstərsə də, Prezident İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti sayəsində ölkəmiz bu böhrana qarşı öz mükəmməl proqramını ortaya qoyaraq zərərlərin həm ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, həm də məşğulluğa və sosial sahələrə təsirlərini minimallaşdırmaqdadır. Azərbaycan hökumətinin həyata keçirdiyi dəstək proqramları həm mövcud qlobal təsirlərin qarşısını alır, həm də postpandemiya dövründə dayanıqlı inkişaf üçün güclü zəmin yaradır.

***Aydın HÜSEYNOV,***
***YAP Siyasi Şurasının üzvü, partiyanın Qaradağ Rayon Təşkilatının sədri, Milli Məclisin deputatı***

1923 **Azərbaycanın özü qədər əbədi** 2020

# Azərbaycan sahibkarlığının banisi

Azərbaycan tarixinin bütöv bir mərhələsi XX əsrin böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin adı xalqın simvoluna, əməlləri isə hünər rəmzinə çevrilmişdir, həyat və fəaliyyəti doğma xalqa və torpağa məhəbbət və sədaqət meyarı olmuşdur.

Dövlətçilik ənənələrinin və demokratik cəmiyyətin bərqərar olmasında şəxsiyyətin rolu böyükdür. Bütövlükdə, bir sistem kimi yanaşıldıqda, cəmiyyətin digəri ilə əvəzlənməsi prosesi mürəkkəb və ziddiyyətli tərəfləri ilə seçilən sosial hadisədir.

Ümummilli Lider Heydər Əliyev özünün böyük həyat təcrübəsinə, nüfuzuna, iradəsinə, ən mürəkkəb situasiyalarda dəqiq qərarlar çıxarmaq bacarığına görə demokratik cəmiyyətə keçid mexanizmini müəyyənləşdirərək, bu istiqamətdə ardıcıl və sistemli siyasət həyata keçirdi. Əslində bu danılmaz həqiqət kiminsə istəyib-istəməməsindən və yaxud siyasi mənsubiyyətindən asılı deyil, Azərbaycan reallıqlarında gedən proseslərin məntiqindən irəli gəlir. Azərbaycanın ən yeni tarixinə nəzər salsaq, bir daha aydın olar ki, onun hər bir məqamı Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə qırılmaz şəkildə bağlıdır.

Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdaraq növbəti dəfə xilaskarlıq missiyasını üzərinə götürüb doğma xalqının köməyinə gəldi. Əgər 1969-cu ildə onun birinci gəlişi Azərbaycana dirçəliş və çiçəklənmə gətirdisə, 1993-cü ildə ikinci dəfə gəlişi Milli Qurtuluş günü oldu.

Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb, dirçəliş, ardınca isə inkişaf yoluna çıxarmaq idi. Bu, Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın inkişaf modeli idi. Təsadüfi deyildir ki, Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur.

Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək əslində gələcəyin təməlini qoymuş oldu.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni, iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

On illik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi. Heydər Əliyev hakimiyyətə praqmatik və balanslaşdırılmış xarici siyasət kursu ilə gəlmişdi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı. Qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını, intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.



Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla, sahibkarlığın inkişafına güclü təkan verir.

Ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, habelə cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür.

Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuş, qəbul olunan dövlət proqramlarının icrası, həyata keçirilən kompleks islahatlar ölkəmizdə sabitliyi və davamlı inkişafı təmin etmişdir. Əhalinin həyat səviyyəsi yüksəlib, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların tarazlı inkişafına nail olunmuş, sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açılmışdır.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Davamlı olaraq həyata keçirilən kompleks islahatlar, inzibati prosedurların sadələşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması tədbirləri və institusional dəstək mexanizmlərinin tətbiqi sahibkarlığın inkişafını daha da sürətləndirmişdir. Həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ölkəmizin rəqabətqabiliyyətli məhsul istehsalı imkanları genişlənir, özəl bölmənin ümumi daxili məhsulda və məşğulluqda xüsusi çəkisi artır.

Həyata keçirilmiş islahatlar və tədbirlər fonunda təsadüfi deyildir ki, biznes mühitini qiymətləndirən ən önəmli hesabatlardan biri olan Dünya Bankının "Doing Business" hesabatlarında son illərdə ölkəmizdə reallaşan islahatlar daima dəyərləndirilərək, nümunəvi islahatlar kimi nəzərə alınır. Belə ki, ölkəmiz 2020-ci il üçün dərc olunan hesabatda 20 ən islahatçı ölkənin sırasında yer almışdır.

Son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bunu bir neçə mötəbər beynəlxalq təşkilatlar da öz hesabatlarında qeyd etmişlər. Bu yaxınlarda məşhur "Heritage" Fondunun tərtib etdiyi iqtisadi azadlıqlarla bağlı reytinq cədvəlində Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə bir il ərzində 19 pillə qalxaraq dünyada 44-cü yerdə qərarlaşmışdır.

Məlum olduğu kimi, cari ildə bütün bəşəriyyət görünməz bir düşmən olan koronavirus pandemiyasına qarşı mübarizə aparır. Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atılmış, bu istiqamətdə ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək dünyada öz fəal rolunu oynamışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşmüş və ölkəmiz pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilmişdir.

Daha bir qlobal təşəbbüsünü reallaşdıran Prezident İlham Əliyev bu dəfə 120 üzv dövləti və 17 müşahidəçi ölkəni, eyni zamanda, 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının Zirvə görüşündə koronavirus bəlasından çıxış yolunu göstərməklə yanaşı, bu istiqamətdə reallaşdırdığı proqramların effektiv nəticələrini də bölüşdü.

Bu Zirvə görüşündən sonra 2022-ci ilədək Qoşulmama Hərəkatına rəhbərliyi Azərbaycan həyata keçirməklə, bu dövrdə hərəkatın sədri Prezident İlham Əliyev olacaqdır.

Prezidentin təşəbbüsü ilə təsis edilmiş Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələrin köçürülməsi və işçilərin ixtisar olunmaması ilə bağlı çağırışlara sahibkarlar da qoşularaq cəmiyyətdə yüksək həmrəylik nümayiş etdirmişlər.

Modernləşmə kursunu həyata keçirən Azərbaycan Respublikasında iqtisadi və sosial tərəqqiyə yönəlmiş dövlət siyasəti öz bəhrəsini verməkdədir. Təsadüfü deyil ki, koronavirus pandemiyasının təsirindən yaranmış dərin maliyyə böhranı bir sıra ölkələrdə iqtisadiyyatın tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardığı bir vaxtda ölkəmiz qlobal böhrandan az itkilərlə çıxmağa çalışaraq sosial-iqtisadi inkişaf, vətəndaşlarımızın rifah halının yüksəldilməsi tədbirlərini ardıcıl davam etdirir.

Belə bir çətin şəraitdə Azərbaycan hökuməti ölkə sahibkarları üçün dəstək mexanizmlərini işə salmış, pandemiyadan zərər çəkən iqtisadi fəaliyyət sahələrinə Vergi Məcəlləsində güzəştlər nəzərdə tutulmuşdur. Qanunda həmin sahələrin adı verilməklə, karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması dövründə yeni fəaliyyət sahələri əlavə edilərsə, onların da bu güzəştlərdən faydalanması nəzərdə tutulmuşdur.

Qanun layihəsinə əsasən, pandemiyadan zərər çəkən sahibkarlıq subyektləri 2020-ci il üzrə əmlak və torpaq vergisindən azad edilir. Həmin sahibkarlara 2020-ci ilin nəticələrinə görə, mənfəətdən 75 faizlik güzəştin verilməsi nəzərdə tutulur. Mənfəət vergisi ödəyicilərinin 2019-cu ilin nəticələrinə görə mənfəət vergilərinin də ödənilməsi martın 31-dən sentyabrın 1-dək təxirə salınır.

Mikrosahibkarlar xüsusi həssas kateqoriyaya aid olduğu üçün hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bu gün onlar üçün Vergi Məcəlləsində mövcud olan 2 faizlik sadələşdirilmiş verginin dərəcəsi bu il 1 faizə endirilir.

Sadələşdirilmiş verginin xüsusi növləri olan, məsələn, ictimai iaşə obyektləri üzrə sadələşdirilmiş vergi 8 faizdən 4 faizə, sərnişindaşıma sahəsində fəaliyyət göstərən sahibkar üçün isə nəqliyyat vasitəsində oturacaqların sayına görə müəyyən olunan sadələşdirilmiş verginin dərəcəsinin 50 faiz aşağı salınması nəzərdə tutulur. Bütün sahibkarlıq subyektlərində fiziki şəxslərdən icarəyə götürülən daşınmaz əmlaka görə mənbədən tutulan 14 faizlik vergi 7 faizə endirilir.

Aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin uğurla icra olunması Azərbaycanı dünyada güclü və demokratik dövlət, nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 2 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmış, ümumilikdə isə müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya qoyulmuşdur.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

2020-ci ilin aprelin 14-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur.

İclasda bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli sərəncamı ilə pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər əsasında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ilkin olaraq bir milyard manat vəsait ayrılıb və artıq bu vəsaitin maliyyələşdirilməsi başlanılıb. Dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3,5 milyard manatdan artıq olmuşdur.

Ümumiyyətlə, 2019-cu ildə qəbul edilmiş qərarlar və həyata keçirilən islahatlar qısa müddət ərzində öz nəticələrini vermiş, 2020-ci ilin birinci rübündə iqtisadiyyatın qeyri-neft sektoru 3 faiz, qeyri-neft sənayemizin artımı 23 faiz səviyyəsində olmuş, kənd təsərrüfatı 3,7 faiz artmışdır. Bütün çətinliklərə baxmayaraq, birinci rübdə qeyri-neft ümumi daxili məhsulunun 3,5 faiz səviyyəsində artımına nail olunmuşdur.

Azərbaycanda sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Bu ilin fevralın 3-də regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bir daha bu uğurları dəyərləndirdi. Dövlət proqramının icrasının təmin edildiyini vurğulayan dövlət başçısı son 16 il ərzində Azərbaycan iqtisadiyyatının dünya miqyasında yüksək templərlə inkişaf etdiyini, bu dövrdə ümumi daxili məhsulun 3,2 dəfə artdığını və dünya miqyasında rekord göstərici kimi qəbul edildiyini qeyd etmişdir.

Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olunmuşdur. Nəzərə almalıyıq ki, kənd təsərrüfatında ölkə üzrə Ümumi Daxili Məhsulun 5,6 faizi istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaratmışdır.

Ötən ildə qeyri-neft sektorunda Ümumi Daxili Məhsulun 3,5 faiz, qeyri-neft sənayesinin isə 14,3 faiz artmasında regionların da böyük rolu olmuşdur, Regionların sosial-iqtisadi inkişafının IV Dövlət Proqramı çərçivəsində bölgələrin inkişafına 7,2 milyard manat vəsait yönəldilmişdir.

Ümumilikdə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına indiyədək investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 165 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və digər xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarlığın inkişafı, iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu təsirləri zərərsizləşdirmək isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək layiqincə həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılmasının qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən də yüksək qiymətləndirilir.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında keçirilmiş bir sıra tədbirlərdə Azərbaycan Sahibkarlar Konfederasiyanın nümayəndələri də iştirak etmiş, bu tədbirlərdə kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm və digər sahələr üzrə müzakirələrdə fəal iştirak etmişlər.

Konfederasiya üzvləri inanırlar ki, bu tədbirlər zamanı tərəfdaşlarla bağlanmış müqavilələr Azərbaycan sahibkarlarına münbit şərait yaratmaqla ölkələrin iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq, vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparılır.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

İqtisadiyyat nazirliyinin təşkilatçılığı ilə sahibkarların və istehlakçıların maariflənirilməsi məqsədilə ötən il Bakıda və regionlarda 7 konfrans və "dəyirmi masa" təşkil edilib, ticarət qaydalarına əməl olunması ilə bağlı 8 maarifləndirici məlumat 560 mindən artıq elektron ünvana göndərilib, istehlakçı hüquqlarına dair 10 adda 13 mindən artıq buklet və yaddaş kitabçası paylanılıb. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərdə yaxından iştirak etmiş, tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabər hüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Cari ilin mart ayında Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2020-2022-ci illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında köməklik göstərir.

11 beynəlxalq sərgilərdə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir. Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə 5 "Azərbaycan Ticarət Evi" açılmış, ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaslı işlər aparır.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, İlham Əliyev xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıra biləcək. Ulu Öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 17 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuşdur və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Bütün yuxarıda göstərilənləri təhlil edərək belə bir məntiqi nəticəyə gəlmək olar ki, Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir.

Heydər Əliyevin zəngin irsinə nəzər salarkən məlum olur ki, onun ölkə üçün gördüyü nəhəng işləri, dəyərli və əzəmətli ideyalarının həyata keçirilməsini hər kəs öz sahəsində hiss edir, bunun təzahürünü daha aydın və dərindən dərk edir. Hər kəs bir həqiqəti qəbul edir ki, Azərbaycanın müstəqillik illəri ərzində həyatımızın bütün sahələrində əldə olunmuş uğurlar məhz Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Tarixdə nadir şəxsiyyətlərdən biri kimi iz qoyan Ümummilli Liderin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, əsrlər boyu bu mövzuya müraciət olunacaq və onun zəngin irsi həmişə dərin, əhatəli, ətraflı elmi əsaslarla öyrənilərək gələcək nəsillərə çatdırılacaqdır. Ulu Öndər qısa müddətdə Azərbaycan xalqının, Azərbaycan torpağının adını bütün dünyada uca zirvələrə qaldırmış və özünün şəxsiyyət bütövlüyü ilə doğma vətəni Azərbaycanı bütövləşdirmiş və hər yerdə onu layiqincə təmsil etmişdir.

Heydər Əliyevin gələcək üçün nəzərdə tutduğu iqtisadi ideyalar və arzular artıq gerçəkliyə çevrilmiş, bütün mənalı həyatını öz xalqına bəxş etmiş dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ necə-necə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqlar.

Buna görə də əminliklə deyə bilərik ki, istər çağdaş Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyevin adı müstəqil və suveren dövlətin banisi, dahi siyasətçi, misilsiz şəxsiyyət, cəsur insan, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi və əbədiyaşarlıq hüququ qazanmış ən böyük vətəndaş - azərbaycanlı kimi əbədi həkk olunub, əsrlər boyu qalacaq və hər zaman dərin hörmətlə, ehtiramla anılacaqdır.

Heydər Əliyevin həmişəyaşar ideyalarına sadiqlik nümayiş etdirən sahibkarlarımız və biz Sahibkarlar Konfederasiyası olaraq Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində səlahiyyətlərimiz daxilində əlimizdən gələni əsirgəməyəcəyik.

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Dövlət Təhlükəsizliyi Xidməti İmişli rayonunda keçirdiyi əməliyyat-istintaq tədbirləri barədə məlumat yayıb

Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırma tədbirləri davam etdirilməkdədir.

Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, toplanılmış materiallar üzrə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyevin icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin bir hissəsini sosial yardım adı altında ələ keçirilməsini, eləcə də ölkə ərazisində xüsusi karantin rejiminin tələblərinin pozulması ilə sərbəst hərəkət etmək üçün bəzi vətəndaşlara saxta arayışların verilməsini tapşırmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə mənimsənilən pul vəsaitlərini sahibliyində olan yaşayış evində qəbul etdiyinə əsaslı şübhələr müəyyən olunub.

Mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Vilyam Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Müvafiq ünvanlarda keçirilmiş baxış zamanı Vilyam Hacıyevin rayon icra hakimiyyətinin baş mühasibi Cəmil Musayev və başqaları vasitəsilə qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, habelə ayrı-ayrı valyutalarda xüsusi qaydada qablaşdırılaraq saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkarlanaraq götürülüb.

İstintaq araşdırmaları zamanı sosial-məişət şəraitinin aşağı olması ilə bağlı mənzil növbəsində olan şəxslərə İmişli şəhərində dövlət büdcəsi vəsaiti hesabına inşa edilmiş çoxmənzilli yaşayış binasında növbəli qaydada verilməli olan mənzillərin Vilyam Hacıyev tərəfindən rüşvət müqabilində qanunazidd qaydada verilməsinə əsaslı şübhələr müəyyən edilib.

Eyni zamanda, işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Vilyam Hacıyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə olunub.

Həmçinin Vilyam Hacıyevin rayon ərazisində təmir-tikinti, abadlıq işlərinə, habelə İmişli Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının tikintisinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin müntəzəm nağdlaşdıraraq mənimsəməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Vilyam Hacıyevin tabeçiliyində olan vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına dair məlumatlar əldə olunub.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Vilyam Hacıyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, təkrar rüşvət alma, vəzifə saxtakarlığı faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# DSMF-nin Cəlilabad rayon şöbəsinin baş mühasibi vətəndaşlardan rüşvət tələb etməkdə şübhəli bilinərək cinayət məsuliyyətinə cəlb olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən kompleks islahatlar çərçivəsində son illər sosial müdafiə sisteminin əhatəliliyi və səmərəliliyi daha da artırılıb, sosial siyasətin başlıca istiqamətlərindən biri kimi əhalinin sosial təminatı sahəsində idarəetmənin təkmilləşdirilməsində, ünvanlılığın və şəffaflığın təmin olunmasında əhəmiyyətli irəliləyişlər əldə edilib.

Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək mənfi amillərə, geniş əhali kateqoriyasına görə sosial-müdafiə sferasının mühüm komponentlərindən olan əmək və pensiya təminatı sistemində baş verə biləcək sui-istifadə hallarına və vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş qanunsuz hərəkətlərə yol verən vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Cəlilabad rayon şöbəsində vətəndaşlardan dövlət sosial yardım və pensiya təyin olunması müqabilində rüşvət tələb edilməsi barədə daxil olmuş əməliyyat məlumatı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində DSMF-nin Cəlilabad rayon şöbəsinin baş mühasibi Pərviz İsgəndərovun müxtəlif vaxtlarda rayon sakinlərindən ünvanlı dövlət sosial yardım və pensiya təyin olunması müqabilində 3700 manat məbləğində pul tələb etməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb.

Həmin cinayət əməlinin Pərviz İsgəndərov tərəfindən törədilməsinə şübhələr üçün əsaslar müəyyən edildiyindən o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda cinayət işi üzrə qeyd edilən qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycanda koronavirusa daha 77 nəfər yoluxub, 15 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 77 yoluxma faktı qeydə alınıb, 15 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 2204 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 1551 nəfər müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 625 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 25 nəfərin vəziyyəti ağır, 33 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 175.910 test aparılıb.

# Ermənistan silahlı qüvvələri atəşkəsi pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Karantin rejimi dövründə əmək müqaviləsinə xitam verilmiş 700-dən çox işçinin yenidən işə bərpası təmin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti karantin dövründə əmək müqaviləsinə xitam verilmiş 700-dən çox işçinin yenidən işinə bərpasını təmin edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Əmək Müfəttişliyi Xidməti xüsusi karantin rejimi dövründə iş yerlərinin qorunması və işçilərin əsassız yerə işdən çıxarılmasının qarşısının alınması məqsədilə "Əmək müqaviləsi bildirişi" altsistemi üzərindən gündəlik nəzarət həyata keçirir.

Nəzarət tədbirləri çərçivəsində sistemə əmək müqaviləsinə xitam verilməsi ilə bağlı bildiriş daxil edən işəgötürənlərlə əlaqə saxlanılır. Xitam səbəbləri dəqiqləşdirilir, xitam qanunvericiliyə uyğun olmadıqda, həmin işçilərin işə bərpası təmin edilir.

Eyni zamanda, ciddi səbəblər olmayan xitam halları ilə əlaqədar müvafiq işəgötürənlərlə sosial dialoq qurulur. Sosial məsuliyyət prinsiplərinin yüksək tutulması, karantin dövründə məşğulluq məsələlərinə həssaslıqla yanaşılması ilə bağlı onlara tövsiyələr verilir.

Bu sahədə işəgötürənlərlə artıq müsbət əməkdaşlıq təcrübəsi mövcuddur. Xüsusilə hazırkı şəraitdə məşğulluq məsələlərinin həllində sosial həmrəylik təşəbbüslərini dəstəkləyən işəgötürənlər tərəfindən bu tövsiyələr də nəzərə alınır.


## Samux Rayon İcra Hakimiyyətinin Samux Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi Samux şəhəri daxilində yol və küçələrin təmiri məqsədilə

***açıq tender elan edir***

LOT 1 - Samux şəhəri daxilində yol və küçələrin təmiri

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımimaliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT1 - 100AZN**
**Kapital Bankın Samux filialı**
**Kodu: 200855**
**VÖEN: 9900003611**
**MH: AZ37NABZ01350100000000001944**
**SWIFT: BIKAIIBAZ2X**
**Samux şəhər İƏD-si üzrə nümayəndəlik**
**İBAN HHAZ64AIIB32051019448500201185**
**VÖEN: 6900128551**
**Büdcə səviyyəsinin kodu**
**Büdcə Təsnifatının kodu 142330**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haq-qında son 1 maliyə ili nəzərdə tutulan arayış;
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanından arayış;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının fəaliyyəti haqqında vergi orqanları tərəfindən son 1 maliyə ili nəzərdə tutulmaqla təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının rəsmi blankında təqdim olunmuş bank rekvizitləri və ünvanı;
- qeydiyyatdan keçdiyi ölkə (reyestrdən çıxarış);
- nizamnamə;
- iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensialı haqqında məlumat, maddi-texniki bazası, o cümlədən maşın, mexanizm və digər texnikaların mövcudluğu haqqında məlumat;
- lisenziya;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- təklifin dəyərinin 1 faizi həcmində bank sənədi (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **03 iyun 2020-ci il saat 16:35-ə** qədər, tender təklifi və bank zəmanətini **11 iyun 2020-ci il saat 16:35-ə** qədər Portala təqdim etməlidirlər.

Tender proseduru **12 iyun 2020-ci il saat 16:35-də etender.gov.az** elektron Portalındakeçiriləcəkdir.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***




## ŞUŞANIN İŞĞALINDAN 28 İL ÖTÜR



# Taleyi dumanlı Şuşa...

Azərbaycanımızın hər guşəsi özünün əsrarəngiz təbiəti, səfalı havası, zəngin mədəni irsi ilə özümüzdən çox özgələrinin gözlərini qamaşdırıb, nəfislərinin və tamahlarının qurbanına çevrilib. Şuşa isə bir özgə libasa bürünüb ilin bütün fəsillərində, qonaq-qaralı olub. Bir dəfə Şuşaya yolu düşən bu zirvələr səltənətinə həmişə qanad açıb...




Mədəniyyət, o cümlədən musiqi beşiyi olan Şuşa dünyaya korifey sənətkarlar yetirməyi ilə də tanınıb və sevilib. Bu qədim Azərbaycan şəhərindən kimlər gəlib keçməyib: dost da, düşmən də, səyyah da, musiqişünas da, etnoqraf da... Hər kəs öz qəlbinin gözü ilə bu şəhərə göz yetirib, qiymət verib. Azərbaycan musiqisinin beşiyi, iyirminci yüzilliyin əvvəllərindən "Qafqazın konservatoriyası" adlandırılan Şuşa sözün əsl mənasında könül guşəsi idi. 1925-ci ildə Bakıda Cabbar Qaryağdıoğlunu dinləyən məşhur rus şairi Sergey Yesenin heyranlıqla deyib: "Əbəs yerə demirlər ki, əgər oxumursansa, deməli, şuşalı deyilsən".

...Şuşa Qarabağın zirvə tacı idi. Onu çirkin niyyətli daşnaklar ələ keçirmək üçün minbir hiyləyə əl atdı, yüz il boyunca tələ qurdu. Təəssüf ki, 1992-ci il may ayının 8-də Şuşa erməni vandallarının əlinə keçdi.

Şuşa Azərbaycana söz və muğam ustaları, mədəniyyət xadimləri, bəstəkarlar, musiqiçilər bəxş edib. Onun işğalı ilə mədəniyyətimizə, bu şəhərlə bağlı zəngin irsimizə ağır zərbə vurulub. Şuşada çoxlu sayda tarixi-mədəni abidələrimiz, mədəniyyət ocaqlarımız məhv edilib. Nə yaxşı ki, o ağır günlərdə Xalça muzeyinin Şuşa filialında saxlanılan 300-ə qədər nadir xalça böyük çətinliklə olsa da, şəhərdən çıxarılaraq Bakıya gətirilib.

Şuşanın 7 uşaq musiqi məktəbi, 1 uşaq incəsənət məktəbi, rəsm qalereyası, 3 mədəniyyət evi, 20 kitabxanası, 2 klubu, 1 mərkəzləşmiş kitabxana sistemi və onun 12 filialı fəaliyyətini davam etdirir. Şuşalı incəsənət ustaları, yaradıcı gənclər Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi bütün festival və müsabiqələrə, həmçinin beynəlxalq mədəni tədbirlərə qatılır. Şuşanın tarixi abidələrini əks etdirən rəsmlərdən ibarət sərgilər təşkil olunur. Şuşa Dövlət Rəsm Qalereyası öz fəaliyyətini davam etdirir. Qalereyada rayonun təbiət mənzərələrinin rəsmləri və tarixi abidələrin işğala qədər olan vəziyyətini əks etdirən fotolar nümayiş olunur.

Şuşa şəhərinin tarixi qədim dövrlərə gedib çıxır. Bildiyimiz kimi, məşhur Şuşa qalasının əsası 1750-ci ildə birinci Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. Qalanın tikilməsinin 270 illiyi bu il tamam olur. Pənahəli xan mədəniyyətə, şəhərsalma işlərinə böyük diqqət ayırırmış. Sarayda həmin dövrün tanınmış simaları xidmət göstərib. Ərdəbil şəhərindən Şuşaya gəlmiş memar Kərbəlayi Səfixan Qarabaği buradakı tarixi binaların, yolların salınmasında iştirak edib. Şəhərin küçələri bülöv daşları ilə örtülmüşdü. Burada 17 məhəllə salınmışdı ki, hər birinin öz hamamı, məscidi, bulağı, təndirxanası var idi.

XIX əsrin ikinci yarısından böyük musiqi mərkəzinə çevrilmiş Şuşa öz məlahətli səsləri və böyük sənətləri ilə tanınan Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov kimi məşhur xanəndələr yetirib Azərbaycana. Burada xanəndəlik sənəti ilə bağlı Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov kimi gözəl tar, kamança ifaçıları da yetişib.

Bütün bunlar hələ hamısı deyil. Şuşa, eyni zamanda bir çox peşəkar bəstəkarların da vətənidir. O, Azərbaycan mədəniyyətinə Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Süleyman Ələsgərov kimi ölməz sənətkarlar bəxş edib.

Ümumiyyətlə, on doqquzuncu yüzillik Şuşada ədəbi mühitin də qızıl dövrü olub: böyük şairə Xurşudbanu Natəvan, rəssam, tarixçi, şair Mir Möhsün Nəvvab, sonralar Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi yazıçı-dramaturqlar da məhz bu şəhərdə yetişib. Bütün bu faktlar bir daha əsas verir deyəsən ki, Şuşa mühitində formalaşan parlaq şəxsiyyətlər Azərbaycan mədəniyyətinin inkişafında öz imzalarını qoyaraq, ona dünya şöhrəti gətiriblər.

Şuşa tarixi tikililəri, memarlıq nümunələri, istirahət mərkəzləri ilə mühüm turizm zonası kimi də məşhur idi. Buradakı kurort və sanatoriyalara dünyanın müxtəlif ölkələrindən turistlər gəlirdi.

...Acı təəssüflə onu da qeyd etməyə məcburuq ki, 1992-ci il may ayının 8-dən Azərbaycanın bu dilbər guşəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. 28 ildir Şuşanın dağlarının başını nisgil dolu, qüssə-kədərə bürünmüş duman-çən basıb. Şuşalılar doğma el-obasından didərgin düşərək respublikanın 50-dək şəhər və rayonunda məskunlaşıb.

289 kvadrat kilometr ərazisi olan Şuşada həmin dövrdə 25 min nəfərədək əhali yaşayırdı. Şuşanın işğalı zamanı şuşalılar 200-ə yaxın şəhid verib, 150 nəfər isə əlilə çevrilib. Əsir götürülmüş 68 şuşalının taleyi bilinməz qalıb. 552 körpəsi yetim qalan şuşalıların 22 min nəfəri öz yurdundan didərgin düşüb.

Şəhərin kənarında dərin Daşaltı dərəsinin yaxınlığında yerləşən Cıdır düzü xüsusilə məşhurdur. Cıdır düzündən bir qədər aşağıda qırx pilləkən deyilən dik pilləli yol Daşaltı çayına aparır. "Xəzinə qala" mağarası da orada yerləşirdi.

Şuşada ilk tamaşa isə 1848-ci ildə səhnələşdirilib. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında Məcnunun Leylinin qəbri üstündə səhnəsini musiqili tamaşa kimi 1897-ci ildə Şuşada Cabbar Qaryağdıoğlunun iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyev qoyub.

Şuşanı məşhurlaşdıran qədim memarlıq və incəsənət abidələrini sadalamaqla qurtarmaz. Burada təkcə rəsmi qeydə alınmış 170 memarlıq və 160 incəsənət abidəsi, Xurşudbanu Natəvanın, artilleriya generalı, Port-Artur qalasının qəhrəmancasına müdafiəsinin iştirakçısı olmuş Səməd bəy Mehmandarovun, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin, görkəmli müğənni Bülbülün, şair və rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahim xanın və onun qızı Böyükxanımın qəsrləri, "Gəncə darvazaları", qala divarı və s. var idi. Güllələnmiş heykəllər isə xalqımızın mədəniyyətinə və mənəviyyatına ermənilər tərəfindən vurulan mənəvi zərbə, qiyamətə qalan qisas və göz dağıdır...

BMT Təhlükəsizlik Şurasının işğal olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə məlum 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli qətnaməsi, habelə AŞPA-nın Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı qüvvələr tərəfindən idarə olunmasını təsdiq edən 1416 saylı qətnamə və 1690 saylı tövsiyənin qəbul edilməsinə baxmayaraq, Ermənistan işğal olunmuş torpaqları, o cümlədən Şuşanı azad etmir, dünya birliyi isə hələ də susur...

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# "Uşaq Qaynar Xətti"nə son 1 ayda 756 zəng daxil olub

"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti aprel ayının nəticələri ilə bağlı statistikanı açıqlayıb. Məlumata görə, bu ilin aprel ayında mərkəzə 756 zəng daxil olub. "Azercell Telekom" MMC-nin mətbuat xidmətindən bildiriblər ki, şirkət tərəfindən yaradılan və dəstəklənən bu xidmətə daxil olan zənglərin əksəriyyəti - 423 müraciət təhsillə əlaqədardır. Uşaq Qaynar Xəttinə sosial məsələlərlə bağlı 98, səhiyyə ilə bağlı 66, psixoloji problemlərlə bağlı 51, hüquqi prosedurlarla əlaqəli 44 müraciət daxil olub. Daha 74 müraciət isə bu kateqoriyalara aid edilməyən fərqli məsələlərə dair olub. Müraciətlərin 665-i ilkin, 91-i isə təkrarən daxil olub. Zəng edənlər arasında qızlar nisbətən üstünlük təşkil edir - müraciət edənlərin 425-i qızlar, 326-sı oğlanlar olub. 5 şikayət sms üzərindən qeydə alındığından müraciətçilərin cinsləri müəyyən olunmayıb. Uşaqlar üçün Qaynar Xəttə müraciət edənlərin təxminən 85 faizi yaşı 18-dən yuxarı şəxslər olub.




Ölkəmizdə COVID-19 virusunun yayılmasının önlənməsi məqsədilə karantin rejimi tətbiq olunduğundan, "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin əməkdaşları fəaliyyətlərini evdən davam etdiriblər. Qaynar Xətt xidmətinin 116111 qısa nömrəsi mobil telefona yönləndirilib və müraciətlər 7/24 saat mütəmadi olaraq operatorlar tərəfindən cavablandırılıb. Ay ərzində mərkəzin mobil nömrələrinə 712, şəhər telefonuna 18 zəng daxil olub, 26 müraciət isə SMS vasitəsilə qeydə alınıb.

Aprel ayı boyu karantin rejiminin davam etməsinə baxmayaraq, mərkəz əməkdaşları 6 ailəyə baş çəkiblər. Ziyarət zamanı ailədəki uşaqlarla tanış olublar, onların problemlərini dinləyiblər, məsələnin araşdırılması və təcili dəstəyin göstərilməsi üçün aidiyyatı qurumlara məktublar göndəriblər. Aprelin 29-dan etibarən "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətində fərdi konsultasiyaların keçirilməsi, reabilitasiyaya cəlb olunmuş ailələrlə görüşlərin təşkili qismən bərpa olunub.

Son ay ərzində qaynar xəttin mediada təbliği istiqamətində də addımlar atılıb. Mərkəzin əməkdaşları yerli televiziya kanallarında çıxışlar edərək mövcud problemlərdən danışıblar, maarifləndirməyə diqqət yetiriblər. Media orqanlarında uşaqların evdə səmərəli vaxt keçirməsi, onların özgüvən problemi, koronavirusdan qorunma və digər önəmli mövzularda müzakirələr aparılıb. Eyni zamanda, sosial şəbəkələrdə də fəaliyyət genişləndirilib, canlı yayımlar təşkili olunub.

Ümumilikdə, 2020-ci ilin ilk 4 ayı ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə 2069 müraciət daxil olub.


## BİLDİRİŞ

18.03.2020-ci il tarixdə "Azərbaycan" qəzeti və elektron satınalma Portalında elan edilmiş "Bakı Telefon Rabitəsi" MMC-nin xidməti ərazisində EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorların satın alınması proseduru üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.2-ci maddəsinin ikinci abzasına əsasən (tender təklifləri tenderin əsas şərtlər toplusuna uyğun olmadıqda) tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## “Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2020-ci ilin 2-ci rübü üçün

### *kotirovka sorğusu elan edir*

1. Kompüter tomoqrafiyası avadanlığının xəstə stolunu hərəkət etdirən mexanizmin təmiri
2. Mətbəə məhsulları üzrə xərclər

Kotirovka sorğusu üzrə müraciətlər 13.05.2020-ci il saat 13:00-dək qəbul edilir.
Zərflərin açılması: 13.05.2020-ci il saat 14:00

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon: +994555004599; +994552041520**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında informasiya və kiber təhlükəsizliyinin gücləndirilməsi məqsədilə avadanlıqların alınması və quraşdırılaraq fəaliyyətdə olan informasiya sistemlərinə inteqrasiyası ilə bağlı “Azərbaycan” qəzetinin

17 mart 2020-ci il tarixli nömrəsində dərc edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 27 aprel 2020-ci il tarixli qərarına əsasən “SMARTİT” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Rabitə xətt təsərrüfatının tikintisi və istismarı üçün tələb olunan 10 abunəçi tutumlu hermetik plastik korpuslu paylayıcı abunəçi qutusunun satın alınması

**İştirak haqqı: 300 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını “ASAN ödəniş” sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom”Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **05 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **16 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **17 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Avtonəqliyyat və xüsusi texniki vasitələrin təmiri üçün ehtiyat hissələrinin, sürtkü yağlarının və texniki qulluq xidmətinin satın alınması.

**İştirak haqqı: 500 (beş yüz) manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom”Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcüməsi olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **03 iyun 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **11 iyun 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **12 iyun 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“AtaSığorta” ASC bildirir ki, 08.04.2020-ci il tarixdən etibarən şirkətin baş ofisi **Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 124** ünvanına köçürülmüşdür.

**Əlaqə telefonu: 012 936**

***Rəhbərlik***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsi üzrə

### *iş elanı*

**Vəzifə:** LİQ Məşğulluq üzrə mütəxəssis

**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Layihə İcra Qrupu:**

LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**

- Komponent 1 və 2-ci və 3-cü komponentlərin 2.2-ci və 3.2-ci alt komponentləri üzrə fəaliyyətlərinə nəzarət etmək;
- Layihə nəticələrinin vaxtında əldə edilməsini təmin etmək və etibarlı fəaliyyət qiymətləndirməsini aparmaq məqsədilə məsləhətçilərə nəzarət etmək;
- Komponentlər ilə əlaqəli bütün fəaliyyətlər üzrə alınan texniki və maliyyə təkliflərinin qiymətləndirilməsində iştirak etmək;
- Texniki şərtlərin hazırlanması və Komponentlər ilə əlaqəli satın alınacaq bütün fəaliyyətlər üzrə sənədlərin hazırlanmasında köməklik göstərmək;
- Layihə Əməliyyat Təlimatının hazırlanmasına və yenilənməsinə dəstək olmaq;
- Layihəyə cəlb olunan sahibkarlıq təlimçilərinin, biznesin inkişafı mentorlarının və digər təlimçilərin işinə nəzarət etmək;
- Layihə benefisiarlarının yüksək keyfiyyətli texniki və məsləhət dəstəyini təmin etmək üçün sahibkarlıq təlimçiləri və məşğulluq mentorları ilə müntəzəm əlaqə qurmaq;
- Sahibkarlıq və işgüzar bacarıqların inkişafı üzrə təlim materialının məzmunu barədə məsləhətlər vermək;
- Təlimçilərə və məşğulluq tərbiyəçilərinə yerli qurumlar və regional məşğulluq mərkəzləri, sosial müdafiə şöbələri, yerli və regional biznesə dəstək təşkilatları və s. ilə səmərəli əməkdaşlığın qurulmasında dəstək vermək;
- Təlimçilər və mentorların tədris keyfiyyətinə dair rəylərin toplanılması və nəzərət edilməsi və ödənişlərin emalı üzrə tövsiyələrin təqdim edilməsi;
- Layihə benefisiarlarına sahibkarlıq və biznesin inkişafı sahəsində verilən təlimlərin keyfiyyətinə nəzarət etmək və hesabat hazırlamaq;
- Qrant müqaviləsi və satınalma prosedurlarına uyğun olaraq avadanlıq və materialların verilməsinə nəzarət etmək;
- Müvafiq Regional Məşğulluq mərkəzləri və layihə üzrə koordinator rolunu həyata keçirmək, layihə ərazilərinə müntəzəm səfərlər və nəzarət etmək, müasir və yenilikçi İT həllərindən istifadə etməklə məlumat toplamaq və layihənin gedişatının monitorinqini aparmaq, davam edən tədbirlərin razılaşdırılmış iş planlarına uyğunluğunu yoxlamaq;
- Biznes planların qiymətləndirilməsində iştirak etmək, qiymətləndirmə prosesini koordinasiya etmək;
- Təklif olunan iş yerlərini yoxlamaq, qısa bazar araşdırması aparmaq və potensial satıcıları müəyyənləşdirmək, aktivlərin satın alınmasında kömək etmək;
- Layihə benefisiarlarına qrantın verilməsi üçün bütün rəsmi şərtlərin yerinə yetirildiyini təsdiqləmək və Qrant Sazişlərinin hazırlanmasında köməklik göstərmək;
- Aktivlərin təhvil verilməsi prosesinə nəzarət etmək;
- Avadanlıqların inventar uçotunu aparılması və sənədlərin qaydasında olmasını təmin etmək və layihə tərəfdaşları və benefisiarlar ilə əməkdaşlığı qiymətləndirmək üçün lazımi sübutların təmin edilməsi;
- Vaxtaşırı aktivlərə nəzarət etmək;
- Layihə məqsədlərinə çatmaqda və həyata keçirilməsində son benefisiarlara dəstək olmaq;
- Mikro biznes layihələrinin həyata keçirilməsi zamanı benefisiarlara məsləhət xidmətləri göstərmək;
- Regional Məşğulluq mərkəzlərinin işçilər üçün təlim məşğələlərinin təşkili cədvəli və strategiyasının hazırlanmasında iştirak etmək;
- Görülmüş və görüləcək işlər barədə Dünya Bankı və LİQ Koordinatorunu mütəmadi olaraq məlumatlandırmaq;
- Layihənin nəticələrini bütün maraqlı tərəflərə, habelə beynəlxalq, regional və milli tədbirlərdə təqdim etmək üçün seminar və “dəyirmi masa”larda iştirak etmək;
- İş planlarında müəyyənləşdirildiyi kimi Layihə fəaliyyətlərinin həyata keçirilməsinə nəzarət etmək, lazım olduqda planları yeniləmək;
- İllik İş Planının, habelə tələb olunduqda rüblük planların hazırlanmasında iştirak etmək;
- Bankın nəzarət missiyaları üçün lazımi tədbirlər görmək və iştirak etmək;
- Layihənin digər fəaliyyətlərini dəstəkləmək üçün LİQ üzvləri ilə qarşılıqlı əlaqə qurmaq;
- Layihə nəticələri strukturunun yenilənməsinə kömək etmək;
- Layihə nəticələri üzrə hesabatlarının və tələb olunduğu təqdirdə digər layihə hesabatlarının hazırlanmasında və təqdim edilməsində iştirak etmək.

**LİQ Məşğulluq üzrə mütəxəssisi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**

- Azərbaycan vətəndaşı, Azərbaycan və ingilis dillərində sərbəst ünsiyyət qurma bacarığı və rus dilində bilik səviyyəsi;
- Yerli və ya beynəlxalq ali təhsil müəssisəsindən magistr dərəcəsi;
- Dünya Bankı və digər beynəlxalq layihələrin planlaşdırılması və həyata keçirilməsində ən azı 10 illik təcrübə;
- Özünüməşğulluq layihələrinin icrasında təcrübə;
- Azərbaycanda sosial yardım üzrə qaydalar, institusional tənzimləmə və iş prosesləri üzrə biliklər;
- Minimum nəzarət, güclü analitik, təşkilatçılıq, yazı qabiliyyəti ilə iş yükünü idarə etmək bacarığı;
- Əla ünsiyyət bacarıqları: kompüter istifadəçisi; şifahi və yazılı təqdimatlarda güclü bacarıqlar.

Məsləhətçi, Dünya Bankı Satınalmalar Qaydalarında göstərilən Fərdi Məsləhətçi seçmə metoduna uyğun olaraq seçiləcəkdir.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**
**E-mail:** asep.huseyn@gmail.com

**Müraciət üçün son tarix:** 19 may 2020

**Qeyd:**

- Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir;
- Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsi üzrə

### *iş elanı*

**Vəzifə:** LİQ Əmək bazarı üzrə mütəxəssis

**Layihə/İdarə:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Məşğulluğa Dəstək Layihəsi

**Layihə İcra Qrupu:**

LİQ Dünya Bankının fidusiar və hesabatvermə tələblərinə uyğun olaraq, satınalmalar, maliyyə idarəetməsi, sosial və ətraf mühitlə bağlı tələblər, eləcə də üç komponentin monitorinqi və onların icrası ilə bağlı mütəmadi hesabatvermə üçün məsul olacaq.

**Vəzifə və tapşırıqlar:**

- Komponent 2 üzrə fəaliyyətlərə nəzarət etmək;
- Layihə nəticələrinin vaxtında əldə edilməsini təmin etmək və etibarlı fəaliyyət qiymətləndirməsini aparmaq məqsədilə məsləhətçilərə nəzarət etmək;
- Komponent 2 ilə əlaqəli bütün fəaliyyətlər üzrə alınan texniki və maliyyə təkliflərinin qiymətləndirilməsində iştirak etmək;
- Texniki şərtlərin hazırlanması və Komponent 2 üzrə satın alınacaq bütün fəaliyyətlər üzrə sənədlərinin hazırlanmasında köməklik göstərmək;
- Layihə Əməliyyat Təlimatının hazırlanmasına və yenilənməsinə dəstək olmaq;
- Layihə məqsədlərinə çatmaqda və həyata keçirilməsində son benefisiarlara dəstək olmaq;
- Mikro bizneslərin həyata keçirilməsi zamanı benefisiarlara məsləhət xidmətləri göstərmək;
- Fərdi iş idarəetmə və effektiv profilləşdirmə vasitələri üzrə metodologiyaların hazırlanmasında köməklik göstərmək; istifadəçi təlimatları və təlim materiallarının hazırlanması və DMX işçilərinə bu alətlərdən istifadə üzrə təlimlərin verilməsi;
- Regional Məşğulluq mərkəzlərinin işçilər üçün təlim məşğələlərinin təşkili cədvəli və strategiyasının hazırlanmasında iştirak etmək;
- Peşə Təhsil mərkəzlərinin genişləndirilməsi və təkmilləşdirilməsi strategiyasının hazırlanmasında iştirak etmək;
- Həm fəaliyyəti dayanmış, həm də qeydiyyata alınmamış əhali və şirkətlər üzrə maarifləndirmə və məlumatlandırma strategiyasının inkişafına töhfə vermək;
- Görülmüş və görüləcək işlər barədə Dünya Bankı və LİQ Koordinatorunu mütəmadi olaraq məlumatlandırmaq;
- Layihənin nəticələrini bütün maraqlı tərəflərə, habelə beynəlxalq, regional və milli tədbirlərdə təqdim etmək üçün seminar və “dəyirmi masa”larda iştirak etmək;
- İş planlarında müəyyənləşdirildiyi kimi Layihə fəaliyyətlərinin həyata keçirilməsinə nəzarət etmək, lazım olduqda planları yeniləmək;
- İllik İş Planının, habelə tələb olunduqda rüblük planların hazırlanmasında iştirak etmək;
- Bankın nəzarət missiyaları üçün lazımi tədbirlər görmək və iştirak etmək;
- Layihənin digər fəaliyyətlərini dəstəkləmək üçün LİQ üzvləri ilə qarşılıqlı əlaqə qurmaq;
- Layihə nəticələri strukturunun yenilənməsinə kömək etmək;
- Beynəlxalq nümunələrə və iş təcrübəsinə əsaslanaraq, məlumatların yayılması, monitorinqi və qiymətləndirilməsi fəaliyyətinin yaxşılaşdırılması, habelə səhv və fırıldaqçılığın azaldılması imkanlarının gücləndirilməsi üçün sənədlərin hazırlanması;
- Layihə nəticələri üzrə hesabatlarının və tələb olunduğu təqdirdə digər layihə hesabatlarının hazırlanmasında və təqdim edilməsində iştirak etmək.

**LİQ Əmək bazarı üzrə mütəxəssisi vəzifəsinə uyğun namizəd olmaq üçün minimum tələblər:**

- Azərbaycan vətəndaşı, Azərbaycan və ingilis dillərində sərbəst ünsiyyət qurma bacarığı və rus dilində bilik səviyyəsi;
- Yerli və ya beynəlxalq ali təhsil müəssisəsindən magistr dərəcəsi;
- Dünya Bankı və digər beynəlxalq layihələrin planlaşdırılması və həyata keçirilməsində ən azı 5 illik təcrübə;
- Azərbaycanda sosial yardım üzrə qaydalar, institusional tənzimləmə və iş prosesləri üzrə biliklər;
- Əmək bazarının qiymətləndirilməsi layihələrinin həyata keçirilməsində təcrübə;
- Əmək münasibətlərinin tənzimlənməsi, aktiv və passiv əmək bazarı proqramlarının icrası ilə bağlı üstünlük təşkil edən qanuni və digər normativ sənədlər üzrə biliyə malik olmaq;
- Minimum nəzarət, güclü analitik, təşkilatçılıq, yazı qabiliyyəti ilə iş yükünü idarə etmək bacarığı;
- Əla ünsiyyət bacarıqları: kompüter istifadəçisi; şifahi və yazılı təqdimatlarda güclü bacarıqlar.

Məsləhətçi, Dünya Bankı Satınalmalar Qaydalarında göstərilən Fərdi Məsləhətçi seçmə metoduna uyğun olaraq seçiləcəkdir.

**Namizədlər tərcümeyi-hallarını aşağıdakı ünvana göndərməlidirlər:**
**E-mail:** asep.huseyn@gmail.com

**Müraciət üçün son tarix:** 19 may, 2020

**Qeyd:**

- Göndərilən elektron məktubun başlığında Layihə və iş elanının adı qeyd edilməlidir;
- Ancaq seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi AMEA-nın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürova oğlu **NURAN ŞÜKÜROVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü Yusif İbrahimliyə həyat yoldaşı **ANAXANIM XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“TuranBank” ASC-nin Müşahidə Şurası və İdarə Heyəti Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevə atası **SƏLİM QULİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7552
Sifariş 1191
Qiyməti 40 qəpik